# Xalq qəzeti

Xalqın qəzeti!

№ 95 (31064) 3 iyun 2026-cı il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi


## Azərbaycanın qlobal enerji bazarında rolu və mövqeyi davamlı olaraq yüksəlir

**Bu gün Avropa enerji bazarının Cənub Qaz Dəhlizi olmadan necə olacağını təsəvvür etmək çətindir. Keçən il "Bakı Enerji Həftəsi"ndə mən auditoriyaya məlumat verdim ki, Azərbaycan qazını 12 ölkə alır. Bu gün onların sayı 16-dır və onlardan 10-u Avropa İttifaqına üzv olan ölkələrdir.**

**Boru xətti ilə qazın müxtəlif ölkələrə nəql edilməsi, ərazi və coğrafiya kimi parametrlərə baxsanız, görərsiniz ki, biz dünyada birinciyik. Bizim qlobal enerji təhlükəsizliyinə töhfəmiz, əlbəttə ki, artacaqdır. 30 il əvvəl biz investorları cəlb edirdik. İndi isə öz investisiyalarımızla xaricə çıxırıq.**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***



## İtaliya Respublikasının Prezidenti Zati-aliləri cənab Sercio Mattarellaya

**Hörmətli cənab Prezident!**

Əlamətdar tarix – İtaliya Respublikasının yaranmasının 80-ci ildönümü münasibətilə Sizi və Sizin simanızda dost xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik etməkdən məmnunluq duyuram.

İtaliya Azərbaycanın yaxın dostu və etibarlı strateji tərəfdaşıdır. Şadam ki, ölkələrimiz arasında münasibətlər qarşılıqlı hörmət və etimad ruhunda inkişaf edir, çoxölçülü strateji tərəfdaşlığımız gündən-günə genişlənir və yeni məzmunla zənginləşir. Biz İtaliya ilə münasibətlərimizin bütün sahələrdə inkişafına xüsusi əhəmiyyət veririk.

Keçən ilin oktyabrında Sizin Azərbaycana ikinci dəfə rəsmi səfər etməyiniz dövlətlərarası əlaqələrimizin və aramızdakı siyasi dialoqun yüksək səviyyəsindən xəbər verir. Səfər çərçivəsində İtaliya-Azərbaycan Universitetinin açılışında birgə iştirakımız ölkələrimiz arasında mədəni-humanitar əlaqələrin inkişafına ən ali səviyyədə göstərilən diqqətin təzahürüdür.

Siyasi əlaqələrimizin yüksək səviyyəsi Azərbaycan-İtaliya qarşılıqlı fəaliyyətinin inkişafında mühüm rol oynayır. Bu gün ikitərəfli gündəliyimizdə duran məsələlərin spektri çox genişdir. Uğurlu iqtisadi-ticari, enerji, sənaye istehsalı tərəfdaşlığından tutmuş təhsilə qədər uzanan və ildən-ilə yeni sahələri əhatə edən əməkdaşlığımız strateji xarakter daşıyır. İqtisadi əlaqələrimizin mövcud potensialının tam şəkildə reallaşdırılması, sərmayə, müdafiə, humanitar, o cümlədən yeni istiqamətlər üzrə əməkdaşlığın şaxələndirilməsi qarşımızda duran əsas məsələlərdəndir.

Əminəm ki, Azərbaycan-İtaliya dostluğunun və etibarlı tərəfdaşlığının möhkəmləndirilməsi, əməkdaşlığımızın hərtərəfli genişləndirilməsi naminə birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, dost İtaliya xalqına daim firavanlıq və rifah arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 26 may 2026-cı il**

## Beynəlxalq enerji təqdimatları




**Dünən 31-ci "Bakı Enerji Həftəsi"nin aparıcı və strateji enerji dialoqu məkanı sayılan Bakı Enerji Forumu öz işini davam etdirdi. BMT-nin tərəfdaşı, dünyada hər kəs üçün dayanıqlı enerjiyə universal çıxışı təmin etməyə çalışan beynəlxalq qeyri-kommersiya təşkilatı–SeforAll şirkətinin idarə heyətinin üzvü Con Defteriosun açılış nitqindən sonra "Liderlərin çıxışları: Enerji transformasiyası və gələcək strategiyaları mövzusunda liderlərin mövqeyi" mövzusunda sessiya açıq elan olundu.**

*(ardı 7-ci səhifədə)*

## "Dəmir İpək yolu" yenidən işə salındı




Səhifə ⇨ 15

## ABŞ ilə çoxtərəfli əməkdaşlığın növbəti hədəfləri



Səhifə ⇨ 7

## Qərbi Azərbaycana Qayıdışın hüquqi arxitekturası



Səhifə ⇨ 5

## Daxili imkanlara əsaslanan suveren güc



Səhifə ⇨ 3

## Paşinyan "ixrac böhranı"ndan çıxış yolunu nədə və necə görür?



Səhifə ⇨ 4

## Brüsseldən İrəvana yeni mesaj



Səhifə ⇨ 4

## BMT-də Baş katib seçkisi öncəsi maliyyə çöküşü təhlükəsi



Səhifə ⇨ 14

## Rəqəmsal keçid kəndə də yeni düzən gətirəcək



Səhifə ⇨ 11

# Kibertəhlükəsizlik sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi və Fərmanının ləğv edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, kibertəhlükəsizlik və fərdi məlumatların mühafizəsi sahələrində idarəetmə, tənzimləmə və nəzarət mexanizmlərinin təkmilləşdirilməsi, bu sahələrdə həyata keçirilən fəaliyyətin optimallaşdırılması və dövlət nəzarətinin səmərəliliyinin artırılması məqsədilə **qərara alıram:**

**1** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidmətinin əsasında Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin (bundan sonra – Nazirlik) tabeliyində "Milli Kibertəhlükəsizlik Agentliyi" publik hüquqi şəxs yaradılsın.

**2.** "Milli Kibertəhlükəsizlik Agentliyinin Nizamnaməsi" təsdiq edilsin *(əlavə olunur).*

**3** Müəyyən edilsin ki:

3.1. Milli Kibertəhlükəsizlik Agentliyi (bundan sonra – Agentlik) ölkədə kibertəhlükəsizlik sahəsində tənzimləmənin və nəzarətin (kritik informasiya infrastrukturlarına, dövlət orqanlarına (qurumlarına) məxsus olan informasiya infrastrukturlarına münasibətdə yalnız məlumat mübadiləsinin) həyata keçirilməsini, həmçinin dayanıqlılığın artırılmasını, o cümlədən informasiya infrastrukturu subyektlərinin fəaliyyətinin koordinasiyasını, informasiya infrastrukturlarının kibertəhlükəsizliyinin pozulmasına yönəldilmiş hərəkətləri aşkarlamaq, araşdırmaq və qarşısını almaq üçün preventiv tədbirlərin görülməsini (dövlət orqanlarına (qurumlarına) məxsus olan informasiya infrastrukturları, eləcə də kritik informasiya infrastrukturları istisna olmaqla), mövcud və yarana biləcək kibertəhlükələr barədə ölkə səviyyəsində məlumatlandırmanı, əhalinin, dövlət və qeyri-dövlət qurumlarının kibertəhlükəsizlik sahəsində maarifləndirilməsini və onlara metodiki dəstək göstərilməsini təmin edən (ali kateqoriya dövlət orqanlarına, mühafizə olunan şəxslərə, qorunan və strateji obyektlərə, habelə dövlət orqanlarına (qurumlarına) məxsus olan informasiya infrastrukturlarına münasibətdə aidiyyəti səlahiyyətli orqan vasitəsilə, kritik informasiya infrastrukturunun təhlükəsizliyinə münasibətdə kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi sahəsində səlahiyyətli orqan vasitəsilə), habelə yayılması qadağan edilən informasiyanın internet informasiya ehtiyatlarında yerləşdirilməsinə qarşı tədbirlər görən və fərdi məlumatların mühafizəsi sahəsində fəaliyyət göstərən publik hüquqi şəxsdir;

3.2. Agentlik bu Fərmanın 1-ci hissəsində qeyd edilən dövlət orqanının hüquqi varisidir, onun bütün hüquq və öhdəlikləri, habelə əmlakı Agentliyə keçir;

3.3. Agentliyin nizamnamə fondu bu Fərmanın 1-ci hissəsində qeyd edilən dövlət orqanı üçün cari ilin dövlət büdcəsində nəzərdə tutulmuş və həmin dövlət orqanının öhdəliklərinin tam icra olunduğu tarixədək istifadə olunmamış vəsait hesabına formalaşdırılır;

3.4. Agentliyin fəaliyyətinin təşkili və təmin edilməsi xərcləri fəaliyyətindən, o cümlədən göstərdiyi xidmətlərdən əldə olunan vəsait və qanunla qadağan edilməyən digər mənbələr hesabına maliyyələşdirilir;

3.5. Agentliyin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün 4 (dörd) üzvdən – sədr və onun 3 (üç) müavinindən ibarət İdarə Heyəti yaradılır.

**4** Agentliyin təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

4.1. Azərbaycan Respublikasının Prezidentinə:

4.1.1. Agentliyin nizamnaməsinin təsdiqi və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onlarda dəyişiklik edilməsi;

4.1.2. Agentliyin idarəetmə orqanlarının yaradılması;

4.1.3. Agentliyin yenidən təşkili və ləğvi;

4.2. Nazirliyə:

4.2.1. bu Fərmanın 4.1-ci bəndində qeyd edilənlər istisna olmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

**5** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

5.1. Agentlik dövlət qeydiyyatına alındığı gündən 1 (bir) ay müddətində bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulan dövlət orqanının balansındakı əmlakın Agentliyin balansına verilməsini təmin etsin və Agentliyin maddi-texniki təminatının yaxşılaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

5.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**6.** Nazirlik:

6.1. Agentliyin dövlət qeydiyyatına alınması üçün bu Fərman qüvvəyə mindiyi tarixdən 3 (üç) gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tədbirlər görsün;

6.2. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

**7** "İnformasiya təhlükəsizliyi sahəsində fəaliyyətin təkmilləşdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 26 sentyabr tarixli 708 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 860 (Cild I) 4-cü hissəsi aşağıdakı redaksiyada verilsin:

"4. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ölkədə ümumi kibertəhlükəsizlik vəziyyətini mütəmadi təhlil etsin, əhalinin, dövlət və qeyri-dövlət qurumlarının rəqəmsal vasitələrdən istifadə zamanı mövcud və yarana biləcək kibertəhlükələr barədə məlumatlandırılmasını həyata keçirsin, onlara texniki və metodiki dəstək göstərsin (ali kateqoriya dövlət orqanlarına, mühafizə olunan şəxslərə, qorunan və strateji obyektlərə, habelə dövlət orqanlarına (qurumlarına) məxsus olan informasiya infrastrukturlarına münasibətdə aidiyyəti səlahiyyətli orqan vasitəsilə, kritik informasiya infrastrukturunun təhlükəsizliyinə münasibətdə kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi sahəsində səlahiyyətli orqan vasitəsilə), ölkəyə daxil olan ümumi internet trafikində qlobal kiberhücumların qarşısını almaq məqsədilə telekommunikasiya operatoru, provayderi və aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə qabaqlayıcı tədbirlər görsün və mütəmadi olaraq Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.".

**8** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765 (Cild I); 2024, № 4, maddə 381, № 6 (I kitab), maddə 649, № 7, maddələr 812, 814, 815, № 12 (I kitab), maddə 1294, (II kitab), maddə 1367; 2025, № 2, maddə 127, № 3, maddə 232, № 4 (I kitab), maddə 325, № 5, maddə 463, № 6, maddələr 541, 561, № 8, maddələr 756, 763, № 9, maddə 820, № 10, maddə 898, № 11, maddələr 1018, 1036; 2026, № 1, maddə 36, № 2, maddə 123, № 3, maddə 226; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 15 aprel tarixli 643 nömrəli və 6 may tarixli 660 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin və hərbi məhkəmələrin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 31-5.2-ci bəndində "yanında Elektron Təhlükəsizlik Xidmətinin rəisi, onun müavini, şöbə müdiri, onun müavini, sektor müdiri" sözləri "tabeliyində Milli Kibertəhlükəsizlik Agentliyinin İdarə Heyətinin sədri, onun müavinləri, departament direktoru, onun müavini, şöbə müdiri, baş mütəxəssis, böyük mütəxəssis, aparıcı mütəxəssis, mütəxəssis" sözləri ilə əvəz edilsin.

**9** "Azərbaycan Respublikasında rəqəmsal inkişaf və nəqliyyat sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 1, maddə 41 (Cild I); 2024, № 2, maddə 155, № 6 (I kitab), maddə 654, № 8, maddə 948, № 12 (I kitab), maddə 1287; 2025, № 3, maddələr 224, 227, № 6, maddə 552, № 8, maddə 759; 2026, № 3, maddə 227) aşağıdakı dəyişikliklər edilsin:

9.1. 5-ci hissədən ", Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidmətinin işçilərinin say həddi 30 ştat vahidi" sözləri çıxarılsın;

9.2. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə"nin 3-cü hissəsi üzrə:

9.2.1. 3.0.36-cı və 3.0.36-1-ci yarımbəndlərə "sistemlərinin" sözündən sonra "(ali kateqoriya dövlət orqanlarının, habelə mühafizə olunan şəxslərin, qorunan və strateji obyektlərin təhlükəsizliyini təmin edən dövlət orqanlarının, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin və dövlət sirrinə aid edilən fərdi məlumatların informasiya ehtiyatları və sistemləri istisna olmaqla)" sözləri əlavə edilsin;

9.2.2. 3.0.67-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.0.67. ölkədə ümumi kibertəhlükəsizlik vəziyyətini mütəmadi təhlil etmək, əhalini, dövlət və qeyri-dövlət qurumlarını rəqəmsal vasitələrdən istifadə zamanı mövcud və yarana biləcək kibertəhlükələr barədə məlumatlandırmaq, onlara texniki və metodiki dəstək göstərmək (ali kateqoriya dövlət orqanlarının, mühafizə olunan şəxslərə, qorunan və strateji obyektlərə, habelə dövlət orqanlarına (qurumlarına) məxsus olan informasiya infrastrukturlarına münasibətdə aidiyyəti səlahiyyətli orqan vasitəsilə, kritik informasiya infrastrukturunun təhlükəsizliyinə münasibətdə kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi sahəsində səlahiyyətli orqan vasitəsilə), ölkəyə daxil olan ümumi internet trafikində qlobal kiberhücumların qarşısını almaq məqsədilə telekommunikasiya operatoru, provayderi və aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə qabaqlayıcı tədbirlər görmək, kibertəhlükəsizlik sahəsində informasiya infrastrukturu subyektlərinin fəaliyyətinin koordinasiyasını (kritik informasiya infrastrukturları, dövlət orqanlarına (qurumlarına) məxsus olan informasiya infrastrukturlarına münasibətdə yalnız məlumat mübadiləsini) həyata keçirmək;";

9.2.3. 3.0.67-1-ci yarımbənddə "qurumlarına" sözü "orqanlarına (qurumlarına)" sözləri ilə əvəz edilsin;

9.2.4. 3.0.67-2-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.0.67-2. ölkədə kibertəhlükəsizlik sahəsində koordinasiyanı (kritik informasiya infrastrukturları, dövlət orqanlarına (qurumlarına) məxsus olan informasiya infrastrukturlarına münasibətdə yalnız məlumat mübadiləsini) və preventiv tədbirlərin görülməsini, habelə kibertəhlükələr barədə məlumatların toplanılmasını və araşdırılmasını, eləcə də ölkə üzrə digər informasiya infrastrukturlarının kibertəhlükəsizliyinin pozulmasına yönəldilmiş hərəkətlərin aşkarlanmasını və araşdırılmasını, qarşısının alınmasını təmin edən milli kompüter insidentlərinə qarşı mübarizə mərkəzinin fəaliyyətini təşkil etmək, milli və sahəvi kompüter insidentlərinə qarşı mübarizə mərkəzləri arasında vahid məlumatlandırma mexanizmlərini müəyyən etmək;";

9.2.5. 3.0.69-cu yarımbəndə "sistemlərində" sözündən sonra "(ali kateqoriya dövlət orqanlarının, habelə mühafizə olunan şəxslərin, qorunan və strateji obyektlərin təhlükəsizliyini təmin edən dövlət orqanlarının, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin və dövlət sirrinə aid edilən fərdi məlumatların informasiya ehtiyatları və sistemləri istisna olmaqla)" sözləri əlavə edilsin;

9.2.6. 3.0.70-ci yarımbənddə "elektron təhlükələrin" sözləri "kibertəhlükələrin" sözü ilə əvəz edilsin;

9.2.7. 3.0.83-1-ci yarımbənddə "Nazirliyin yanında Elektron Təhlükəsizlik Xidməti" sözləri "tabeliyindəki qurum" sözləri ilə əvəz edilsin;

9.3. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin strukturu"nun 5-ci hissəsi ləğv edilsin.

**10.** Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 9, maddə 1826 (Cild I); 2024, № 6 (I kitab), maddə 654, № 9, maddə 1004; 2025, № 8, maddə 759) ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın

7.1.11-ci yarımbəndində "elektron təhlükələr" sözləri "kibertəhlükələr" sözü ilə əvəz edilsin.

**11** Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 14 iyun tarixli 742 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 6, maddə 1034 (Cild I); 2025, № 1, maddə 20) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin vəsaitindən istifadə Qaydası"nın 1.6.2-ci yarımbəndində "elektron təhlükələrin" sözləri "kibertəhlükələrin" sözü ilə əvəz edilsin.

**12.** Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 10, maddə 1376 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 4 may tarixli 659 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Normativ hüquqi aktlar" informasiya sistemi haqqında Əsasnamə"nin 7.1.4-cü yarımbəndində "elektron təhlükələr" sözləri "kibertəhlükələr" sözü ilə əvəz edilsin.

**13** "İnformasiya Təhlükəsizliyi üzrə Koordinasiya Komissiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 29 mart tarixli 3851 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 3, maddə 571 (Cild I); 2025, № 5, maddə 477) 1-ci hissəsində "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidmətinin rəisi" sözləri "Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində "Milli Kibertəhlükəsizlik Agentliyi" publik hüquqi şəxsin İdarə Heyətinin sədri" sözləri ilə əvəz edilsin.

**14** Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 27 fevral tarixli 953 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2026, № 2, maddə 162) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026−2028-ci illər üçün Fəaliyyət Planı"nın "8. Fəaliyyət Planının həyata keçirilməsi üzrə Tədbirlər Planı"nın 8.4.1-ci yarımbəndinin "aralıq nəticələr" və "yekun nəticələr" sütunlarında ismin müvafiq hallarında "Elektron Təhlükəsizlik Xidməti" sözləri ismin müvafiq hallarında "Milli Kibertəhlükəsizlik Agentliyi" sözləri ilə əvəz edilsin.

**15** "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 5 mart tarixli 833 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 3, maddə 235 (Cild I) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 2 iyun 2026-cı il**

# "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 858 (Cild I); 2024, № 5 (I kitab), maddələr 515, 529, № 7, maddə 797; 2025, № 8, maddə 771, № 11, maddə 1025) aşağıdakı dəyişikliklər edilsin:

**1** 5.24.4-cü yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 5.25-ci bənd əlavə edilsin:

"5.25. şəxsin dövlət narkoloji tibb müəssisələrində qeydiyyatda olmasına dair arayışın verilməsi.".

**2.** 6-cı hissənin birinci abzasına "Fövqəladə Hallar Nazirliyinə," sözlərindən sonra "Səhiyyə Nazirliyinə," sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 2 iyun 2026-cı il**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri!**

Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

İranın və Azərbaycanın xalqları çoxsaylı tarix, sivilizasiya, mədəniyyət, din və dil ortaqlıqlarına malikdirlər. Bu ortaq bağlar ölkələrimizin xalqları arasındakı dostluğu möhkəmləndirmiş və sarsılmaz etmişdir. Şübhəsiz ki, bizim qırılmaz bağlarımız iki ölkə arasında münasibətlərin inkişafı üçün möhkəm zəmin olmuşdur.

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra İran İslam Respublikası hər zaman iki ölkənin qarşılıqlı əlaqələrinin inkişafını dəstəkləmişdir. Biz şadıq ki, xalqlarımızın istək və arzularına uyğun olaraq bu gün ölkələrimiz arasındakı münasibətlərdə dinamik prosesin şahidiyik.

Ümidvaram ki, ikitərəfli, regional və beynəlxalq mövzuların geniş spektrini əhatə edən bu dinamik proses daha yüksək sürətlə davam edəcəkdir.

Uca Allahdan Zati-alinizə möhkəm cansağlığı və müvəffəqiyyətlər, Azərbaycan Respublikasının xalqına isə rifah və əmin-amanlıq arzulayıram.

**Hörmətlə,**

***Məsud PEZEŞKİAN,***
***İran İslam Respublikasının Prezidenti***

*

**Zati-aliləri cənab Prezident!**

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Zati-alinizə və xalqınıza səmimi təbriklərimi çatdırmaqdan şərəf duyuram. Uca Allahdan Sizə cansağlığı və rifah, Azərbaycan xalqına davamlı tərəqqi və firavanlıq arzu edirəm.

İslam Əməkdaşlıq Təşkilatı Azərbaycan Respublikası ilə sıx əlaqələrini yüksək qiymətləndirir və İslam fəaliyyətinin birgə təşviqi məqsədini daşıyan bu qurumun dəstəklənməsində ölkənizin rolunu təqdir edir. Təşkilatımız üzv dövlətlərin ümumi dəyərlərinin təbliği və bu dövlətlər arasında qarşılıqlı əməkdaşlığın möhkəmləndirilməsi işində səylərini bundan sonra da davam etdirəcək.

Üzv ölkələrin xalqları arasında həmrəyliyin gücləndirilməsində və birgə İslam fəaliyyəti üçün yeni üfüqlərin açılmasında Zati-alinizin dəstəyinə ümidvaram.

Zati-aliləri cənab Prezident, Sizə olan ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Hissein Brahim TAHA,***
***İslam Əməkdaşlıq Təşkilatının Baş katibi***

*

**Zati-aliləri!**

Bosniya və Herseqovinanın Rəyasət Heyəti adından və şəxsən öz adımdan Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə səmimi təbriklərimi və ölkənizin davamlı tərəqqisi ilə bağlı ən xoş arzularımı çatdırıram.

Fürsətdən istifadə edərək Bosniya və Herseqovina ilə Azərbaycan Respublikası arasında mövcud olan dostluq münasibətlərinin hər iki ölkənin qarşılıqlı mənafeləri naminə bundan sonra da inkişaf edəcəyinə səmimi olaraq əminliyimi bildirirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Denis BEÇİROVİÇ,***
***Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri***

*

**Zati-aliləri!**

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə Banqladeş xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi çatdırmaqdan şərəf duyuram.

Bu əlamətdar gün Azərbaycan xalqının qətiyyətinin, mətanətinin və milli ruhunun qürurverici sübutudur. İllər ərzində Azərbaycan Sizin bacarıqlı rəhbərliyinizlə sosial-iqtisadi tərəqqiyə nail olmaq və beynəlxalq miqyasda mövqeyini möhkəmləndirmək istiqamətində mühüm nailiyyətlər qazanıb.

Banqladeş Azərbaycanla qarşılıqlı hörmətə və sülh, sabitlik, rifahla bağlı ortaq istəklərə əsaslanan dostluq münasibətlərini yüksək qiymətləndirir. Əminəm ki, ölkələrimiz arasında sıx dostluq və əməkdaşlıq əlaqələri qarşıdakı illərdə daha da möhkəmlənəcək və genişlənəcək.

Bu xoş fürsətdən istifadə edərək Zati-alinizə cansağlığı və davamlı uğurlar, dost Azərbaycan xalqına bundan sonra da sülh, tərəqqi və firavanlıq arzulayıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Məhəmməd ŞAHABUDDİN,***
***Banqladeş Xalq Respublikasının Prezidenti***

*

**Hörmətli cənab Prezident!**

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sudan xalqı adından və şəxsən öz adımdan Zati-alinizə ən səmimi təbriklərimi və dost Azərbaycan xalqına davamlı tərəqqi, rifah və firavanlıq arzularımı çatdırmaqdan böyük məmnunluq duyuram. Həmçinin Zati-alinizə möhkəm cansağlığı və xoşbəxtlik arzulayıram.

Bu əlamətdar gün Sudan Respublikası ilə Azərbaycan Respublikasını birləşdirən qardaşlıq əlaqələrinin dərinliyini və möhkəmliyini bir daha təsdiqləmək üçün gözəl fürsət yaradır.

Bu xoş fürsətdən istifadə edərək ölkələrimizin qarşılıqlı maraqlarına və ortaq məqsədlərinə xidmət edən ikitərəfli əməkdaşlığımızın daha da inkişaf etdirilməsi və möhkəmləndirilməsi istiqamətində qətiyyətimi ifadə edirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı və dərin hörmətimi qəbul etməyinizi xahiş edirəm.

***Abdel Fattah Al-Burhan Abdelrahman Al-BURHAN,***
***Sudan Respublikasının Suveren Keçid Şurasının Sədri***

*

**Zati-aliləri!**

Azərbaycan Respublikasının Müstəqillik Gününün 108-ci ildönümü münasibətilə Zati-alinizə və xalqınıza Myanma İttifaqı Respublikasının xalqı adından və şəxsən öz adımdan səmimi təbriklərimizi və xoş arzularımızı çatdırıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Min Aung HLAİNG,***
***Myanma İttifaqı Respublikasının Prezidenti***

*

**Zati-aliləri!**

Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Zati-alinizə, Hökumətinizə və xalqınıza öz adımdan, eləcə də Şri-Lanka Hökuməti və xalqı adından səmimi təbriklərimi, xoş arzularımı çatdırmaqdan dərin məmnunluğumu ifadə edirəm.

Şri-Lanka ilə Azərbaycan arasında mövcud dostluq münasibətlərinin və sıx əməkdaşlığın daha da genişlənməsi böyük məmnunluq doğurur. Əminəm ki, ölkələrimizin qarşılıqlı dostluq və əməkdaşlıq əlaqələri gələcək illərdə xalqlarımızın rifahı naminə daha da möhkəmlənəcək.

Fürsətdən istifadə edərək Zati-alinizə möhkəm cansağlığı, xoşbəxtlik, böyük uğurlar, Azərbaycan xalqına isə davamlı sülh, tərəqqi və rifah arzulayıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Anura Kumara DİSSANAYAKE,***
***Şri-Lanka Demokratik Sosialist Respublikasının Prezidenti***

*

**Allahın salamı, rəhməti və bərəkəti üzərinizdə olsun!**

28 May - Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Zati-alinizə və qardaş Azərbaycan xalqına Əfqanıstan xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Əfqanıstan İslam Əmirliyi ilə Azərbaycan Respublikası arasında münasibətlər qarşılıqlı hörmətə, xoş niyyətə və dostluq əlaqələrinə əsaslanır. Əfqanıstan İslam Əmirliyi bu münasibətlərin müxtəlif sahələrdə daha da möhkəmləndirilməsinə və genişləndirilməsinə böyük önəm verir. Şübhəsiz ki, sıx əməkdaşlıq regional sabitliyin və rifahın təmin olunmasında, həmçinin hər iki ölkənin iqtisadi inkişafında mühüm rol oynaya bilər.

Fürsətdən istifadə edərək Uca Allahdan Zati-alinizə möhkəm cansağlığı və ali dövləti fəaliyyətinizdə uğurlar, dost Azərbaycan xalqına isə davamlı sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

**Hörmətlə,**

***Əl-Hac Molla Məhəmməd Həsən AXUND,***
***Əfqanıstan İslam Əmirliyinin Baş naziri***

***

**Hörmətli İlham Heydər oğlu!**

Rusiya Federasiyasının Xarici Kəşfiyyat Xidmətinin rəhbərliyi adından və şəxsən öz adımdan Sizi dövlət bayramı – Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə təbrik edirəm.

Sizə ali dövləti vəzifənizdəki fəaliyyətinizdə uğurlar, möhkəm cansağlığı, xoşbəxtlik və əmin-amanlıq arzulayıram.

Fürsətdən istifadə edərək Rusiyanın və Azərbaycanın xüsusi xidmətlərinin ölkələrimizin təhlükəsizliyinin təmin edilməsinin və sabit inkişafının bundan sonra da etibarlı qarantı olacaq əməkdaşlığının inkişafına göstərdiyiniz diqqətə və davamlı dəstəyə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm.

**Hörmətlə,**

***Sergey NARIŞKİN,***
***Rusiya Federasiyasının Xarici Kəşfiyyat Xidmətinin direktoru***

# Regional sabitliyin təhlükəsizlik təminatı

## *Azərbaycan–Gürcüstan hərbi əməkdaşlığının növbəti mərhələsi yeni ümidlər doğurur*



**Gürcüstanın Baş naziri İrakli Kobaxidze Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənovla görüşüb. Görüş Bakı və Tbilisi arasında uzun illərdir formalaşmış strateji tərəfdaşlığın müdafiə və təhlükəsizlik müstəvisində yeni mərhələyə daxil olduğunu göstərir. Tərəflər Azərbaycan–Gürcüstan münasibətlərinin mövcud vəziyyəti, regional və beynəlxalq gündəmdə duran aktual məsələləri, eləcə də müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığın perspektivlərini müzakirə ediblər.**

Qeyd edək ki, Azərbaycan və Gürcüstan arasında müdafiə sahəsində əməkdaşlığın genişlənməsi, birgə hərbi təlimlərin keçirilməsi, hərbi təhsil, kibertəhlükəsizlik, sərhəd mühafizəsi, terrorizm və transmilli təhdidlərə qarşı mübarizə regionda təhlükəsizlik arxitekturasının möhkəmləndirilməsinə xidmət edir. Bu kontekstdə, Azərbaycan və Gürcüstanın hərbi əməkdaşlığı regionda sülhün və qarşılıqlı etimadın vacib sütunlarından biri kimi çıxış edir.

İkitərəfli əməkdaşlığın mühüm istiqamətlərindən biri regionun enerji və nəqliyyat infrastrukturlarının təhlükəsizliyinin təmin edilməsidir. Azərbaycan və Gürcüstanın ərazisindən keçən beynəlxalq enerji və logistika marşrutları Avropa ilə Asiyanı birləşdirən strateji kommunikasiya xətləri kimi mühüm geosiyasi və geoiqtisadi əhəmiyyətə malikdir. Bakı–Tbilisi–Ceyhan neft kəməri, Cənub Qaz Dəhlizi, Bakı–Tbilisi–Qars dəmir yolu və digər transmilli layihələrin qorunması iki ölkənin deyil, həm də beynəlxalq tərəfdaşların maraqlarına cavab verir. Məhz buna görə strateji əhəmiyyət daşıyan bu layihələrin mümkün risk və təhdidlərdən qorunması Azərbaycan–Gürcüstan əməkdaşlığının prioritet istiqamətlərindəndir.

O da məlumdur ki, müasir dövrdə enerji və nəqliyyat infrastrukturuna yönələn təhlükələr yalnız hərbi xarakter daşımır. Ənənəvi hərbi risklərlə yanaşı, kibertəhdidlər, hibrid təsir əməliyyatları, informasiya təhlükəsizliyi, kritik infrastrukturun qorunması və regional qeyri-sabitlik faktorları ön plana çıxıb. Bu səbəbdən Azərbaycan və Gürcüstan arasında operativ məlumat mübadiləsinin genişləndirilməsi, birgə risk qiymətləndirmələrinin aparılması və koordinasiyalı fəaliyyət mexanizmlərinin təkmilləşdirilməsi xüsusi aktuallıq kəsb edir. Çünki müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığın inkişafı regionda iqtisadi sabitliyin və əlverişli investisiya mühitinin qorunmasına töhfə verir. Strateji infrastrukturun etibarlı mühafizəsi isə xarici investisiyaların cəlb edilməsinə, tranzit potensialının genişlənməsinə və regionun qlobal iqtisadi sistemə inteqrasiyasının sürətlənməsinə əlverişli şərait yaradır. Bu baxımdan, Azərbaycan–Gürcüstan hərbi əməkdaşlığı Cənubi Qafqazda sabitliyin və təhlükəsizliyin qorunmasına xidmət edən ən uğurlu regional tərəfdaşlıq modelidir.

Bu tərəfdaşlığın müdafiə və təhlükəsizlik sahəsində daha da gücləndirilməsi yalnız iki dövlətin milli maraqlarına xidmət etmir, eyni zamanda, regionun enerji təhlükəsizliyinin, nəqliyyat əlaqələrinin davamlılığının və iqtisadi inkişaf perspektivlərinin qorunmasına xidmət edir. Məhz buna görə də Azərbaycan və Gürcüstan mütəmadi olaraq birgə hərbi təlimlər keçirirlər. Hər iki ölkə bir-birində hərbi attaşelər vasitəsilə təmsil olunur, səfirliklər və müdafiə qurumları arasında sıx əlaqələr saxlanılır.

Son aylarda Azərbaycan və Gürcüstan rəhbərləri arasında keçirilən yüksək səviyyəli görüşlərdə iki ölkə arasında dostluq, qarşılıqlı etimad və strateji tərəfdaşlıq münasibətlərinin Cənubi Qafqazda sabitliyin əsas dayaqlarından biri olduğu dəfələrlə vurğulanıb. Tbilisidə baş tutan bu görüş isə münasibətlərin müdafiə və təhlükəsizlik sahəsində yeni məzmun və dinamika qazandığını göstərir.

*



Mövzu ilə bağlı XQ-yə açıqlama verən **politoloq Yeganə Hacıyeva** bildirdi ki, Azərbaycan və Gürcüstan arasında müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığın genişlənməsi təkcə ikitərəfli münasibətlərin inkişafı deyil, eyni zamanda, Cənubi Qafqazda yeni təhlükəsizlik balansının formalaşmasının göstəricisidir. Onun sözlərinə görə, son illər regionda baş verən geosiyasi dəyişikliklər, qlobal güclər arasında rəqabətin dərinləşməsi, enerji təhlükəsizliyinin ön plana çıxması və beynəlxalq nəqliyyat marşrutlarının öneminin artması Bakı ilə Tbilisi arasında koordinasiyanın gücləndirilməsini zəruri edir: “Azərbaycan və Gürcüstan bu gün Cənubi Qafqazda qarşılıqlı etimada əsaslanan ən sabit və institusionallaşmış tərəfdaşlıq modelini formalaşdıran dövlətlərdir. Bu əməkdaşlıq yalnız siyasi dialoq və iqtisadi layihələrlə məhdudlaşmır, eyni zamanda, regional təhlükəsizliyin təmin olunmasına yönəlmiş uzunmüddətli strateji baxışa söykənir. Hazırkı mərhələdə Azərbaycan–Gürcüstan münasibətlərinin əsas xüsusiyyəti ondan ibarətdir ki, tərəflər regional proseslərə artıq yalnız milli maraqlar prizmasından deyil, ortaq təhlükəsizlik məkanı yanaşması ilə baxmağa başlayıblar. Bu isə müdafiə sahəsində əməkdaşlığın yeni məzmun qazanmasına səbəb olur. Birgə hərbi təlimlər, kibertəhlükəsizlik sahəsində əməkdaşlıq, sərhəd təhlükəsizliyi, kritik infrastrukturun mühafizəsi sahələrində əlaqələrin genişləndirilməsi regionun dayanıqlılığını əhəmiyyətli dərəcədə artırır”.

Siyasi şərhçi bildirdi ki, Bakı və Tbilisi arasında hərbi-siyasi koordinasiyanın güclənməsi xüsusilə Orta Dəhlizin perspektivi fonunda böyük əhəmiyyət kəsb edir: “Avropa ilə Asiya arasında yükdaşımaların və enerji axınlarının mühüm hissəsinin Azərbaycan və Gürcüstan üzərindən keçməsi bu ölkələri qlobal logistika və enerji xəritəsində strateji mövqeyə yüksəldib. Azərbaycan və Gürcüstan ərazisindən keçən enerji kəmərlərinin, dəmir yolu xətlərinin, limanların və logistika qovşaqlarının təhlükəsizliyi Avropanın enerji təhlükəsizliyi, Mərkəzi Asiya ilə Avropa arasında iqtisadi əlaqələrin davamlılığı və bütövlükdə Avrasiya məkanında ticarət axınlarının sabitliyi ilə birbaşa bağlıdır. Bu səbəbdən Bakı–Tbilisi əməkdaşlığı artıq regional deyil, daha geniş geostrateji məna daşıyır. Azərbaycan və Gürcüstanın müdafiə və təhlükəsizlik qurumları arasında əməkdaşlığın dərinləşdirilməsi məhz bu yeni çağırışlara cavab vermək baxımından vacibdir”.



**Gürcüstanlı ekspert Vüqar İsayev** XQ-yə bildirdi ki, ikitərəfli əlaqələrin möhkəmləndirilməsi Qara dəniz–Xəzər regionunda təhlükəsizlik və əməkdaşlığın inkişafı, sadəcə, yaxın qonşuluq münasibətləri deyil, həm də strateji müttəfiqlikdir: “Müxtəlif məsələlər üzrə mövqelərimizdə ortaq nöqtə və oxşarlıqlar, böyük birgə layihələr var. Onlar yalnız ikitərəfli münasibətlər baxımından deyil, həm də Azərbaycan, Gürcüstan, Türkiyə və ümumilikdə, Avropa arasındakı əlaqələrdə strateji əhəmiyyət daşıyan bir həlqədirlər. Bu əlaqəni dəyərli edən həm də Azərbaycan-Türkiyə-Gürcüstan üçtərəfli əməkdaşlıq modeli çərçivəsində ordularımızın birgə hərbi təlimlərdə iştirakıdır”.

Beləliklə, mövcud beynəlxalq şəraitdə Azərbaycan və Gürcüstan arasında strateji tərəfdaşlıq müdafiə müstəvisində genişlənir. Bu, yalnız iki ölkənin milli maraqlarına xidmət etmir, həm də Cənubi Qafqaz regionunda geosiyasi sabitliyin möhkəmlənməsinə xidmət edir. Tərəflər enerji, nəqliyyat və logistika sahələrində mövcud etibarlı əməkdaşlığı müdafiə platformasında daha da genişləndirmək əzmində olduqlarını bir daha təsdiqləyiblər. Bu kontekstdə Bakı–Tbilisi xətti yaxın illərdə də regionun təhlükəsizlik və inkişaf gündəliyinin əsas istiqamətlərindən biri olaraq qalacaq.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Daxili imkanlara əsaslanan suveren güc

## *Milli dövlətçiliyin müstəqil və nümunəvi modeli*

**Dövlətin suverenliyi və xarici siyasətdə sərbəstliyi onun bilavasitə energi təhlükəsizliyi, strateji resursların idarə edilməsi səmərəliliyi ilə ölçülür. Azərbaycanın son otuzillik inkişaf tarixi təbii sərvətlərin dövlət müstəqilliyinin möhkəmləndirilməsinə, daxili sabitliyin təmin olunmasına və beynəlxalq nüfuzun artırılmasına xidmət edən strateji vasitəyə çevrilməsinin bariz nümunəsidir. Azərbaycan Prezidenti İlham Əliyevin “Bakı Enerji Həftəsi”nin açılış mərasimində səsləndirdiyi fikirlər məhz enerji strategiyasının həm iqtisadi gəlir mənbəyi, həm milli varlığın qorunması, həm də suveren institutların inşası və geosiyasi təsir imkanlarının genişləndirilməsi baxımından böyük əhəmiyyət kəsb edir.**



Heydər Əliyevin rəhbərliyi ilə 1994-cü ildən başlanan və “Əsrin müqaviləsi” adı ilə tarixə həkk olunan neft-qaz strategiyası Azərbaycanın beynəlxalq münasibətlər sistemində mövqeyini köklü şəkildə dəyişdi. Tarixi retrospektiv nöqteyi-nəzərdən yanaşsaq, 1990-cı illərin əvvəllərindəki ağır durum ilə müasir dövrün güclü Azərbaycanı arasındakı müqayisə həyata keçirilən xəttin nə dərəcədə böyük siyasi çəkiyə malik olduğunu nümayiş etdirir. O illərdə Azərbaycan dövlətçilik tarixinin ən ağır geosiyasi, hərbi və humanitar böhranı ilə üz-üzə idi. Torpaqlarının 20 faizi işğal altında, 1 milyondan çox vətəndaşının qaçqın və məcburi köçkün statusu ilə yaşamağa məcbur olduğu ölkədə yaranan dərin tənəzzül yoxsulluq səviyyəsinin 50 faizdən yuxarı qalxmasına səbəb olmuşdu. Daxili sabitlik sarsıldığı ağır şəraitdə xilaskar missiyanı üzərinə götürən Heydər Əliyev dövləti yenidən qurmaq və milli təhlükəsizliyi təmin etmək məqsədilə xarici sərmayənin cəlb edilməsinə və qlobal enerji layihələrinin işə salınmasına qərar verdi.

1994-cü il sentyabrın 20-də imzalanan “Əsrin müqaviləsi” mahiyyət etibarilə dərin geosiyasi əhəmiyyət kəsb edən siyasi-diplomatik gediş idi. “Böyük güclər”in və transmilli korporasiyaların Xəzər hövzəsinə cəlb edilməsi Azərbaycanın müstəqilliyinin beynəlxalq səviyyədə tanınması və möhkəmlənməsi üçün güclü qalxan rolunu oynadı. Ulu öndərin uzaqgörən siyasəti sayəsində neft və qaz ehtiyatlarından əldə olunan gəlirlər dövlət institutlarının möhkəmlənməsinə, milli ordunun qurulmasına və sosial infrastrukturun bərpasına istiqamətləndirildi. Enerji diplomatiyası vasitəsilə qurulan tərəfdaşlıq əlaqələri Azərbaycanın xarici təzyiqlərə müqavimət göstərməsini təmin edərək regional müstəvidə güc balansını tədricən dəyişməyə imkan yaratdı. Neft gəlirlərinin idarə edilməsi üçün yaradılan Dövlət Neft Fondu maliyyə resurslarının şəffaf toplanması və gələcək nəsillərə ötürülməsi baxımından etibarlı təsisat kimi fəaliyyətə başladı. İllər keçdikcə reallaşan tədbirlər dövlətin iqtisadi suverenliyini təmin etməklə yanaşı, siyasi müstəqilliyin əvəzolunmaz sütununa çevrildi.

Uğurlu enerji strategiyası nəticəsində 1990-cı illərin Azərbaycanı ilə müasir, güclü Azərbaycan dövləti arasında tarixi və keyfiyyətcə fərqli mənzərə yarandı. Maliyyə müstəqilliyinin gücləndirilməsi istiqamətində atılan addımlar dövlətin xarici borcunun ümumi daxili məhsulun cəmi 6 faizini təşkil etməsinə şərait yaratdı. Müasir beynəlxalq maliyyə sistemində borclanma səviyyəsinin aşağı olması dövlətin xarici kreditorlardan və siyasi diktələrdən asılılığını tamamilə aradan qaldırır. Dövlət ehtiyatlarının xarici borcu 18 dəfədən çox üstələməsi ölkənin həm iqtisadi, həm də siyasi dayanıqlılığının möhkəm təməllər üzərində qurulduğunu sübut edir. Belə möhkəm maliyyə bazası dövlətə xarici siyasi təzyiqlərdən yayınmaq, müstəqil qərarlar vermək və milli maraqlara tam cavab verən xarici siyasət yürütmək imkanı qazandırdı. Yoxsulluq səviyyəsinin 50 faizdən 5 faiz həddinə endirilməsi, işsizliyin minimal həddə çatdırılması daxili sosial sabitliyi möhkəmləndirdi, hakimiyyətlə xalq arasındakı etimad mühitini sarsılmaz etdi. Qazanılmış uğurlar dövlətin hərbi potensialını gücləndirmək, müasir silahlar əldə etmək və ordunu qlobal standartlara uyğun yenidən qurmaq üçün zəruri zəmini formalaşdırdı.

*

Əldə olunmuş iqtisadi güc və müstəqil maliyyə imkanları Azərbaycanın qarşısında duran ən böyük tarixi vəzifənin – torpaqların işğaldan azad edilməsinin siyasi və hərbi əsasını təşkil etdi. Enerji siyasətindən qazanılan geosiyasi dividendlər dövlətə güclü müttəfiqlər qazanmaq, eyni zamanda, beynəlxalq hüququn prinsiplərini ön plana çıxarmaq imkanı verdi. 2020-ci ildə 44 günlük Vətən müharibəsi və ardınca həyata keçirilən uğurlu hərbi-siyasi tədbirlər nəticəsində Azərbaycan tarixi ərazilərini tamamilə azad etdi, suverenliyini tam bərpa etdi. Sözügedən tarixi zəfər otuz il ərzində dözümlə, ağılla və strateji ardıcıllıqla qurulan güclü dövlət modelinin qələbəsidir. İşğaldan azad edilən Qarabağ və Şərqi Zəngəzurda dərhal başlanan genişmiqyaslı bərpa-quruculuq işləri, keçmiş məcburi köçkünlərin tarixi yurdlarına qayıdışını təmin edən “Böyük Qayıdış” proqramı dövlətin iqtisadi qüdrətinin və siyasi iradəsinin əyani göstəricisinə çevrildi.

Energetika diplomatiyasının digər mühüm siyasi uğuru Azərbaycanın qlobal təhlükəsizlik memarlığında və xüsusilə Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində əvəzolunmaz tərəfdaşa çevrilməsidir. Bakı–Tbilisi–Ceyhan neft boru kəməri, Bakı–Tbilisi–Ərzurum qaz kəməri, ardınca isə Cənub Qaz Dəhlizi, TANAP və TAP kimi nəhəng regional layihələrin reallaşdırılması Azərbaycanı Avrasiyanın geosiyasi xəritəsində əsas tranzit və hasilat mərkəzinə çevirdi. Hazırda dövlət dünyanın 16 ölkəsinə təbii qaz ixrac edir ki, bunların arasında 10 ölkə Avropa İttifaqının üzvüdür. Siyasi nöqteyi-nəzərdən, Avropanın aparıcı dövlətlərinin enerji təhlükəsizliyində rol oynamaq Azərbaycana çox böyük diplomatik manevr imkanı və geosiyasi üstünlük qazandırır.

Müasir mərhələdə Azərbaycanın enerji strategiyası yalnız ənənəvi karbohidrogen resurslarının ixracı ilə məhdudlaşmır, həm də qlobal çağırışlara uyğun olaraq “yaşıl enerji keçidi”ni strateji prioritet kimi qəbul edir. Cari ilin reallıqları göstərir ki, ölkədə bərpaolunan enerji mənbələrinin inkişafı və “yaşıl enerji” layihələrinin icrası regional liderliyin yeni mərhələsini formalaşdırır. Azad edilmiş Qarabağ və Şərqi Zəngəzur bölgələrinin “Yaşıl Enerji Zonası” elan edilməsi, həmin ərazilərdə inşa olunan su elektrik stansiyaları, günəş və külək enerjisi layihələri dövlətin gələcəyə yönəlmiş vizyonunun göstəricisidir.

Keçən əsrin 90-cı illərinin əvvəllərində elektrik enerjisini və təbii qazı qonşu ölkələrdən idxal edən, iqtisadi iflas həddinə çatan Azərbaycanın müasir dövrdə qlobal enerji təhlükəsizliyinin əsas təminatçılarından birinə çevrilməsi tarixi inkişaf fenomenidir. Bu milli inkişaf modeli dövlətin siyasi iradəsinin, uzaqgörən milli strategiyasının və xalq - iqtidar birliyinin təntənəsidir. Prezident İlham Əliyevin “Bakı Enerji Həftəsi”ndə çıxışında dövlət suverenliyinin tam bərpa edilməsi, ərazilərin işğaldan azad olunması, qaçqınlıq və yoxsulluq kimi ağır sosial problemlərin aradan qaldırılmasını enerji strategiyasının siyasi və iqtisadi bəhrəsi kimi dəyərləndirməsi diqqətdən yayınmadı. Dövlətimizin başçısının həyata keçirdiyi ardıcıl siyasət nəticəsində Azərbaycan enerji ehtiyatlarının hasilatı və ixracı ilə kifayətlənməyərək, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında strateji tərəfdaşa çevrilib, “yaşıl enerji” sahəsində də yeni əməkdaşlıq platformaları formalaşdırıb.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Paşinyan "ixrac böhranı"ndan çıxış yolunu nədə və necə görür?

## *Yaxud Kremlin seçkiqabağı gündəmə gətirdiyi "meyvə-tərəvəz qadağası"na cavab*

**"Əziz xalqım! Bilirəm ki, Avrasiya İqtisadi İttifaqı daxilindəki proseslərlə bağlı ciddi narahatlıq var. Əvvəla, demək istəyirəm ki, hökumətimiz artıq qərar verib ki, ixracımıza ədalətsiz əngəllər yaranan bütün hallarda ixrac edilməli olan, lakin həyata keçirilməyən mallar üçün biz subsidiya proqramı həyata keçirəcəyik ki, iqtisadiyyatımıza zərər dəyməsin".**






Ermənistan Baş naziri Nikol Paşinyanın xalqa müraciətində yer alan bu fikirləri "bagramyan26" saytı yayımlayıb. Aydın məsələdir ki, problemin mahiyyətində heç də ermənilərin yetişdirdiyi gül, ərik, şaftalının, istehsal etdikləri konyakın Rusiya bazarına yolunun bağlanması durmur. Məhz indiki məqamda süni şəkildə yaradılan ixrac probleminin kökündə seçkiqabağı anti-Paşinyan təbliğatının, Moskvanın "Ermənistan Rusiyasız yaşaya bilməz" iddiasının gizləndiyi hər kəsə məlumdur. Amma görünür, Kremlin ideoloqları meyvə-tərəvəz ticarətini siyasi təzyiq alətinə çevirməklə bumeranq effekti əldə edəcəklərini nəzərə almayıblar. Axı məhsulunu bazara çatdıra bilməyən yüzlərlə iş adamının arxasında minlərlə ailə, böyük sosial kütlə, deməli, həm də elektoratın bir qismi dayanıb. Moskva başbilənlərinin iqtidardakı "Mülki müqavilə" partiyasının, onun lideri Paşinyanın siyasi imicinə, ictimai nüfuz və reytinqinə zərbə endirmək kümü düşündüyü "aqrar təzyiqlər", bütövlükdə, onsuz da Şimal qonşusuna qarşı qəzəbli olan erməni seçicisini iyunun 7-də seçki qutusuna salacağı bülletendə rusiyameyilli namizədlərin adını siləcəyi ehtimalını gerçəyə çevirə bilər.

Rusiyanın müvafiq dövlət qurumunun – "Rospotrebnadzor"un Ermənistanda istehsal olunan spirtli içkilərdə "müəyyən etdiyi" qüsuru, ölkəsindən meyvə-tərəvəz ixracına tətbiq olunan sanitar qadağanı ədalətsizlik adlandıran Paşinyan müraciətində bu təzyiq texnologiyasının yaratdığı fəsadlardan çıxış yolunu da göstərib: "Mən buna niyə "ədalətsizlik" deyirəm? Çünki bəzən elə mallar olur ki, həqiqətən keyfiyyət standartlarına uyğun gəlmir. Hələ 2018-ci ildə demişdim ki, biz suverenliyimiz və milli maraqlarımız bahasına keyfiyyətsiz mal ixrac edə bilmərik. İndiki halda biz sahibkarlara dəstək olacağıq ki, onlar öz məhsullarını yeni keyfiyyət standartlarına uyğunlaşdırsınlar. Haqsızlığın baş verdiyi bütün digər hallarla bağlı biz kompensasiya proqramları hazırlayacağıq! Üstəlik, onu da deyim ki, biz yeni ixrac bazarlarının sürətli axtarışına başlamışıq. Bir neçə işgüzar nümayəndə heyətimiz bu gün artıq yola düşüb və biz beynəlxalq tərəfdaşlarımıza operativ reaksiyalarına görə minnətdarıq. Artıq qızılgül, ərik, meyvə-tərəvəz tədarükü ilə bağlı xaricdən konkret təkliflər var".

Yəni üçüncü müddətə baş nazir postuna iddialı Nikol Paşinyan komandasının Moskvanın yaratdığı problemi aradan qaldırmaq üçün konkret və effektli işlədiyini nümayiş etdirir. O, xalqa müraciətində bu məsələnin təfərrüatına varmaqdan da çəkinməyib: "Bu vəziyyətdə yaxşı xəbərə çevrilən bəzi pis xəbərlər də var. Pis xəbər odur ki, bizdə meyvə-tərəvəzin ümumi istehsal həcmi o qədər də böyük deyil. Kobud misalla desəm, Avropanın bir layiqli supermarketlər şəbəkəsi bizim bütün məhsullarımızı uda bilər. Yaxşı xəbər odur ki, o bazarda heç bir ciddi problemimiz olmayacaq". Bu zaman Paşinyan qəsdən Moskvanı qıcıqlandıran ana mövzunun üzərinə gəlir: "Amma, eyni zamanda, diqqətinizi ona yönəltmək istəyirəm ki, mən Avrasiya İqtisadi İttifaqında həm Hökumətlərarası Şuranın, həm də Ali İqtisadi Şuranın üzvü olan yeganə məmuram. Seçkilərdən sonra qayıdıb bütün mövcud məsələləri həll edəcəyik. Lakin buna baxmayaraq, biz balanslaşdırılmış xarici siyasətimizlə bazarlarımızı şaxələndirməyə davam edəcəyik".

*

Müraciətinin bu məqamında Paşinyan meyvə-tərəvəz amilini ölkəsinin xaricdən asılılığı məsələsi, deməli, suverenliyi, İrəvanın müstəqil xarici siyasəti ilə ustalıqla əlaqələndirir: "Əgər biz 100 ton bibər istehsal ediriksə, onun 100 tonundan 90 tonunu bir istiqamətə ixrac etməməliyik. Bir istiqamətə 25 ton, digər istiqamətə 25 ton, üçüncü istiqamətə 25 ton və dördüncü istiqamətə 25 ton ixrac etməliyik. Sonrakı mərhələdə biz bunu 20 tona çatdırmalıyıq ki, dörd istiqamət əvəzinə beş istiqamətimiz olsun. Haqqında danışdığım düstur budur: azlıqdan asılılığı çoxluqdan asılılıqla əvəz etməli! Çünki məhsulumuzun 90 faizini bir istiqamətə göndərsək, bir gün alıcı yuxudan pis əhvali-ruhiyyədə oyanıb sual verə bilər: bu nədir belə? Və yenə deyirəm: tərəvəz xarab olacaq? Hökumət həmin pomidorun, bibərin, qızılgüllərin və sairənin pulunu ödəyəcək. Amma bütün bunların nəticəsində Ermənistanda tərəvəz istehsalı, deməli, ixrac da artacaq. Onu da deyim ki, əzizlərim, bu il ötən illə müqayisədə 34 faiz çox turistimiz var. Yəni keçən illə müqayisədə təxminən 160 min çox turist qəbul etmişik. Bu adamlar pomidor, bibər, qızılgül alır, konyak içir, çörək də yeyirlər və sairə. Biz ölkəmizə daha çox turisti cəlb etməkdən ötrü bir sıra aviaşirkətlər üçün yeni marşrutları subsidiya edirik. Bəli, bunu məqsədli şəkildə edirik".

Aqrar mövzunu bəhanə edib elektorata siyasi tezislərini çatdıran Nikol Paşinyan müraciətinin bu yerində xalqa sözünün "mustafasını" bəyan edir: "Hazırda olduqca həlledici bir məqamdayıq. Bu gün biz özümüzü strateji seçim mərhələsində görürük. Dövlətimizin uzunömürlü olması və yeni keyfiyyət dövlətinin yaradılması məsələsini həll edirik".

*

Kreml isteblişmenti isə Ermənistanda siyasi hakimiyyətin özünə loyal qüvvələrin əlinə keçməsindən ötrü dəridən-qabıqdan çıxır. Bu zaman hətta rəsmilərin dilindən təhdid və şantaj dolu bəyanatlar səslənməkdədir. "Ukrayna Avropa ittifaqına inteqrasiya etmək qərarına gəldikdə, özünün dövlət kimi inkişaf perspektivlərindən danışırdı. İntəhası, onun məhsulları Avropa bazarlarına buraxılmadı. Ermənistanı da eyni aqibət gözləyir". Bu sözlərin müəllifi Rusiya Dövlət Dumasının spikeri Vyaçeslav Volodin Aİ-nin Ukraynada olduğu kimi, Ermənistana qarşı da sərt və əlverişsiz tarif kvotalarını tətbiq edəcəyini bildirib. O iddia edib ki, Baş nazir Nikol Paşinyan ölkə əhalisi ilə Aİ-yə üzv olmaq barədə açıq danışmır və guya, Avrasiya İqtisadi İttifaqından mümkün çıxışın nəticələrini xalqdan gizlədir.

Ermənistana qarşı bir mərkəzdən idarə olunan siyasi təzyiqlərə xas eyni ritorikanı müxtəlif ağızlardan eşidirik. İnanırıq ki, seçkiöncəsi kasıb elekoratın ictimai rəyini dəyişməyə hesablanmış bu ucuz diplomatik gedişləri artıq dostunu və düşmənini yaxşı tanıyan hay cəmiyyətinə sırımaq mümkün olmayacaq. İndi onu meyvə-tərəvəzdən daha vacib məsələlər – tarixi və taleyüklü strateji seçim düşündürür. Nikol Paşinyanın xalqa müraciətinin məqsədi də elektoratı tez xarab olan mövsümi meyvələr kimi, keçici xarici təsirlərə uymamağı anlatmaq idi. Fikrimizcə, "Mülki müqavilə" partiyasının lideri buna nail oldu.

***İ.HƏSƏNQALA***
***XQ***



# Brüsseldən İrəvana yeni mesaj

## *AP deputatı Ermənistanın Aİ-yə gedən yoluna kötük atdı*

**Ermənistanın Avropa İttifaqına üzv olmaq istəyi həm ölkə daxilində, həm də xaricdə çoxsaylı müzakirələrə yol açıb. Rəsmi İrəvan son illərdə bu istiqamətdə Brüssellə siyasi və iqtisadi əməkdaşlığı genişləndirməyə çalışır. Bununla yanaşı, ölkənin Aİ-yə inteqrasiya perspektivləri ilə bağlı həm Avropa paytaxtlarında, həm də Ermənistanda fərqli yanaşmalar mövcuddur.**

Bir sıra erməni ekspertlər Ermənistanın qarşısında duran geosiyasi və iqtisadi məhdudiyyətlərin bu prosesi çətinləşdirdiyini vurğulayırlar. Digərləri isə hesab edirlər ki, Aİ ilə münasibətlərin dərinləşməsi tamhüquqlu üzvlükdən daha çox tərəfdaşlıq əlaqələrinin inkişafına xidmət edir. Avropa Parlamentinin Lüksemburqdan olan deputatı Fernan Karthayzerin son açıqlaması göstərir ki, Avropa İttifaqında da Ermənistanın yaxın perspektivdə üzvlüyü ilə bağlı ehtiyatlı yanaşma üstünlük təşkil edir. Deputat "İzvestiya" qəzetinə müsahibəsində bildirib ki, Ermənistanın ittifaqa üzvlüyü məsələsi hələ də daha çox nəzəri xarakter daşıyır və respublikanın 2030-cu ilə qədər birliyə qoşulması real görünmür. Bu fikri Lüksemburqdan olan Avropa Parlamenti deputatı Fernan Karthayzer "İzvestiya" qəzetinə müsahibəsində səsləndirib. Onun sözlərinə görə, Ermənistan Aİ-də müəyyən rəğbətlə qarşılanır və İrəvanla birlik arasındakı rəsmi münasibətlər tədricən dərinləşməkdə davam edir. Lakin avroparlamentari qeyd edib ki, üzvlük məsələsi hələ də əsasən hipotetik xarakter daşıyır: "Ermənistanın coğrafi mövqeyini və qonşularından ən azı biri ilə mürəkkəb münasibətlərini nəzərə alsaq, bu namizədlik bir çox suallar doğurur. Son illərdə Aİ ilə Ermənistan arasında münasibətlər davamlı şəkildə yaxşılaşsa da, ölkənin 2030-cu ilə qədər birliyə üzv olması ehtimalı azdır. Hazırda Aİ prioritet qaydada Balkan ölkələrindən olan namizədlərlə bağlı məsələlərlə, eləcə də Ukrayna və Moldovanın Avropa İttifaqına inteqrasiyası ilə bağlı həllini gözləyən problemlərlə məşğuldur", – deyə Karthayzer bildirib.

Onun sözlərinə görə, hazırkı mərhələdə Ermənistanla əməkdaşlığın genişləndirilməsi daha məqsədəuyğun olardı. Bu əməkdaşlıq ölkənin iqtisadiyyatının gücləndirilməsinə, əhalinin həyat səviyyəsinin yüksəldilməsinə və mədəni əlaqələrin möhkəmləndirilməsinə xidmət edə bilər. Karthayzer qeyd edib ki, Ermənistan, məsələn, İranla uzun illərə söykənən münasibətləri sayəsində Aİ-nin xarici siyasəti baxımından da mühüm tərəfdaşa çevrilə bilər: "Əməkdaşlıqda müşahidə olunan müsbət dinamikaya baxmayaraq, Ermənistanın yaxın perspektivdə Aİ-yə üzv olması üçün hələlik kifayət qədər real zəmin mövcud deyil".

***

Avroparlament deputatının Ermənistanın Aİ-yə üzvlük perspektivləri ilə bağlı səsləndirdiyi fikirlər ilk baxışdan texniki və siyasi qiymətləndirmə təsiri bağışlasa da, onun siyasi fəaliyyəti və son illərdə nümayiş etdirdiyi mövqe bu bəyanatlara daha geniş çərçivədə yanaşmağı zəruri edir. Çünki Karthayzer Avropa siyasətində ənənəvi Aİ xəttindən fərqlənən və bir çox hallarda Rusiyanın maraqlarına yaxın mövqeləri ilə tanınan siyasətçilərdən biri hesab olunur. Məlum olduğu kimi, Ermənistanın Aİ-yə inteqrasiyası məsələsi təkcə hüquqi və iqtisadi meyarlarla məhdudlaşmır. Bu mövzu həm də ciddi geosiyasi məzmun daşıyır. Məhz buna görə də bu istiqamətdə səsləndirilən fikirlərin müəllifinin siyasi baxışları və indiyədək tutduğu mövqe xüsusi əhəmiyyət kəsb edir. F.Karthayzer uzun müddətdir Aİ-nin Rusiyaya münasibətdə formalaşdırdığı ümumi siyasi xəttə tənqidi yanaşan şəxslər sırasında yer alır. Karthayzer daha əvvəl də Aİ-nin vahid mövqeyinə zidd çıxışları ilə diqqət çəkib. O, müxtəlif vaxtlarda Moskvaya münasibətdə daha yumşaq yanaşmanın tərəfdarı kimi çıxış edib, Rusiyaya qarşı sərt siyasətin effektivliyini sual altına alıb. Bu səbəbdən onun bəyanatları Avropa siyasi dairələrində birmənalı qarşılanmayıb. Bir çox hallarda səsləndirdiyi fikirlər Aİ-nin strateji yanaşmaları ilə üst-üstə düşməyib və bu da onun siyasi baxışlarının ümumi Avropa xəttindən fərqləndiyini göstərib. Karthayzerin Ermənistanın Aİ-yə üzvlüyü ilə bağlı son açıqlamalarına da məhz bu çərçivədə baxmaq lazımdır. Şübhəsiz ki, Ermənistanın yaxın illərdə Aİ-yə qəbul olunması ilə bağlı obyektiv çətinliklər mövcuddur. Coğrafi amillər, regiondakı təhlükəsizlik vəziyyəti, iqtisadi uyğunlaşma, Avropa standartlarına cavab vermək problemləri və Aİ-nin genişlənmə siyasətindəki mövcud reallıqlar bunu göstərir. Lakin Karthayzerin mövqeyi təkcə bu amillərlə izah olunmur. Onun siyasi fəaliyyəti nəzərə alındıqda, səsləndirdiyi fikirlərin müəyyən ideoloji və geosiyasi baxışların təsiri altında formalaşdığı qənaəti də yaranır.



Başqa sözlə, Karthayzerin Ermənistanın Aİ-yə üzvlüyünü şübhə altına alan açıqlamaları sırf ekspert rəyi və ya neytral siyasi qiymətləndirmə kimi deyil, həm də onun uzun illər ərzində nümayiş etdirdiyi siyasi xəttin davamı kimi qiymətləndirilə bilər. Çünki rəsmi Brüsselin Rusiyaya qarşı mövqeyini mütəmadi şəkildə tənqid edən, Moskvaya münasibətdə daha loyal yanaşmanı müdafiə edən və bu səbəbdən öz siyasi qrupundan belə uzaqlaşdırılan bir siyasətçinin bəyanatları təbii olaraq əlavə suallar doğurur. Bu baxımdan avroparlamentarinin Ermənistanın Aİ perspektivləri ilə bağlı son fikirlərinin obyektiv təhlildən daha çox onun siyasi mövqeyinin ifadəsi kimi qəbul edilməsi üçün kifayət qədər əsaslar mövcuddur. Onun indiyədək nümayiş etdirdiyi fəaliyyət göstərir ki, Karthayzer Avropa İttifaqının ümumi siyasi kursundan fərqli yanaşmalar sərgiləyən və Rusiyaya münasibətdə daha yaxın mövqe tutan siyasətçilərdən biri olaraq qalır.

Onu da qeyd etmək lazımdır ki, F.Karthayzer son illərdə Rusiya mediasında ən çox istinad edilən Avropa siyasətçilərindən birinə çevrilib. O, mütəmadi olaraq Rusiya mətbuatına müsahibələr verir, Kremlin xarici siyasət gündəmi ilə səsləşən mövzular ətrafında şərhlər səsləndirir. Təsadüfi deyil ki, onun bəyanatları Rusiyanın aparıcı informasiya resurslarında geniş şəkildə işıqlandırılır və tez-tez Qərb daxilində alternativ mövqenin nümayəndəsi kimi təqdim olunur. Karthayzer xüsusilə Ukrayna müharibəsi, Rusiyaya qarşı sanksiyalar, Aİ-nin təhlükəsizlik siyasəti və Moskva ilə münasibətlər kimi həssas məsələlərdə Brüsselin mövqeyindən fərqlənən fikirlər irəli sürür. Bu isə onun Rusiya mediasında daha çox görünməsinə şərait yaradır. Əslində, Kremlin informasiya siyasəti üçün Qərbdən olan, lakin ümumi Avropa xəttini tənqid edən siyasətçilərin fikirləri xüsusi əhəmiyyət daşıyır. Məhz buna görə də Karthayzerin açıqlamaları Rusiya informasiya məkanında geniş auditoriyaya çatdırılır. Bu reallıq fonunda onun Ermənistanın Aİ-yə üzvlük perspektivləri barədə səsləndirdiyi fikirlərə də uzun illər formalaşmış siyasi baxışlarının davamı kimi yanaşmaq mümkündür. Onun indiyədək tutduğu mövqe göstərir ki, Karthayzer bir çox hallarda Rusiyanın maraqları ilə uzlaşan yanaşmalar sərgiləyən Avropa siyasətçiləri sırasında yer alır.

***S.NAZİMOĞLU***
***XQ***

# Qərbi Azərbaycana Qayıdışın hüquqi arxitekturası

## Postmünaqişə dövrünün beynəlxalq təcrübəsi və milli modeli

**Vətən və torpaq nisgili çox acı duyğudur. Ona öyrəşmək, qəbul etmək və qaçılmaz gerçəklik kimi bir ömür içində yaşatmaq ağır dərddir. XIX əsrin əvvəllərindən başlayaraq Azərbaycan torpaqlarının çar Rusiyasının şovinist siyasəti nəticəsində erməniləşdirilməsi prosesinə başlandı. Bu müdhiş siyasət XX əsrin əvvəlində, ortasında və sonuna yaxın, bu dəfə artıq formal rol dəyişikliyi ilə – sovet-kommunist rejiminin əli ilə təkrarlandı. Üst-üstə milyondan artıq insan doğulub-böyüdüyü, əkib-becərdiyi, babalarının ruhunun uyuduğu torpaqları tərk etmək məcburiyyətini yaşadı.**



Bu gün tarixin geosiyasi oxu dəyişib, 44 günlük müharibədəki böyük Zəfər Qarabağı öz həqiqi sakinlərinə qaytardı, bütün ərazilərimizdə müstəqil Azərbaycanın suveren hüquqları bərpa edildi, nəticə etibarilə məcburi köçkünlərin yurd yerlərinə qayıtmaq istəyi reallaşdı.

Bəs Qərbi Azərbaycandan qovulmuş qaçqınların taleyi necə olacaq?

Beynəlxalq hüquq ləyaqətli qayıdışın yolları barədə ən yaxın tarixin təcrübəsinə əsaslanaraq konkret yol xəritəsi müəyyənləşdirir. Lakin unutmayaq ki, bu elə həmin beynəlxalq hüquqdur ki, torpaqlarımızın 20 faizinin işğal edilməsinə göz yumub 30 illik letargiya yuxusuna getmişdi.

Hələ XVII əsrdə dahi fransız alimi Blez Paskal deyirdi ki, həqiqəti ölçmək mümkün deyil, gücü ölçmək olur. Güc haradadırsa, həqiqət də oradadır.

Azərbaycanın üç on ildən bəri içində olduğu haqsız və ikili standartlı dünyanın XIX əsrdən bəri dəyişməmiş "həqiqətini" ifşa edən Azərbaycan Prezidenti İlham Əliyev 2026-cı ilin əvvəlində təxminən eyni fikirləri səsləndirərək söyləmişdir ki, bugünkü dünyada beynəlxalq hüquq deyilən məsələ yoxdur, güc var, əməkdaşlıq var...

### Beynəlxalq hüquqda qayıdış doktrinası

Müasir beynəlxalq hüquq sistemində qayıdış hüququ postmünaqişə tənzimlənməsinin mərkəzi institutlarından biri kimi çıxış edir. XX əsrin sonu – XXI əsrin əvvəllərində baş vermiş regional münaqişələr nəticəsində milyonlarla insanın məcburi köçkün və qaçqın statusu alması bu hüququn yalnız normativ deyil, həm də praktik əhəmiyyətini artırmışdır. Qayıdış hüququnun effektiv həyata keçirilməsi isə onun yalnız beynəlxalq sənədlərdə təsbit olunması ilə deyil, kompleks hüquqi və institusional mexanizmlərlə təmin edilməsindən asılıdır.

Qərbi azərbaycanlıların öz tarixi torpaqlarına qayıdışı beynəlxalq hüququn fundamental prinsiplərinə söykənən hüquqdur. Beynəlxalq hüquqda qayıdış hüququnun normativ əsasları Ümumdünya İnsan Hüquqları Bəyannaməsi (1948), Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt (1966), eləcə də regional hüquqi sənədlərdə təsbit olunmuşdur. Bununla yanaşı, Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququ və BMT mexanizmləri bu hüququn tətbiq sahəsini genişləndirmiş və onun doktrinal əsaslarını dərinləşdirmişdir.

Qayıdış hüququ müasir beynəlxalq insan hüquqları institutunun fundamental kateqoriyalarından biri olub, şəxsin əvvəlki yaşayış yerlərinə – o cümlədən mənşə ərazisinə, daimi yaşayış yerinə və ya mülkiyyətinə qayıtmaq imkanını təsbit edən universal hüquqi norma kimi nəzərdən keçirilir. Beynəlxalq-hüquqi doktrinada bu hüquq ayrı-seçkiliyin qadağan olunması prinsipi, mülkiyyət hüququnun müdafiəsi, şəxsi və ailə həyatına hörmət hüququ, eləcə də şəxsin öz mənşə ərazisində yaşamaq imkanından özbaşına məhrum edilməsinin yolverilməzliyi ilə sıx bağlıdır.

Qayıdış hüququnun doktrinasının formalaşması İkinci Dünya müharibəsindən sonra beynəlxalq insan hüquqları institutununu inkişafı kontekstində baş vermişdir. Bu hüququ təsbit edən ilk beynəlxalq aktlardan biri, yuxarıda da qeyd etdiyimiz kimi, 1948-ci il tarixli Ümumdünya İnsan Hüquqları Bəyannaməsi olmuşdur. Həmin sənədin 13-cü maddəsinin 2-ci bəndinə əsasən, hər bir şəxs istənilən ölkəni, o cümlədən öz ölkəsini tərk etmək və ölkəsinə qayıtmaq hüququna malikdir. Beynəlxalq-hüquqi doktrinada bu norma qayıdış hüququ institutunun sonrakı inkişafının əsasını təşkil edən baza prinsipi kimi qiymətləndirilir.

Qayıdış hüququnun daha konkret hüquqi ifadəsi 1966-cı il tarixli Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktda öz əksini tapmışdır. Bu sənədin 12-ci maddəsinin 4-cü bəndinə əsasən, heç kəs öz ölkəsinə daxil olmaq hüququndan özbaşına məhrum edilə bilməz. Hüquqi doktrinada vurğulanır ki, "öz ölkəsi" anlayışı daha geniş məna daşıyır və yalnız vətəndaşlıq əsasında deyil, həm də daimi yaşayış yeri və ya mənşə ilə bağlılığı əhatə edə bilər. Bu yanaşma qayıdış hüququnun tətbiq sahəsini genişləndirir və onu məcburi köçkünlərə də şamil etməyə imkan verir.

Qayıdış hüququnun tənzimlənməsində regional beynəlxalq hüquq mexanizmləri də mühüm rol oynayır. İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi haqqında Avropa Konvensiyasında bu hüquq ayrıca norma kimi birbaşa təsbit olunmasa da, onun təminatları bir sıra müddəaların sistemli şərhi nəticəsində formalaşır. Bunlara Konvensiyanın 8-ci maddəsi (şəxsi və ailə həyatına hörmət hüququ), 1 saylı Protokolun 1-ci maddəsi (mülkiyyət hüququnun müdafiəsi), eləcə də 4 saylı Protokolun 3-cü maddəsi (vətəndaşların ölkədən çıxarılmasının qadağan olunması və öz ölkəsinə daxil olmaq hüququ) daxildir.

Qayıdış hüququ doktrinasının inkişafında qaçqınların və məcburi köçkünlərin mənzil və mülkiyyət hüquqlarının bərpasına dair beynəlxalq prinsiplər — Pinheiro prinsipləri mühüm rol oynayır. Bu prinsiplərə əsasən, qaçqınlar və məcburi köçkünlər könüllü şəkildə öz evlərinə, torpaqlarına və yaşayış yerlərinə qayıtmaq hüququna malikdirlər, dövlətlər isə bu hüquqların bərpasını və ya adekvat restitusiya təmin etməlidirlər.

Müasir beynəlxalq-hüquqi doktrinada qayıdış hüququ zaman baxımından məhdudlaşdırılmayan, yəni "davam edən hüquq" kimi nəzərdən keçirilir. Bu o deməkdir ki, həmin hüququn pozuntusu şəxs öz hüquqlarını bərpa edənədək davam edir. Bu yanaşma beynəlxalq məhkəmə orqanlarının, xüsusilə Avropa İnsan Hüquqları Məhkəməsinin praktikasında öz təsdiqini tapmışdır. Məhkəmə mülkiyyətə və əvvəlki yaşayış yerinə çıxışın olmamasını davam edən hüquq pozuntusu kimi qiymətləndirir. Eyni məntiq Qərbi azərbaycanlıların qayıdışını və əmlak iddialarını hüquqi cəhətdən legitimləşdirir.

### Restitusiya və mülkiyyət hüququnun bərpası

Məlumdur ki, zorən deportasiyaya məruz qalmış, qovulmuş yüz minlərlə soydaşımızın Qərbi Azərbaycan adlandırdığımız torpaqlarda ev-eşiyi, mülkü, təsərrüfatı qalıb. Bəs qayıdış onların mülkiyyət hüquqlarının bərpasını, maddi zərərin ödənilməsi kimi təbii tələbləri nəzərdə tuturmu? – Qayıdış hüququnun real məzmun kəsb etməsi onun mülkiyyət hüququ ilə qarşılıqlı əlaqəsindən birbaşa asılıdır. Beynəlxalq hüquq təcrübəsi göstərir ki, məcburi köçürülmə, deportasiya və ya silahlı münaqişələr nəticəsində əhalinin əvvəlki yaşayış yerlərini tərk etməsi, bir qayda olaraq, həmin şəxslərin daşınmaz və daşınar əmlak üzərində hüquqlarının pozulması ilə müşayiət olunur. Bu baxımdan beynəlxalq hüquqi doktrinada qayıdış hüququ mülkiyyət hüququnun bərpası ilə sıx bağlı kompleks hüquqi mexanizm kimi nəzərdən keçirilir. Bir əsrdə qismətinə dörd dəfə deportasiya yazılmış Qərbi azərbaycanlı soydaşlarımızın həmin hüquqlarının bərpası da qayıdış ideyasının əsas məqsədlərindən birini təşkil edir.

Beynəlxalq hüquqi praktikada mülkiyyət hüququnun pozulması hallarında əsas bərpa mexanizmi kimi restitusiya prinsipi tətbiq edilir. Restitusiya pozulmuş hüquqların əvvəlki vəziyyətə qaytarılmasını nəzərdə tutur və beynəlxalq hüquqda kompensasiyaya nisbətən üstün mexanizm hesab olunur. Bu yanaşma beynəlxalq hüququn ümumi prinsiplərindən biri kimi qəbul edilir və dövlət məsuliyyəti ilə bağlı doktrinalarda da öz əksini tapmışdır. Restitusiya mexanizminin mahiyyəti ondan ibarətdir ki, hüquq pozuntusunun nəticələri mümkün qədər aradan qaldırılmalı və zərərçəkmiş şəxsin əvvəlki hüquqi vəziyyəti bərpa edilməlidir.

Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququ da restitusiya mexanizminin əhəmiyyətini təsdiq edir. Məhkəmə bir sıra qərarlarında şəxslərin mülkiyyətə çıxış imkanının olmamasını davam edən hüquq pozuntusu kimi qiymətləndirmişdir. Bu yanaşma, apriori, Qərbi azərbaycanlıların mülkiyyət hüququnun zaman baxımından məhdudlaşmadığını və hüququn bərpasına qədər pozuntunun davam etdiyini göstərir.

Qərbi Azərbaycandan qovulmuş soydaşlarımızın kompensasiya tələbi də aktualdır və hüquqi aktlarla dəstəklənir. Kompensasiya beynəlxalq hüquqda restitusiya mümkün olmadıqda tətbiq edilən subsidiar mexanizm kimi çıxış edir. Beynəlxalq hüquqi yanaşmaya görə kompensasiya əsas mexanizm olmasa da, əlavə vasitə kimi çıxış edir. Bu yanaşma beynəlxalq sənədlərdə və məhkəmə presedentlərində də öz əksini tapmışdır.

Beləliklə, beynəlxalq hüquqda mülkiyyət hüququ və restitusiya mexanizmi qayıdış hüququnun həyata keçirilməsinin əsas elementlərindən biri kimi çıxış edir. Bu mexanizm, həmçinin Qərbi Azərbaycandan qovulmuş soydaşlarımızın əvvəlki yaşayış yerlərinə qayıtmasının hüquqi əsasını yaradır, mülkiyyət hüquqlarının bərpasını təmin edir və postmünaqişə dövründə hüquqi sabitliyin formalaşmasına xidmət edir.

### Postmünaqişə dövrünün qayıdış təcrübəsi

Qərbi Azərbaycana ləyaqətli və hüquqi qayıdışdan bəhs edərkən onun hansı təcrübə əsasında reallaşdırıla biləcəyi imperativi ilə qarşılaşırıq. Beynəlxalq hüquq bununla bağlı müəyyən "reseptlər" təklif edir.

Postmünaqişə qayıdış mexanizmlərinin formalaşmasında Bosniya və Herseqovina modeli beynəlxalq hüquqi praktikada ən sistemli və institusional nümunələrdən biri hesab olunur. 1992–1995-ci illər Bosniya münaqişəsi nəticəsində əhalinin kütləvi şəkildə məcburi köçürülməsi, etnik təmizləmə siyasəti və mülkiyyət hüquqlarının geniş miqyasda pozulması beynəlxalq ictimaiyyəti qayıdış və restitusiya mexanizmlərinin hüquqi əsaslarını formalaşdırmağa sövq etmişdir.

Bosniya modelinin hüquqi əsasını 1995-ci il Dayton Sülh Sazişinin 7-ci Əlavəsi təşkil edir. Həmin sənəd qaçqınların və məcburi köçkünlərin öz əvvəlki yaşayış yerlərinə qayıtmaq hüququnu təsbit etmişdir. Bu modelin mühüm xüsusiyyəti ondan ibarətdir ki, qayıdış hüququ yalnız siyasi bəyanat kimi deyil, konkret institusional mexanizmlərlə təmin olunmuşdur.

Bosniya və Herseqovina modeli beynəlxalq hüquqi praktikada qayıdış hüququnun həyata keçirilməsi üçün kompleks mexanizm kimi çıxış edir. O qayıdış hüququnun normativ təsbitini, mülkiyyət hüquqlarının bərpasını, beynəlxalq nəzarət mexanizmlərini və təhlükəsizlik təminatlarını birləşdirən sistemli yanaşma təqdim edir. Bu səbəbdən Bosniya modeli postmünaqişə qayıdışın hüquqi arxitekturasının formalaşmasında mühüm presedent kimi qiymətləndirilir.

Qərbi Azərbaycan nümunəsinə tətbiq etdikdə Bosniya modelinə əsaslanan birinci mərhələ normativ-hüquqi tanınma və siyasi çərçivəni nəzərdə tutur. Məqsəd Qərbi azərbaycanlıların qayıdış hüququnun beynəlxalq hüquq subyekti kimi rəsmən tanınması və Ermənistanın bu hüquqa dair öhdəliklərinin hüquqi çərçivəyə salınmasından ibarətdir.

Əsas addımlar hansılar ola bilər? Qayıdış hüququnun ikitərəfli sülh sazişi layihələrinə, beynəlxalq vasitəçilik sənədlərinə, BMT və ya ATƏT çərçivəli razılaşmalara daxil edilməsi təsirli normativ mexanizm kimi dəyərləndirilə bilər.

Kosovo modeli postmünaqişə qayıdışın beynəlxalq hüquqi mexanizmlərinin formalaşmasında mühüm əhəmiyyət kəsb edir. 1998–1999-cu illər münaqişəsi nəticəsində Kosovo ərazisində genişmiqyaslı məcburi köçürülmə baş vermiş, yüz minlərlə insan öz yaşayış yerlərini tərk etmişdir. Münaqişədən sonra qayıdış hüququnun təmin edilməsi, mülkiyyət hüquqlarının bərpası və əhalinin əvvəlki yaşayış yerlərinə reinteqrasiyası beynəlxalq idarəetmə mexanizmlərinin əsas istiqamətlərindən biri olmuşdur.

Kosovo modelinin hüquqi əsasını BMT Təhlükəsizlik Şurasının 1244 saylı qətnaməsi təşkil edir. Sənəddə qeyd olunur ki, münaqişə nəticəsində köçürülmüş bütün şəxslərin öz evlərinə qayıtmaq və mülkiyyət hüquqlarını bərpa etmək hüququ təmin edilməlidir.

Qərbi Azərbaycan kontekstində də qayıdışın ilkin mərhələlərində beynəlxalq monitorinq missiyasının iştirakı, hüquq-mühafizə orqanlarının fəaliyyətinə nəzarət, minalardan və hərbi qalıqlardan təmizləmə, zorakılıq və diskriminasiya hallarına qarşı sürətli hüquqi müdaxilə mexanizmləri olmadan repatriasiyanın davamlı və təhlükəsiz olması mümkün deyil. Belə bir yanaşma qayıdış hüququnun yalnız formal hüquq kimi deyil, davamlı sosial proses kimi həyata keçirilməsinin zəruriliyini göstərmişdir.

Növbəti addım kimi "Qərbi Azərbaycanlıların Qayıdışı üzrə Bəyannamə" tipli normativ sənədin qəbulu məqsədəuyğun sayıla bilər ki, o da özündə könüllü, təhlükəsiz və ləyaqətli qayıdışın tanınması, diskriminasiyanın yolverilməzliyi, mülkiyyət hüquqlarının qorunması kimi həlqələri ehtiva etmiş olardı.

Kipr modeli postmünaqişə qayıdışın beynəlxalq hüquqi praktikası çərçivəsində xüsusi yer tutur. 1974-cü il hadisələrindən sonra adanın faktiki bölünməsi nəticəsində həm yunan, həm də türk icmalarına mənsub əhali kütləvi şəkildə köçürülmüş, mülkiyyət hüquqları geniş miqyasda pozulmuşdur.

Kipr modelinin əsas xüsusiyyəti ondan ibarətdir ki, burada qayıdış və restitusiya məsələləri birbaşa beynəlxalq məhkəmə presedentləri vasitəsilə inkişaf etmişdir. Bu baxımdan Avropa İnsan Hüquqları Məhkəməsinin qərarları həlledici rol oynamışdır. Xüsusilə Loizidou işi bu sahədə fundamental presedent hesab olunur. Məhkəmə bu işdə qərara gəlmişdir ki, mülkiyyətə çıxışın uzun müddət məhdudlaşdırılması davam edən hüquq pozuntusu təşkil edir və bu hüquq zamanla qüvvədən düşmür.

Modelin təhlili göstərir ki, postmünaqişə qayıdışın hüquqi mexanizmləri müxtəlif formalarda həyata keçirilə bilər. Bu modeldə bir tərəfdən beynəlxalq məhkəmə presedentləri, digər tərəfdən isə daxili institusional mexanizmlər paralel şəkildə fəaliyyət göstərir.

Bu məntiq Qərbi azərbaycanlıların vəziyyətinə də tam şəkildə tətbiq edilə bilər.

Bosniya və Herseqovina, Kosovo və Kipr modellərinin müqayisəli hüquqi təhlili göstərir ki, postmünaqişə qayıdışın beynəlxalq-hüquqi arxitekturası vahid universal normativ baza üzərində formalaşsa da, onun tətbiqi konkret siyasi, institusional və təhlükəsizlik şərtlərindən asılı olaraq müxtəlif formalarda reallaşır. Bu modellərin hər biri qayıdış hüququnun həyata keçirilməsi üçün fərqli hüquqi mexanizmlər təqdim etsə də, onların əsasında eyni fundamental prinsiplər dayanır.

Bu təhlil qayıdış hüququnun beynəlxalq hüquqda həm normativ, həm də tətbiqi xarakter daşıyan kompleks institut olduğunu təsdiq etməklə Qərbi Azərbaycana postmünaqişə qayıdışın hüquqi arxitekturasını formalaşdıran əsas presedent kimi çıxış edə bilər. Təqdim etdiyimiz modellər göstərir ki, qayıdış hüququnun reallaşdırılması yalnız hüquqi normaların mövcudluğu ilə deyil, onların institusional və praktik icra mexanizmləri ilə təmin olunmalıdır. Belə bir nəticə postmünaqişə reallıqlarında qayıdış hüququnun həyata keçirilməsi üçün konseptual hüquqi çərçivənin formalaşdırılmasında əsas metodoloji baza kimi çıxış edə bilər.

### Qərbi Azərbaycana qayıdışın hüquqi modeli

Qayıdış hüququnun beynəlxalq hüquqda normativ şəkildə təsbit olunması onun konkret münaqişə kontekstlərində avtomatik reallaşmasını təmin etmir. Müasir beynəlxalq təcrübə göstərir ki, bu hüququn effektivliyi yalnız onun mövcudluğu ilə deyil, hansı hüquqi və institusional mexanizmlər vasitəsilə həyata keçirilməsi ilə müəyyən olunur. Bu baxımdan Qərbi azərbaycanlıların qayıdışı problemi klassik insan hüquqları kateqoriyasından çıxaraq, kompleks hüquqi innovasiya, "mühəndislik" tələb edən xüsusi hal, normativ hüququn icraedici mexanizmə transformasiyası problemi kimi nəzərdən keçirilməlidir.

Qərbi azərbaycanlıların qayıdış hüququnun əsaslandırılması yalnız klassik "öz ölkəsinə qayıtmaq hüququ" anlayışı ilə məhdudlaşmır. 1966-cı il tarixli Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın 12(4)-cü maddəsində istifadə olunan "öz ölkəsi" anlayışı beynəlxalq hüquqi doktrinada geniş interpretasiya olunur və yalnız formal vətəndaşlıqla deyil, faktiki və davamlı bağlılıqla izah edilir. Məhz belə bir geniş interpretasiya Qərbi Azərbaycan kontekstində hüquqi əsaslandırmanın əsasını təşkil edir. Çünki bu yanaşma qayıdış hüququnu yalnız dövlət-vətəndaş münasibəti çərçivəsində deyil, ərazi, mülkiyyət və sosial bağlılıq əsasında formalaşan hüquq kimi təqdim etməyə imkan verir.

Bundan əlavə, beynəlxalq məhkəmə praktikasında formalaşmış "davam edən pozuntu" doktrinası bu hüququn zaman baxımından məhdudlaşdırılmadığını təsdiq edir. Xüsusilə Avropa İnsan Hüquqları Məhkəməsi tərəfindən qəbul edilmiş Loizidou və Cyprus işləri üzrə qərarlar göstərir ki, mülkiyyətə çıxışın və əvvəlki yaşayış imkanının məhdudlaşdırılması yalnız keçmişdə baş vermiş fakt deyil, davam edən hüquq pozuntusudur. Bu yanaşma Qərbi azərbaycanlıların qayıdış hüququnun hüquqi baxımdan "köhnəlmiş iddia" kimi deyil, aktual və davam edən hüquq tələbi kimi irəli sürülməsinə imkan yaradır. Qayıdış hüququnun icrası yalnız onun subyektlərinin dəqiq müəyyən edildiyi təqdirdə mümkündür. Əks halda, hüquq abstrakt kateqoriya olaraq qalır. Beynəlxalq təcrübə göstərir ki, bu mərhələ hüquqi baxımdan ən mürəkkəb və eyni zamanda ən həssas mərhələdir.

Bosniya və Kosovo təcrübəsi sübut edir ki, belə hallarda xüsusi verifikasiya mexanizmləri yaradılmadan qayıdış prosesi hüquqi baxımdan qeyri-müəyyən qalır. Mülkiyyət sənədlərinin, arxiv məlumatlarının və yaşayış faktının sübut edilməsi yalnız texniki məsələ deyil, hüquqi legitimliyin əsas elementidir.

Qayıdış hüququnun dərhal və kütləvi şəkildə həyata keçirilməsi nəzəri cəhətdən mümkün görünsə də, praktikada bu yanaşma ciddi risklər yaradır. Bu səbəbdən beynəlxalq təcrübədə mərhələli qayıdış modeli üstünlük təşkil edir. Bu modelin hüquqi məntiqi ondan ibarətdir ki, hüququn realizəsi sosial sabitliyi pozmamalıdır. Bosniya və Kosovo təcrübəsi göstərir ki, ilkin mərhələdə məhdud sayda qayıdışın həyata keçirilməsi hüquqi mexanizmlərin sınaqdan keçirilməsinə və risklərin qiymətləndirilməsinə imkan yaradır.

Mərhələli qayıdış burada yalnız praktik zərurət deyil, hüquqi əsaslandırılmış model kimi çıxış edir.

Qayıdış hüququnun reallaşması, qeyd etdiyimiz kimi, mülkiyyət hüququnun bərpası olmadan mümkün deyil. Beynəlxalq hüquqda restitusiya hüquq pozuntusunun nəticələrinin aradan qaldırılmasının əsas forması kimi qəbul edilir.

AİHM-in Demopoulos qərarında vurğulandığı kimi, kompensasiya yalnız subsidiar xarakter daşıyır və restitusiya prinsipini əvəz edə bilməz. Bu yanaşma göstərir ki, qayıdış hüququnun reallaşması yalnız fiziki qayıdış deyil, həm də mülkiyyət və sosial bağlılığın bərpası deməkdir.

Beləliklə, mülkiyyət hüququ qayıdış modelinin mərkəzi elementi kimi çıxış edir.

Qayıdış hüququnun klassik insan hüquqlarından fərqli xüsusiyyəti onun təhlükəsizlik mühitindən asılı olmasıdır. Beynəlxalq təcrübə göstərir ki, təhlükəsizlik təmin edilmədən qayıdış hüququ, faktiki olaraq, həyata keçirilə bilmir. Bu baxımdan beynəlxalq iştirak (monitorinq, sülhməramlı mexanizmlər, hüquqi nəzarət) hüququn reallaşmasının ayrılmaz elementi kimi çıxış edir. Bu yanaşma qayıdış hüququnun yeni doktrinal interpretasiyasını formalaşdırır: qayıdış hüququ təhlükəsizliklə şərtlənən hüquqdur

Bu baxımdan Qərbi Azərbaycan modeli hüquqi, institusional və siyasi elementlərin balansına əsaslanmalıdır. Bu isə qayıdış hüququnun yalnız hüquq deyil, idarə olunan hüquqi proses olduğunu göstərir.

Qərbi Azərbaycan kontekstində təklif olunan model bu yanaşmanı tətbiq edərək hüquqi legitimlik (normativ baza və presedentlər); subyektlərin müəyyənləşdirilməsi (verifikasiya); mərhələli icra (hüquqi realizm); restitusiya (hüquqi bərpa); beynəlxalq təminat (təhlükəsizlik və nəzarət) və institusional idarəetmə (prosesin koordinasiyası) prinsiplərinə əsaslanır. Belə bir yanaşma qayıdış hüququnu abstrakt hüquqdan çıxararaq idarəolunan hüquqi prosesə çevirir. Məhz bu mənada, Qərbi Azərbaycan modeli beynəlxalq hüququn ümumi prinsiplərinin konkret regional tətbiq forması kimi çıxış edir və qayıdış hüququnun praktik realizəsi üçün konseptual əsas yaradır. Bu modelin əsas xüsusiyyəti onun normativ deyil, funksional xarakter daşımasıdır.

Beləliklə, Qərbi Azərbaycan kontekstində qayıdış hüququ yalnız siyasi tələb deyil, beynəlxalq hüquq çərçivəsində əsaslandırılmış və həyata keçirilə bilən kompleks hüquqi model kimi təqdim olunur. O müasir beynəlxalq hüquqda insan hüquqlarının bərpası ilə yanaşı, postmünaqişə sabitliyinin və regional təhlükəsizliyin təmin edilməsində mühüm rol oynayan əsas hüquqi institutlardan biri kimi çıxış edir.

***Xalid NİYAZOV,***
***Bakı Dövlət Universiteti***
***"Qərbi Azərbaycan Araşdırmaları Mərkəzi"nin direktoru,***
***siyasi elmlər doktoru***

# WUF13: şəhərsalma və memarlıq ənənəsi kontekstində




## III MƏQALƏ

### Bakı fenomeni

**Prezident İlham Əliyevin "Azərbaycanın Xəzər nefti" (2003) monoqrafiyasında vurğulanır ki, "Bakı bir neçə əsr müddətində Azərbaycanın və bütövlükdə Şərqin Şamaxı, Gəncə, Təbriz, Ərdəbil, Marağa və başqa mədəniyyət mərkəzləri ilə rəqabətdə yaşamış və inkişaf etmişdir". Bu dinamika şəhərləşmə kontekstində yığcam və maraqlı formada əsərdə ifadə edilmişdir:**

*– "əvvəlcə, bura kiçik məskunlaşma yeri idi" - əbədi yanan odlar yurdu;*

*– "sonra Bakı Şirvanşahların qalasına çevrildi", "bəzən paytaxt da olurdu";*

*– "XV-XVI əsrlərdə Avropa Şərqlə ticarəti Rusiya vasitəsi ilə yaradanda Bakı beynəlxalq əhəmiyyətli limana çevrilir";*

*– Bu keyfiyyətdə Bakı "öncə yükdaşınan liman, sonra müstəqil ticarət mərkəzi" oldu.*

*– "XIX əsrin sonunda, zəngin neft yataqlarının istismarına başlanması ilə Bakı və Abşeron yalnız bütövlükdə Azərbaycanın deyil, dünya azərbaycanlılarının mədəniyyət mərkəzinə çevrildi".*

Bu qısa təqdimat Bakının şəhər və mədəniyyət məkanı kimi təkamülünü iki aspektdə ifadə edir – birincisi, Bakının məskunlaşma yeri kimi şəhər statusunda inkişaf etməsinin sosial-mədəni konteksti, ikincisi, Bakının sənaye mərkəzi olaraq əsasən ticarət və energetika aspektlərində ölkə hüdudlarını aşaraq beynəlxalq miqyasda özünütəsdiqi. Bu iki aspektin prizmasında Bakıda şəhərsalma və memarlığın özünəməxsus keyfiyyətləri formalaşmışdır. Burada həmin prosesin detalları üzərində dayanmaq imkanı yoxdur. Sadəcə, iki xarici tədqiqatçı-missionerin Bakı haqqında dediklərini nümunə kimi göstərək.

İngilis missioneri Con Katrayt 1560-cı ildə Bakıya təşrif buyurmuşdur. Bakı haqqında yazmışdır: "Bakıya gəldikdə isə, çox qədim şəhərdir. Bura Ərdəbildən, Şamaxıdan, Dərbənddən mal gətirmək çox uyğundur. Bu şəhərdən çox uzaq olmayan qəribə və heyrətamiz fəvvarə vardır və ondan çox həcmdə qara yağ fışqırır ki, evlərin işıqlandırılması üçün istifadə edirlər".

E.Kempfel 1684-cü ildə yazırdı: "Neft qoyun dərilərində (yəni, tuluqlarda – F.Q.) Şamaxı və Bakıya daşınırdı, oradan Midiyaya və sonra Avropa və Rusiyaya aparılırdı". Missioner onu da vurğulayır ki, neftdən bayram tədbirlərində, müxtəlif işıqlandırmada, yəni mədəniyyət elementi kimi istifadə edilirdi. Bu da qədimdən Bakıda neftin həm də mədəniyyət kontekstinə malik olduğunu göstərir.

Beləliklə, Bakının şəhər kimi inkişafında ticarət, neft istehsalı və daşınması, xarici ölkələrlə əlaqələrin inkişafı və müxtəlif sivilizasiyaların bu məkan uğrunda mübarizəsi kontekstində xüsusi urbanizasiya dinamikasına malik olan məskunlaşma yeri kimi zəngin təcrübəsi mövcuddur. Bu təcrübənin çox mühüm aspektini Bakının o dövrdə Azərbaycanda mövcud olan güclü memarlıq məktəblərinin təsiri və rəqabəti fonunda inkişafı təşkil edir.

### Şirvan–Abşeron memarlıq məktəbi

Mütəxəssislər Şirvan-Abşeron memarlığının üslub xüsusiyyətləri qismində "daş və onun üzərində tətbiq edilən ornamental oymanın birlikdə təsiri"ni xüsusi qeyd edirlər. Gözəl yerli daş diqqətlə yonulurdu, onun səthi hamarlanırdı. Bu, "Şirvan tikililərinin hörgüsünə xüsusi bir görkəm verir"di. Maraqlıdır ki, bu cür "hörülmüş səthlərin üzərində yerləşdirilən zərif daş oymaları kompozisiyanın gözəçarpan hissələrində mərkəzləşdirilir"di ki, bu da "öz bədiiliyi ilə diqqəti cəlb edir"di.

Bu üslubda iki məqam mütəxəssislərin diqqətini çəkir – birincisi, kompozisiyaların sadəliyinin müəyyənləşdirməsi, ikincisi, əsas diqqətin ayrı-ayrı ünsürlərin dürüst şəkildə işlənməsinə verilməsi.

Nümunə kimi mütəxəssislər Baba Samid məqbərəsini, Bakı xan sarayını, Bakı orta əsr ticarət kompleksini, Balaxanı qum hamamını, Bibiheybət məscidini, Bakı qalasını, Qız qalasını, Diribaba türbəsini, Sınıqqala məscidini, Nardaran məscidini və digərləri göstərirlər.

Deməli, Bakı şəhər kimi Şirvan-Abşeron memarlığının üslub xüsusiyyətləri fonunda təşəkkül etmiş, məkanca həmin memarlıq təfəkkürünün incəlikləri üzərində bərqərar olmuş və dünyada özünəməxsus urbanizasiya səviyyəsinə yüksəlmişdir. WUF13 kontekstində bu, olduqca əlamətdar məqam kimi görünür.

Ancaq məsələ yalnız bununla məhdudlaşmır, çünki Bakı həm də Azərbaycanın digər memarlıq məktəblərinin güclü rəqabəti fonunda şəhər və memarlıq məkanı kimi təkamül etmişdir. Bu da əslində söhbətin bütövlükdə Azərbaycan məkanında şəhərsalma və memarlıq mədəniyyətinin vahid inkişaf prosesindən getdiyini ifadə edir.

### Naxçıvan–Marağa memarlıq məktəbi

Bu memarlıq məktəbi XI əsrdən formalaşmağa başlamışdır. O, faktiki olaraq, "orta əsrlər Azərbaycan memarlığının üslub xüsusiyyətlərini müəyyənləşdirmişdir". Ölkəmizdə geniş yayılmış memarlıq məktəblərindən biridir. Naxçıvan-Marağa memarlıq məktəbi Azərbaycanda ilk memarlıq məktəbi hesab olunur. Onun görkəmli nümayəndələri kimi Memar Əcəmi Əbubəkr oğlu Naxçıvanini və Əhməd ibn Əyyub əl – Hafiz Naxçıvanini göstərirlər. Bu görkəmli memarların Marağaya, Bərdəyə və Şərqi Anadoluya qədər təsirləri olmuşdur. Bu da həmin məktəbin Azərbaycan ərazisində geniş yayıldığının göstəricisidir. Tədqiqatçılar yazırlar ki, "ümumilikdə bu memarlıq üslubu Şərq aləminin böyük bir hissəsində davam edib, kompozisiyalı abidələrin yaradılmasına təkan vermişdir".

Bütövlükdə isə, "Naxçıvan–Marağa memarlıq məktəbinin üslub xüsusiyyətlərinin müəyyənləşməsində və nüfuzunun artmasında XII əsrdə Azərbaycanın mədəni həyatındakı ümumi yüksəliş, yerli dövlət hakimiyyətinin möhkəmlənməsi, şəhərlərin iqtisadi vəziyyətinin yaxşılaşması, ölkədə ədəbiyyatın və fəlsəfi fikrin inkişafı, humanizm ideyalarının yayılması mühüm rol oynamışdır".

Bu məktəbin özünəməxsus üslub xüsusiyyətləri vardır. Mütəxəssislər yazırlar ki, "Naxçıvan–Marağa memarlıq məktəbi dövrün ən mükəmməl inşaat quruluşlarının tətbiqi, binanın texniki quruluşu ilə onun bədii həllinin tektonikliyinə nail olunması baxımından ən yüksək səviyyəyə qalxmışdı".

Nümunə kimi, Yusif Küseyir oğlu türbəsini, Möminə Xatun türbəsini, Bərdə türbəsini, Qırmızı Günbəd türbəsini, Göy Günbəd türbəsini və sairi göstərmək olar. Bu nümunələrin ümumi quruluşları "abidəviliyi, ayrıntılarının zərifliyi, memarlıq bölgülərinin nikbinlik doğuran görkəmi, ornament bəzəklərinin oynaqlığı ilə səciyyələnir".

Bunlardan başqa, "Naxçıvan–Marağa memarlıq məktəbi dəqiq riyazi hesablama metodlarına əsaslanırdı. Abidələr dəqiq hesablama və ölçmələr, planlaşma, yerləşmə, ornamentlərinin və kitabələrinin dəqiq düzülməsi əsasında inşa edilirdi".

### Ənənədən müasirliyə

Yuxarıdakı qısa nümunələr belə göstərir ki, Azərbaycanda şəhərsalma və memarlığın özünəməxsus təkamül dinamikası olmuşdur. Bu proses bütövlükdə Azərbaycan mədəni coğrafiyasını əhatə etmişdir. Bir neçə memarlıq məktəbinin mövcudluğuna baxmayaraq, onlar bir yerdə ümumi Azərbaycan mədəniyyətini ifadə etmişlər. Burada şəhərsalma ilə memarlığın vahid sosial-mədəni və sivilizasiya bazasına malik olması diqqəti çəkir. Bakının bu prosesdə şəhər və sənaye mərkəzi kimi rolu xüsusidir.

Ayrıca, XIX əsrin sonlarından Bakının dünyanın əsas neft mərkəzlərindən biri kimi tanınmağa başlaması və onun uğrunda böyük güclərin kəskin mübarizəsi inkişaf baxımından da xüsusi təkan vermişdir. Bir tərəfdən, şəhərdə demoqrafik tərkib mürəkkəbləşmiş, digər tərəfdən isə o, daha zəngin mədəni prosesə imkan yaratmışdır. Çar Rusiyasından sonra sovetlər dönəmində Bakının şəhər və paytaxt kimi əhəmiyyəti daha da artmışdır.

Lakin WUF13 kontekstində əsas məqam müstəqilliklə bağlıdır. Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycanı dünya siyasətinin mərkəzinə gətirə bilmişdir. Bu prosesi Prezident İlham Əliyev yeni səviyyəyə yüksəldərək, ölkəni beynəlxalq tədbirlərin uğurla keçirildiyi məkan kimi tanıtmışdır. Onun mühüm aspektlərindən biri də Azərbaycanda şəhərsalmanın ənənədən uğurla müasirliyə doğru yeni keyfiyyətlər almasıdır. Onun bir sıra əlamətlərini WUF13 kontekstində vurğulamaq gərəkdir.

Hər şeydən öncə, Bakıda şəhərsalma və memarlıqda ənənə ilə müasirliyin yüksək səviyyədə vəhdətini görürük. Nümunə kimi son 20 ildə Bakının simasının ciddi surətdə yeniləşməsini və ən müasir Avropa şəhərlərinə xas olan memarlıq nümunələri ilə zənginləşməsini göstərə bilərik. Bakı sovet dönəmindən miras qalan "Qara şəhəri" "Ağ şəhər"ə çevirmişdir. Bibiheybət ərazisində çoxlu sayda yeni memarlıq nümunələri olan tikililər göz oxşayır. Paytaxtda 100-ə yaxın yeni park salınmışdır.

Bütün bu dəyərlərə görə, Azərbaycan Prezidenti İlham Əliyevin aşağıdakı fikirləri ifadə etməsi tamamilə reallığı əks etdirir. Azərbaycan lideri demişdir: "2026-cı ildə dünyanın şəhərsalma sahəsində ən nüfuzlu tədbirlərindən olan Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının Bakı şəhərində keçirilməsi qərarı Azərbaycanın beynəlxalq urbanizasiya proseslərinə verdiyi töhfənin və etibarlı tərəfdaş kimi qazandığı yüksək etimadın göstəricisidir".

Azərbaycan Prezidentinin xüsusi vurğuladığı kontekstdə WUF13 çərçivəsində "WUF Akademiyası, Şəhərlərin səsi, DİM-in tətbiqi, Şəhər kinoteatrı, Şəhər kitabxanası, BMT-nin Məskunlaşma Proqramının arenası, Təcrübə mərkəzi, Biznes və innovasiyalar mərkəzi nəzdində digər çoxsaylı tədbirlər"in təşkil olunması maraqlı təəssürat yaratmışdır. O cümlədən "Şəhərsalmanın yenidən qurulması – Azərbaycan şəhər transformasiyası üçün İnnovasiya Laboratoriyasını necə yaratdı?" mövzusunda sessiyanın keçirilməsi Azərbaycanın beynəlxalq urbanizasiya proseslərinə verdiyi mühüm töhfələrdən biri kimi nümunəvidir.

Sessiyada "işğaldan azad olunmuş şəhərlərdə həyata keçirilən yenidənqurma işlərində hər bir yaşayış məntəqəsinin coğrafi xüsusiyyətlərinə, landşaftına və memarlıq kimliyinə uyğun yanaşmaların tətbiq olunduğunu" bildirilib. Eyni zamanda, "şəhər transformasiyası, dayanıqlı yenidənqurma və innovativ şəhərsalma həlləri müzakirə olunub". Nümunə kimi, Kəlbəcərdə dağlıq relyefə uyğun Alp üslubunun, Zəngilanda isə müasir memarlıq elementlərinin tətbiqi ayrıca göstərilib.

Xarici qonaqlar da Bakının müasir memarlığı ilə qədim tarixinin vəhdətini, xüsusən İçərişəhəri və müasir şəhər infrastrukturunu yüksək qiymətləndirən fikirlər söyləmişlər.

Onu da xüsusi vurğulamaq gərəkdir ki, WUF13-ün Azərbaycanda keçirilməsində azad Qarabağda davamlı olaraq reallaşan ən müasir şəhərsalma və memarlıq nümunələri əsas rollardan birini oynamışdır. Bu baxımdan Qarabağ, sözün həqiqi mənasında, dünya üçün gözəl bir nümunədir.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

**Ermənistanın Avropa İttifaqı ilə Avrasiya İqtisadi İttifaqı arasında seçim etməsinin zəruriliyi məsələsi son vaxtlar daha kəskin şəkildə qoyulur. Yada salaq ki, bununla bağlı fikirlərini ilk olaraq aprelin 1-də Rusiya Prezidenti Vladimir Putin açıqlayıb. Kremldə Ermənistanın Baş naziri Nikol Paşinyanla danışıqlar zamanı Rusiya Prezidenti qeyd etmişdi ki, Ermənistan Avropa ilə əməkdaşlığı davam etdirə bilər, lakin eyni vaxtda Aİ ilə AİI-nin üzvü olmaq mümkün deyil.**

# İrəvan yollar ayrıcında

## *4 ölkə Paşinyandan konkret mövqe gözləyir*



Mayın 9-da Kremldə jurnalistlərlə görüşündə V.Putin bildirmişdi ki, İrəvan Aİ ilə yaxınlaşma yolunu seçəcəyini, yoxsa AİI-də qalacağını mümkün qədər tez müəyyənləşdirməlidir. Qeyd etmişdi ki, Ermənistan birinci variantı seçərsə, bu halda tərəflər "yumşaq və sivil boşanma" yoluna gedə bilərlər. "Buna uyğun olaraq biz də müvafiq nəticələr çıxarar və yumşaq, belə desək, sivil və qarşılıqlı faydalı boşanma yolunu seçərik", – Putin vurğulamışdı. Rusiya liderinin fikrincə, Ermənistan hakimiyyətinin bu məsələ ilə bağlı mümkün qədər tez qərar verməsi həm ölkə vətəndaşları, həm də Ermənistanın əsas iqtisadi tərəfdaşı olan Rusiya üçün vacibdir. Putin bu mövzunun mayın 28–29-da Astanada keçiriləcək AİI sammitində müzakirə olunmasını təklif etmişdi.

Astanada Ali Avrasiya İqtisadi Şurasının iclasında Rusiya, Qazaxıstan, Belarus və Qırğızıstan prezidentləri Ermənistanın AİI-dəki vəziyyəti ilə bağlı bəyanat qəbul ediblər. Bəyanatda Ermənistan hakimiyyətinə AİI ilə Aİ arasında seçim məsələsi üzrə mümkün qədər tez referendum keçirmək çağırışı edilib. Ermənistan Baş naziri ölkəsində keçiriləcək parlament seçkilərinin təbliğat-təşviqat kampaniyasında iştirakı səbəbindən iclasda iştirak etməyib. Zirvə toplantısında Ermənistanı Baş nazirin müavini Mher Qriqoryan təmsil edib. Rusiya Prezidentinin köməkçisi Yuri Uşakov bildirib ki, AİI-nin dörd ölkəsinin liderlərinin bəyanatı Ermənistan Baş nazirinin müavininə çatdırılıb.

M.Qriqoryan sammitdəki çıxışı zamanı bildirib ki, Ermənistan AİI-nin işində vicdanla iştirak etməyə davam etmək niyyətindədir: "Ölkəmiz qarşılıqlı hörmət, bərabər tərəfdaşlıq və bütün AİI üzv dövlətlərinin milli maraqlarını nəzərə almaq əsasında AİI iclaslarında iştirak etməyə hazırdır. M.Qriqoryan qeyd edib ki, "Ermənistan dəfələrlə ölkələrimizin və bütövlükdə, regionumuzun xeyrinə, iqtisadi sabitliyi və iqtisadi inkişafı təmin etmək naminə Avrasiya İqtisadi İttifaqı çərçivəsində qarşılıqlı faydalı əməkdaşlığa sadiqliyini təsdiqləyib".

AİI liderlərinin bəyanatına N.Paşinyan da münasibət bildirib. Deyib ki, Ermənistan Rusiya ilə münasibətlərə böyük önəm verir. "Ermənistan Rusiya ilə yeni münasibətlər formalaşdırır. Əminəm ki, biz bu işdə uğur qazanacağıq. O cümlədən ona görə ki, Rusiya ilə münasibətlərimiz açıq və səmimidir, bu münasibətlərdə heç bir qaranlıq məqam saxlamamışıq", – deyə Paşinyan "Facebook"da açdığı canlı yayım zamanı bildirib.

Paşinyan Rusiya, Belarus, Qazaxıstan və Qırğızıstan liderlərinin bəyanatında yer alan Ermənistanda Aİ-yə üzvlük və ya AİI-də qalmaq məsələsi ilə bağlı qısa müddətdə referendum keçirilməsinin zəruri olduğu fikrinə də münasibət bildirib və bunu "əsassız" adlandırıb: "Ermənistan hələ rəsmi şəkildə Avropa İttifaqına üzvlük üçün müraciət etməyib və ya üzvlüyə namizəd statusuna çox yaxın deyil. Belə olduğu halda hər hansı referendum keçirmək məntiqsizdir, çünki bunun üçün əsaslandırma yoxdur. Hazırkı mərhələdə referendumun keçirilməsi əsaslı deyil".

Baş nazir qeyd edib ki, Ermənistan hələlik AİI çərçivəsində fəaliyyətini davam etdirəcək: "Biz Avrasiya İqtisadi İttifaqı çərçivəsində işləyirik və Avropa İttifaqı ilə Avrasiya İqtisadi İttifaqı arasında seçim qaçılmaz olana qədər işləməyə davam edəcəyik". Paşinyan vurğulayıb ki, belə bir seçim zəruri olarsa, yekun qərarı Ermənistan xalqı verməlidir: "Qərar təbii olaraq Ermənistan Respublikası xalqı tərəfindən referendum yolu ilə qəbul edilməlidir".

***

Girişdə qeyd etdiyimiz Ermənistanın Aİ ilə AİI arasında seçim etməsi məsələsinin son dövrlərdə daha açıq şəkildə gündəmə gətirilməsi İrəvanın xarici siyasət kursu ilə bağlı qeyri-müəyyənliyin artıq tərəfdaş ölkələri də narahat etməyə başladığını göstərir. Rusiyanın və AİI-yə üzv digər dövlətlərin mövqeyindən görünür ki, onlar Ermənistanın uzun müddət eyni vaxtda həm Avropa istiqamətində inteqrasiya prosesini irəli aparmağa, həm də Avrasiya məkanında iqtisadi üstünlüklərdən yararlanmağa çalışmasını məqsədəuyğun hesab etmirlər. Tərəfdaşları açıq şəkildə bildirirlər ki, Aİ-yə inteqrasiya dərinləşərsə, bu, gec-tez AİI-də üzvlüklə ziddiyyət təşkil edəcək. Bu yanaşma təkcə Rusiyanın deyil, Qazaxıstan, Belarus və Qırğızıstanın da ortaq mövqeyi kimi təqdim olunub.



**Mövzu ilə bağlı fikirlərini XQ ilə bölüşən siyasi şərhçi Rizvan Hüseynov bildirdi ki,** Astanada qəbul edilən bəyanat məsələnin artıq təkcə Rusiya–Ermənistan münasibətlərinin mövzusu olmaqdan çıxdığını, bütövlükdə, AİI-nin gələcəyi ilə əlaqəli olduğunu göstərir. Onun sözlərinə görə, N.Paşinyanın cavabı isə İrəvanın hələlik bu seçimi rəsmiləşdirmək niyyətində olmadığını ortaya qoyur: "Ermənistan rəhbərliyi bildirir ki, ölkə nə Aİ-yə üzvlük üçün müraciət edib, nə də üzvlüyə namizəd statusu almaq mərhələsinə yaxınlaşıb. Bu səbəbdən referendum keçirilməsinin vaxtının çatmadığı bildirilir. Əslində, Paşinyanın yanaşması Ermənistanın mövcud vəziyyəti mümkün qədər uzun müddət qorumaq istəyindən xəbər verir. İrəvan həm AİI çərçivəsində iqtisadi imkanlardan istifadə etmək, həm də Aİ ilə siyasi və iqtisadi əlaqələri genişləndirmək xəttini davam etdirməyə çalışır. Bu siyasətin müəyyən məntiqi əsasları da var. Ermənistan iqtisadiyyatının mühüm hissəsi Rusiya bazarı ilə bağlıdır. Ölkənin enerji təhlükəsizliyi, əmək miqrasiyası və ticarət əlaqələri baxımından Moskva ilə münasibətlər hələ də ciddi əhəmiyyət daşıyır. Digər tərəfdən, Paşinyan hökuməti son illərdə Avropa İttifaqı ilə əməkdaşlığı genişləndirərək ölkənin xarici əlaqələrini şaxələndirməyə çalışır. Bu baxımdan İrəvan üçün ən əlverişli variant hər iki istiqamətdən faydalanmaqdır. Lakin problem ondadır ki, həm Moskva, həm də AİI-dəki digər tərəfdaşlar belə vəziyyətin uzunmüddətli perspektivdə mümkün olmadığı qənaətinə gəlirlər".

Ekspert qeyd etdi ki, Paşinyanın referendumun gələcəkdə qaçılmaz ola biləcəyini etiraf etməsi də diqqət çəkir: "Baş nazir bir tərəfdən bu məsələni indiki mərhələdə gündəmdən çıxarmağa çalışır, digər tərəfdən isə gələcəkdə belə qərarın xalq tərəfindən qəbul edilməli olduğunu bildirir. Bu yanaşma göstərir ki, Ermənistan rəhbərliyi seçimin gec-tez qarşısına çıxacağını anlayır, sadəcə, həmin məqamı mümkün qədər təxirə salmağa üstünlük verir. Hazırkı mərhələdə İrəvanın əsas məqsədi parlament seçkilərindən sonra yaranacaq siyasi vəziyyəti və beynəlxalq mühiti qiymətləndirməkdir. Ermənistan rəhbərliyi həm Avropa İttifaqının ölkəyə təqdim edə biləcəyi imkanları, həm də AİI-dən uzaqlaşmanın yarada biləcəyi iqtisadi riskləri müqayisə edir. Bu səbəbdən yaxın dövrdə kəskin qərar gözlənilmir".

R.Hüseynovun fikrincə, bununla belə, Astanada səsləndirilən mövqelər göstərdi ki, AİI ölkələri Ermənistandan daha aydın mövqe gözləyirlər: "Əgər Avropa istiqamətində addımlar sürətlənərsə, bu zaman Moskvanın və digər tərəfdaşların təzyiqinin artacağı istisna deyil. Belə şəraitdə Paşinyan hökuməti balans siyasətini qorumaqda əvvəlki illərlə müqayisədə daha çox çətinliklə üzləşə bilər".

***Səxavət HƏMİD***
***XQ***

*"Bakı Enerji Həftəsi"*

# Beynəlxalq enerji təqdimatları



*(əvvəli 1-ci səhifədə)*

Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti Rövşən Nəcəf əsas məruzə ilə çıxış edərək bildirdi ki, hazırda ölkəmizin təbii qazı regionun ən etibarlı enerji mənbələrindən biri hesab edilir: "Əsas məsələ ondan ibarətdir ki, biz bu təchizatlara daha çox necə töhfə verə və regionun enerji təhlükəsizliyini daha da gücləndirə bilərik. Ötən illə müqayisədə bu il təchizat coğrafiyamız haqqında danışarkən artıq təkcə Avropa, Gürcüstan və Türkiyəni nəzərdə tutmuruq. Bu siyahıya Suriya da əlavə olunub".

Hazırkı şəraitdə tərəfdaşlarımızın daha çox qaz həcmlərinə ehtiyac duyduqlarını vurğulayan SOCAR prezidenti bu təchizatın dayanıqlı və etibarlı şəkildə həyata keçirilməsinin də eyni dərəcədə vacib olduğunu diqqətə çatdırdı. Qeyd olundu ki, mövcud şəraitdə Azərbaycan qazı regionun ən etibarlı enerji mənbələrindən biri hesab olunur. "İndi biz və tərəfdaşlarımızın qarşısında duran vəzifə istehsal planlarının nəzərdə tutulmuş proqramlara uyğun şəkildə irəliləməsini təmin etməkdir. Bu, regiondakı tərəfdaşlarımıza daha çox qaz həcmlərinin çatdırılmasına imkan verəcək", – deyə o əlavə etdi.

Hazırda SOCAR-ın müxtəlif layihələri nəzərdən keçirərək həm şirkətin özünün, həm də Azərbaycanda fəaliyyət göstərən özəl şirkətlərin həmin layihələrə hansı əlavə dəyəri qata biləcəyini təhlil etdiyini bildirən Rövşən Nəcəfin sözlərinə görə, rəhbərlik etdiyi qurum ölkəmizdə həyata keçirilən enerji layihələrində iştirak imkanlarını qiymətləndirməyə davam edir və bu istiqamətdə tərəfdaş şirkətlərlə müzakirələr aparır. Bu baxımdan SOCAR-ın bp və Azərbaycanda fəaliyyət göstərən digər enerji şirkətləri ilə daimi əlaqə saxladığı diqqətə çatdırıldı.

Enerji sektorunda uzun illər ərzində investisiya çatışmazlığının müşahidə olunduğunu diqqətə çatdıran SOCAR rəhbəri qeyd etdi ki, neft-qaz sənayesində olduğu kimi, enerji layihələrinə qoyulan investisiyalar da qısa müddətdə nəticə vermir və bu səbəbdən gələcəkdə təkliflə tələbat arasında müəyyən boşluğun yaranması mümkündür. Onun sözlərinə görə, süni intellekt texnologiyalarının həm şirkətlərə, həm də ev təsərrüfatlarına enerjidən daha səmərəli istifadə etməyə kömək edəcəyi gözlənilir.

bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Cio Kristofoli bildirdi ki, Azərbaycan və Xəzər regionu qarşıdakı onilliklər ərzində dünya səviyyəli enerji qovşağına çevrilə bilər. Onun sözlərinə görə, regionun zəngin karbohidrogen ehtiyatları, inkişaf etmiş enerji infrastrukturu, əlverişli biznes mühiti və güclü insan kapitalı bu məqsədə nail olmaq üçün əsas üstünlüklərdir.

Xəzər hövzəsinin dünyanın ən böyük karbohidrogen regionlarından biri olduğunu vurğulayan şirkət rəhbərinin sözlərinə görə, Səngəçal terminalı, boru kəmərləri sistemi və digər enerji infrastrukturu ixrac marşrutlarının şaxələndirilməsinə imkan verir və 99 faiz etibarlılıq göstəricisi ilə fəaliyyət göstərir. Azərbaycanın həm də yüksək ixtisaslı kadr potensialına malik olduğunu vurğulayan regional prezident daha sonra bildirdi: "Biz getdikcə daha çox Bakını yeni Hyuston və yeni Aberdinə çeviririk. Azərbaycanın mütəxəssisləri artıq təkcə yerli layihələrdə deyil, bp-nin dünyanın müxtəlif regionlarındakı fəaliyyətində də mühüm rol oynayırlar".

"Şahdəniz"in ehtiyatlarının Böyük Britaniyanın qaz tələbatını, təxminən, 10 il ərzində qarşılamağa kifayət edə biləcəyini vurğulayan C.Kristofoli qeyd etdi ki, enerji təhlükəsizliyinin təməl sütunlarından biri olan bu yatağın ehtiyatları 28 trilyon kubfut təşkil edir. Onun sözlərinə görə, bp yataqdakı ehtiyatlardan maksimum səmərə ilə istifadə etmək üçün investisiya qoyuluşu davam etdirilir, hazırda layihə çərçivəsində yeni quyuların qazılması həyata keçirilir. O, həmçinin bildirdi ki, şirkət "Şahdəniz"də kompressor platformasının quraşdırılmasına 2,9 milyard ABŞ dolları həcmində investisiya yatırır: "Bu obyekt tam elektrikləşdirilmiş və pilotsuz idarə olunacaq. Bu, mürəkkəblik baxımından Xəzər dənizində ilk belə layihə olacaq".

"GL Group"un baş icraçı direktoru və Məşvərət Şurasının sədri Asif Zeynalov bildirdi ki, Azərbaycan özünü sabit və etibarlı tərəfdaş kimi təsdiqləyib ki, bu da investorların və operatorların regiona marağını artırır. Ölkədəki yetkin yataqlarda hələ də əhəmiyyətli potensialın mövcudluğunu bildirən baş icraçı direktorun sözlərinə görə, müasir texnologiyaların tətbiqi, əməliyyat intizamının gücləndirilməsi, səmərəli kapital bölgüsü və təşkilati imkanların inkişafı hesabına əlavə dəyər yaratmaq mümkündür: "Biz Azərbaycanın perspektivlərinə böyük nikbinliklə baxırıq. Peşəkar idarəetmə və əməkdaşlıq vasitəsilə növbəti mərhələdə daha böyük dəyər yarada bilərik. Hesab edirəm ki, regionda əməkdaşlığın genişləndirilməsi üçün ciddi imkanlar mövcuddur".

Birləşmiş Ərəb Əmirliklərinin XRG şirkətinin aktivlərin idarə olunması üzrə baş vitse-prezidenti Bassem Tadros məruzəsində ilyarım əvvəl Azərbaycanda fəaliyyətə başladıqlarını xatırladaraq "Abşeron" layihəsində tərəfdaş olduqlarını diqqətə çatdırdı. O, həmçinin Cənub Qaz Dəhlizində pay əldə etmək üçün saziş imzaladıqlarını və şirkətin ölkəmizdəki fəaliyyətini daha da genişləndirilməsi istiqamətində müzakirələr apardığını bildirdi: "Enerji sektorunda 30 illik təcrübəmə əsaslanaraq deyə bilərəm ki, enerji layihələri, xüsusilə də sərhədlərarası enerji layihələri son dərəcə mürəkkəb, yüksək maliyyə tutumlu və ciddi risklər daşıyan təşəbbüslərdir.

Belə layihələrin uğurla həyata keçirilməsi üçün geologiya və hasilatdan başlayaraq layihələrin hazırlanması, icrası, maliyyələşdirilməsi, kommersiya danışıqları və maraqlı tərəflərlə münasibətlərin idarə olunmasına qədər geniş spektrdə peşəkar bilik və təcrübə tələb olunur. Tərəfdaşlıqlar bu risklərin azaldılmasına, layihələrin daha sürətli və səmərəli şəkildə reallaşdırılmasına kömək edir. Son bir il yarım ərzində fəaliyyətimizi məhz bu prinsip əsasında qurmuşuq və Azərbaycandakı mövcudluğumuzu əsas götürərək gələcəkdə də bu yanaşmanı davam etdirəcəyik".

Sessiyada "İNPEX" şirkətinin Avropa və Yaxın Şərq layihələri üzrə icraçı direktoru və baş vitse-prezidenti Munehiro Hosono, "Boston Consultinq Group"un idarəedici direktoru Pattabi Seşadri və SLB şirkətinin coğrafiyalar üzrə vitse-prezidenti Steve Gassen çıxış edərək mövzu ətrafında mülahizələrini bölüşdülər.

Forumun ikinci günündə, həmçinin potensialın artırılmasına dair sessiyalar, "Enerji səmərəliliyi və ESCO investisiya platforması: Qlobal ESCO təcrübəsinin Azərbaycanın iri enerji istehlakçıları ilə əlaqələndirilməsi", "Qaz sessiyası–bazarlar, nəqliyyat marşrutları və geopolitika", "Enerji körpüləri: Yaşıl enerjidən regional inteqrasiyaya" mövzuları müzakirə olundu.

Qeyd edək ki, Bakı Konqres Mərkəzində təşkil edilən forumun proqramında dünyanın müxtəlif ölkələrini və fərqli enerji sahələrini təmsil edən 60-dək spiker yer alıb. Toplantıda Azərbaycanla yanaşı, Almaniya, ABŞ, BƏƏ, Böyük Britaniya, Çin, Estoniya, Fransa, İsveçrə, İtaliya, Macarıstan, Niderland, Norveç, Rumıniya, Rusiya, Səudiyyə Ərəbistanı, Türkiyə, Yaponiya və digər ölkələrdən olan şirkətlər təmsil olunublar.

Bununla da, "Bakı Enerji Həftəsi"nin mühüm tədbirlərindən sayılan forum öz işini başa çatdırdı.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Azərbaycanın qlobal enerji bazarında rolu və mövqeyi yüksəlir

**Dünya enerji olmadan yaşaya bilməz. Lakin son illərdə neft və qaz sənayesinə qarşı aparılan təbliğat əsassız olduğu kimi, mövcud reallığı da əks etdirmir. Gerçək olan budur ki, enerji təhlükəsizliyini təmin etmək üçün fosil yanacaqdan tam imtina mümkün deyil, eyni zamanda, bərpaolunan mənbələrə sərmayə yatırmaq zəruridir.**




Prezident İlham Əliyev Bakı Ekspo Mərkəzində "Bakı Enerji Həftəsi" çərçivəsində keçirilən 31-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi "Caspian Oil and Gas", 14-cü Xəzər Beynəlxalq Təmiz Enerji Sərgisi "Caspian Power" və 31-ci "Baku Energy Forum"un rəsmi açılış mərasimində bildirdi ki, dünya faydalı qazıntı olmadan yaşaya bilməz: "Hamımız daha yaxşı iqlimi, planetin qorunmasını istəyirik. Lakin bu gün biz praqmatik olmalıyıq, enerji təhlükəsizliyi və həmçinin bərpaolunan enerjiyə sərmayə yatırmaqla yanaşı, öz gələcəyimizi planlaşdırmalıyıq. Düşünürəm, irəliyə doğru aparan yol belədir!".

Hər bir ölkə üçün neft-qaz kimi strateji sərvətlər milli resursdur. Azərbaycan bu resurslardan gəlir əldə etməklə və eyni zamanda, təmiz enerji layihələrinə sərmayə cəlb etməklə enerji siyasətini formalaşdırır. Doğru enerji siyasəti, əslində, milli maraqlar zəminində aparılan praqmatik siyasətdir.

Azərbaycan uzunmüddətli enerji siyasətində milli maraqları önə çəkərək tədricən neft-qazdan dayanıqlı enerjiyə keçid strategiyası formalaşdırır. Ölkə rəhbərliyi illərdir ki, neft və qazdan əldə olunan gəlirləri iqtisadiyyata sərf edərək yeni texnologiyalara və bərpaolunan enerji layihələrinə də investisiya yatırır. Bu praqmatik yanaşma Azərbaycanı həm iqtisadi cəhətdən gücləndirir, həm də beynəlxalq tərəfdaşlar qarşısında etibarlı enerji təminatçısı kimi tanıdır. Regionun enerji ilə zəngin potensialından düzgün istifadə Avropa üçün də alternativ mənbə deməkdir.

Rusiya–Ukrayna müharibəsi, Hörmüz boğazı ətrafında baş verən natarazlıqlar göstərdi ki, alternativ təchizat zəncirləri və enerjinin ötürülməsi baxımından təhlükəsizlik ilkin şərtdir. Cənub Qaz Dəhlizi Avropaya Azərbaycan qazı daşıyır, bu isə daha şaxələnmiş, etibarlı və təhlükəsiz qaz təchizatı deməkdir. Ölkəmiz 16 ölkəni mavi yanacaqla təchiz edir. Enerji sahəsində birgə layihələr gücləndirilir.

30 il öncə Azərbaycan xarici investorların cəlb edilməsinə yönəlmişdisə, bu gün ölkə nəhəng neft-kimya kapitallarına sahibdir və əksinə, sərmayə yatırır. SOCAR-ın (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) strateji məqsədi artıq yalnız daxili neft-qaz sektoruna güvənmək deyil, dünyada güclü iştirakçılardan birinə çevrilməkdir. Bu kontekstdə SOCAR artıq dünyanın müxtəlif regionlarında iri investisiya layihələrinə qoşulur.

2025-ci ilin sentyabrında SOCAR İtaliyanın "Italiana Petroli" şirkətinin 99.82 faizlik payını API Holdinqdən aldı. Bu, SOCAR-ın Avropa bazarında downstreym (pərakəndə yanacaq şəbəkəsi) mövqeyini əsaslı gücləndirdi. Mayın 28-də isə Romada Azərbaycan Dövlət Neft Şirkəti "SOCAR Italia"nın rəsmi açılışını qeyd etdi.

Azərbaycan Dövlət Neft Şirkəti qardaş Türkiyədə də böyük layihələrə sahibdir. 2018-ci ildə "SOCAR STAR" neft emalı zavodunun istifadəyə verilməsi bu sahədə ən iri investisiya hesab olunur. Bundan əlavə, ötən ilin yayında SOCAR Özbəkistanda, "Şimali Üstyurt" səhrasında yerləşən 6 qazma blokunda hasilat payı sazişi imzaladı. SOCAR-ın payı operator kimi 30 faizə bərabərdir.

Bütün bunlarla yanaşı, Dubayda keçirilən Dünya İqtisadi Forumunda Azərbaycan rəhbərliyi və Pakistan hökuməti arasında SOCAR-ın yanacaqdoldurma, LNG tədarükü və neft-qaz sahəsində əhəmiyyətli investisiya razılaşmaları müzakirə edildi. Pakistan Maliyyə Nazirliyinin məlumatına görə, SOCAR yaxın aylarda ölkənin neft-qaz sektoruna yeni sərmayəni reallaşdırmağa hazırlaşır.

Dövlət Neft Şirkəti Afrika bazarına da daxil olmaqda sürət qazanıb. Məsələn, 2026-cı ilin yanvarında SOCAR Kott Divuvarının (Fildişi sahili) Balein layihəsində 10 faiz pay alıb. Martda isə Cidde, Misir (EGYPS-2026) sərgisində SOCAR Trading Misir Ümumi Neft Şirkəti (EGPC) ilə strateji əməkdaşlıq sazişi imzalayıb. Bu saziş SOCAR-a Misir bazarına daha çox həcmdə neft-qaz məhsulu çıxarmaq və yeni layihələrdə iştirakı genişləndirmək imkanı yaradacaq. Ümumilikdə, son illərdə Azərbaycan Cənub Afrika Respublikasının, Keniya, Ekvatorial Qvineya, Əlcəzair və Nigeriya kimi ölkələrin neft-qaz şirkətləri ilə enerji sahəsində anlaşmalar imzalanıb.

Bu göstəricilər Azərbaycan təcrübəsinin uğurunu göstərir. Bir zamanlar ölkəmiz sərmayələrin yatırılması ilə iqtisadi diversifikasiyanı təmin edirdisə, bu gün xarici bazarlara sərmayə yatıran oyunçuya çevrilib. SOCAR-ın qlobal miqyaslı strateji addımları həm ölkəmizin iqtisadi qüdrətini artırır, həm də Avropa, Yaxın Şərq və Afrika üçün alternativ enerji mənbəyi kimi çıxış edir.

Azərbaycan neft-qaz strategiyasında milli maraqlar prinsipinə əsaslanan praqmatik xətt tutub. Bu yanaşma SOCAR-ın dünya energetikasında yeni rolunu təmin edir. Şirkət artıq həm təchizatçı, həm də iri investor funksiyalarını uğurla həyata keçirir.

Məsələyə digər tərəfdən – ölkəmizə yatırılan investisiyalar aspektindən baxıldığı zaman da olduqca xoş mənzərə görmək mümkündür. Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycan iqtisadiyyatına indiyədək 350 milyard ABŞ dollarını ötən investisiya cəlb edilib. Mürəkkəb geosiyasi mühitə malik Cənubi Qafqaz regionunda bu qədər böyük maliyyə axınının təmin olunması ölkənin iqtisadi siyasətinin çevikliyini və strateji idarəetmə bacarığını aydın şəkildə nümayiş etdirir.

Həmçinin Azərbaycana yatırılan investisiyalara paralel olaraq ölkəmizin də xaricə olan vəsait qoyuluşu olduqca çoxdur. BMT-nin Ticarət və İnkişaf Konfransının (UNCTAD) "Qlobal İnvestisiya Hesabatı"nda deyilir ki, 2000-2024-cü illər ərzində Azərbaycanın xarici ölkələrə yatırdığı birbaşa investisiyaların həcmi 29 milyard 876 milyon ABŞ dolları təşkil edib. Bu göstərici 2000-2023-cü illərdə 28 milyard 644 milyon ABŞ dolları, 2000-2010-cu illərdə isə 5 milyard 790 milyon ABŞ dolları olub.

***Nurlan ABDALOV***
***XQ***

# ABŞ ilə çoxtərəfli əməkdaşlığın növbəti hədəfləri

**Son dövrlər Azərbaycan-ABŞ münasibətləri yüksələn xətt üzrə inkişaf edir. Bakı ilə Vaşinqton arasında əlaqələrin yenidən canlanmasına mühüm təkan verən amillərdən biri Prezident İlham Əliyevin 2025-ci ilin avqustunda ABŞ-a səfəri və Ağ Evdə Prezident Donald Trampla keçirdiyi görüş olub. Bununla yanaşı, bu ilin fevral ayında ABŞ-ın vitse-prezidenti Cey. Di. Vensin Azərbaycana səfəri də ikitərəfli münasibətlərdə yeni dinamika formalaşdırıb.**



Qarşılıqlı səfərlərin yaratdığı müsbət siyasi atmosfer nəticəsində Azərbaycan və ABŞ arasında Strateji Tərəfdaşlıq Xartiyasının icrası istiqamətində praktiki addımlar sürətlənib. Xartiya çərçivəsində iqtisadiyyat, enerji, nəqliyyat, rəqəmsal texnologiyalar və digər sahələr üzrə əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə işçi qrupları yaradılıb. Bu mexanizmlər iki ölkə arasında əməkdaşlığın əsas prinsiplərini, prioritet istiqamətlərini və uzunmüddətli hədəflərini müəyyənləşdirərək münasibətlərin institusional əsaslarını daha da möhkəmləndirib.

Azərbaycan və ABŞ arasında əməkdaşlığın əsas istiqamətlərindən biri enerji sektorudur. ABŞ şirkətləri hələ 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" çərçivəsində Azərbaycanın enerji layihələrində iştirak ediblər. Hazırda Azərbaycanın neft-qaz sektorunda fəaliyyət göstərən və ya layihələrdə pay sahibi olan əsas ABŞ şirkəti ExxonMobildır. Şirkət həm "Azəri-Çıraq-Günəşli" layihəsində, həm də Bakı-Tbilisi-Ceyhan layihəsində iştirak edir.

Vaşinqton Azərbaycanın həyata keçirdiyi neft-qaz diplomatiyasını ardıcıl şəkildə dəstəkləyərək Xəzər hövzəsinin enerji resurslarının qlobal bazarlara çıxarılmasına xidmət edən Bakı-Tbilisi-Ceyhan neft kəməri və Cənub Qaz Dəhlizi kimi strateji layihələrin təşviqində mühüm rol oynayıb. Bu layihələr Avropanın enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə əhəmiyyətli töhfə verib.

Qeyd edək ki, 1 iyundan etibarən start götürən "Bakı Enerji Həftəsi"nə ABŞ tərəfindən də xüsusi maraq nümayiş etdirilir. ABŞ Prezidenti Donald Trampın tədbir iştirakçılarına ünvanladığı məktub, eləcə də ABŞ Dövlət katibinin iqtisadiyyat, enerji və biznes məsələləri üzrə köməkçisi Kaleb Orrun Bakı Enerji Həftəsi çərçivəsində keçirilən sərgilərin və "Baku Energy Forum"un rəsmi açılış mərasimində iştirakı bunun əyani göstəricisidir. ABŞ rəsmisinin Prezident İlham Əliyev tərəfindən qəbul edilməsi də Vaşinqtonun Azərbaycanla enerji və iqtisadi əməkdaşlığın inkişafına verdiyi önəmi bir daha nümayiş etdirir.

ABŞ-ın tədbirə göstərdiyi diqqət, eyni zamanda, konkret iqtisadi nəticələrlə müşayiət olunur. "Bakı Enerji Həftəsi" və 1-ci Azərbaycan–ABŞ İqtisadi Dialoqu çərçivəsində Azərbaycanın Respublikasının İqtisadiyyat Nazirliyi və SOCAR tərəfindən ABŞ, Türkiyə, Serbiya, San-Marino və Fransa kimi müxtəlif ölkələrin qabaqcıl şirkət və qurumları ilə iqtisadiyyat, enerji, investisiya və rəqəmsal texnologiyalar sahələrini əhatə edən, ümumi maliyyə dəyəri 7,5 milyard dollar olan bir sıra mühüm saziş və memorandumlar imzalanıb. İmzalanan bu müqavilələr ABŞ-Azərbaycan münasibətlərinin ənənəvi enerji tərəfdaşlığından strateji, şaxələndirilmiş və yüksək texnoloji iqtisadi müttəfiqliyə keçdiyini göstərir.

1-ci Azərbaycan–ABŞ İqtisadi Dialoqunun protokolu və ümumi 7,5 milyard dollarlıq portfel iki ölkə arasındakı iqtisadi münasibətlərin artıq daha sistemli, yüksəksəviyyəli və rəsmi bir platformaya (institusional müstəviyə) daşındığının sübutudur. Bu razılaşmalar, həmçinin dünyanın ən böyük maliyyə, investisiya korporasiyalarının ("JP Morgan", "Apollo Global Management"), energetika nəhənglərinin ("Chevron", "Comstock Resources") SOCAR-la və TANAP layihəsi ilə irimiqyaslı maliyyə sazişləri imzalaması, ABŞ biznesinin Azərbaycan iqtisadiyyatının sabitliyinə və uzunmüddətli kapital potensialına olan güclü etimadını əks etdirir.

Bu sənədlərdən biri "Kritik minerallarin və nadir torpaq elementlərinin hasilatı və emalında təchizatın təmin edilməsi" adlı Azərbaycan və ABŞ arasında imzalanan çərçivə sənədidir. Sənədi Azərbaycan tərəfindən iqtisadiyyat naziri Mikayıl Cabbarov, ABŞ tərəfindən isə ABŞ Dövlət katibinin iqtisadi, enerji və biznes məsələləri üzrə köməkçisi Kaleb Orr imzalayıb.

"Bakı Enerji Həftəsi" çərçivəsində, Strateji Tərəfdaşlıq Xartiyasına uyğun olaraq, ilk Azərbaycan-ABŞ İqtisadi Dialoqunun keçirilməsi iki ölkə münasibətləri baxımından tarixi hadisə iki hadisə kimi dəyərləndirmək olar. Tədbirdə regional əlaqə, ticarət, sənaye, investisiya, enerji təhlükəsizliyi, tranzit, süni intellekt və rəqəmsal infrastruktur sahələrində əməkdaşlıq perspektivləri müzakirə olunub. Hər iki ölkənin biznes nümayəndələrinin iştirakı ilə xüsusi sessiyalar keçirilib və bir sıra əməkdaşlıq sənədlərinin imzalanıb.

Əslində, dialoq çərçivəsində müzakirə olunan istiqamətlər Azərbaycan-ABŞ iqtisadi əməkdaşlığının mövcud prioritetlərini və gələcək inkişaf perspektivlərini də əks etdirir. Azərbaycan-ABŞ iqtisadi əməkdaşlığının əsas istiqamətlərini enerji sektoru ilə yanaşı, nəqliyyat-logistika, ticarət və investisiyalar, rəqəmsal texnologiyalar, eləcə də regional bağlantı layihələri təşkil edir. Tərəflər qarşılıqlı investisiyaların artırılmasını, biznes mühitinin daha da yaxşılaşdırılmasını və ABŞ şirkətlərinin Azərbaycandakı fəaliyyətinin genişləndirilməsini prioritet hesab edirlər.

Strateji Tərəfdaşlıq Xartiyasında da ticarət dövriyyəsinin və investisiya axınlarının artırılması xüsusi yer tutur. Bununla yanaşı, Azərbaycan ABŞ tərəfindən regionun mühüm tranzit və logistika mərkəzlərindən biri kimi qiymətləndirilir. Əməkdaşlıq xüsusilə Orta Dəhlizin inkişafı, regional bağlantıların gücləndirilməsi, tranzit marşrutlarının genişləndirilməsi və logistika infrastrukturunun modernləşdirilməsi istiqamətlərini əhatə edir.

Son illərdə ikitərəfli əməkdaşlığın yeni istiqamətlərindən biri də rəqəmsal iqtisadiyyat sahəsidir. ABŞ texnologiyalarının, innovativ həllərin, məlumat mərkəzlərinin və süni intellekt layihələrinin Azərbaycana cəlb olunması prioritet məsələlər sırasındadır. Eyni zamanda, yeni əməkdaşlıq gündəliyində kritik mineralların daşınması, enerji və nəqliyyat dəhlizlərinin inkişafı, həmçinin regionun qlobal təchizat zəncirlərinə inteqrasiyası mühüm yer tutur.

Tramp administrasiyasının Cənubi Qafqazla bağlı irəli sürdüyü mühüm təşəbbüslərdən biri Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu (TRIPP) layihəsidir. Layihə Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında əlaqələrin genişlənməsinə xidmət etməklə yanaşı, Azərbaycan, Ermənistan və digər regional marşrutlar vasitəsilə Asiya ilə Avropanı birləşdirən etibarlı və təhlükəsiz nəqliyyat şəbəkəsinin formalaşmasına töhfə verməyi hədəfləyir. Bu baxımdan TRIPP layihəsi regionda iqtisadi əməkdaşlığın dərinləşməsinə, uzunmüddətli sülhün möhkəmlənməsinə xidmət edən mühüm təşəbbüs kimi qiymətləndirilə bilər.

***Musa BAĞIRLI***
***XQ***

# Azərbaycanın Baş nazirinin Ukrayna Baş nazirinin I müavini ilə görüşü



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyunun 2-də Ukrayna Baş nazirinin I müavini və energetika naziri Denis Şmıqal ilə görüşüb.**

Görüşdə "Bakı Enerji Həftəsi" çərçivəsində keçirilən tədbirlərin əhəmiyyəti vurğulanıb. Bakı şəhərinin yenidən qlobal enerji dialoqunun əsas mərkəzlərindən birinə çevrildiyi bildirilərək sözügedən platformanın enerji təhlükəsizliyi, yaşıl keçid və dayanıqlı inkişaf məsələləri üzrə beynəlxalq əməkdaşlığın inkişafına mühüm töhfə verdiyi diqqətə çatdırılıb.

Azərbaycan ilə Ukrayna arasında ikitərəfli əməkdaşlığın mövcud vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılaraq, iqtisadiyyat, ticarət, enerji, humanitar və qarşılıqlı maraq doğuran digər sahələrdə əlaqələrin genişləndirilməsi imkanları müzakirə olunub.

Söhbət zamanı Azərbaycan tərəfindən Ukraynaya göstərilən humanitar dəstəyin əhəmiyyəti vurğulanıb, ölkəmizin Ukrayna xalqına göndərdiyi humanitar yardımlara və mülki infrastrukturun bərpasına verdiyi töhfəyə görə minnətdarlıq ifadə olunub.

*XQ*

# Milli Məclisin Sədri beynəlxalq konfransda

**Milli Məclisin Sədri Sahibə Qafarova iyunun 2-də Serbiyanın paytaxtı Belqradda keçirilən Parlamentlərarası İttifaqın Qadın Parlamentarilərin Qlobal Konfransında çıxış edib.**




S.Qafarova "Paritetə doğru irəliləyiş: Gender stereotipləri və mənfi sosial normaların yaratdığı maneələrin aradan qaldırılması" mövzusunda çıxışında belə tədbirlərin beynəlxalq əməkdaşlığın vacibliyini – fikir mübadiləsinin və qabaqcıl təcrübələrin paylaşılmasının əhəmiyyətini aydın şəkildə nümayiş etdirdiyini vurğulayaraq, bu gün müzakirə olunan problemlərin yalnız bir ölkə və ya regionla məhdudlaşmadığını qeyd edib.

O, bu gün bir sıra mühüm nailiyyətlərin əldə edildiyini, lakin hələ də aradan qaldırılması vacib problemlərin mövcud olduğunu bildirib. Milli Məclis Sədrinin sözlərinə görə, bu problemlərin ən çətini isə qadınların şəxsi inkişafını məhdudlaşdıran stereotiplər və sosial normalardır.

"Parlament üzvləri olaraq biz qanunvericiliyi ən mühüm alət kimi qəbul edirik. Çünki qanunvericilik zəruri normativ-hüquqi çərçivələri müəyyən edir. Lakin biz, eyni zamanda, anlayırıq ki, təkcə qanunvericilik arzu olunan nəticələri təmin edə bilməz. Bunun üçün bütün cəmiyyəti əhatə edən yanaşmaya əsaslanan daha sistemli və hərtərəfli münasibətə ehtiyac var", - deyə S.Qafarova bildirib.

O, Azərbaycanda gender bərabərliyi və qadınların həyatın bütün sahələrində təmsilçiliyinin artırılması istiqamətində görülən işlər barədə məlumat verib. Onun sözlərinə görə, bu gün cəmiyyətimizdə gender bərabərliyi ilə bağlı mövcud təsəvvürlər, əslində, çox əvvəllər formalaşmış milli ənənələrimizi əks etdirir. Belə ki, Azərbaycan qadınları tarixən cəmiyyətin bərabərhüquqlu tərəfdaşları kimi qəbul olunub və onun inkişafına həlledici təsir göstəriblər.

Milli Məclisin Sədri vurğulayıb ki, Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə məişət zorakılığı ilə mübarizə aparılması, ayrı-seçkiliyin aradan qaldırılması, qadınların təhsil və məşğulluq imkanlarının genişləndirilməsi, eləcə də onların səlahiyyətləndirilməsinin təşviq edilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilib. Prezidentin imzaladığı sərəncamlar, milli fəaliyyət planları və dövlət proqramları qadınların səlahiyyətləndirilməsi sahəsində irəliləyişlərə səbəb olan kompleks və hərtərəfli yanaşmanın formalaşdırılmasını təmin edib.

Milli Məclisin Sədri çıxışının sonunda bir daha qeyd edib ki, dünyadakı mövcud vəziyyət dərin kök salmış stereotiplərin və mənfi sosial normaların aradan qaldırılması istiqamətində ardıcıl tədbirlərin davam etdirilməsinin vacibliyini göstərir. Qanunvericilik bazasının və institusional mexanizmlərin daha da gücləndirilməsi, eyni zamanda, cəmiyyətin maarifləndirilməsi xüsusi əhəmiyyət kəsb edir.

*XQ*

# Azərbaycan və Kanada XİN rəhbərlərinin telefon danışığı

**İyunun 2-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Kanadanın xarici işlər naziri Anita Anand arasında telefon danışığı aparılıb.**

Telefon danışığı zamanı nazirlər Azərbaycan-Kanada münasibətlərinin mövcud vəziyyəti və inkişaf perspektivləri, habelə qarşılıqlı maraq doğuran regional məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

Nazir Anita Anand Azərbaycanın müstəqilliyinin 108-ci ildönümü münasibətilə təbriklərini çatdıraraq, Kanada tərəfinin Azərbaycan ilə münasibətlərin daha da inkişaf etdirilməsində maraqlı olduğunu vurğulayıb.

Nazir Ceyhun Bayramov təbrikə görə təşəkkürünü bildirərək, iki ölkə arasında siyasi dialoqun və müxtəlif sahələr üzrə əməkdaşlığın genişləndirilməsi üçün mövcud potensialı qeyd edib.

Telefon danışığı zamanı yaşıl keçid, bərpaolunan enerji, informasiya-kommunikasiya texnologiyaları, enerji təhlükəsizliyi və digər qarşılıqlı maraq doğuran istiqamətlərdə əməkdaşlığın inkişaf etdirilməsi imkanlarının nəzərdən keçirilməsinin əhəmiyyəti vurğulanıb.

Bununla yanaşı, regionda mövcud vəziyyət, münaqişədənsonrakı dövrün reallıqları, eləcə də Azərbaycan-Ermənistan normallaşma və sülh prosesi müzakirə olunub. Nazir Ceyhun Bayramov keçmiş münaqişənin tarixi, Azərbaycanın üzləşdiyi işğal və onun nəticələri barədə məlumat verib, hazırda regionda davamlı sülh və sabitliyin təmin olunması istiqamətində həyata keçirilən səylərdən bəhs edib.




Telefon danışığı zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

*XQ*

# Soydaşlarımız Minskdə Qələbə abidəsini ziyarət ediblər

**Belarus–Azərbaycan Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq üzrə Komissiyasının 16-cı iclasında iştirak etmək məqsədilə Belarus Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikası Baş nazirinin müavini Samir Şərifovun rəhbərlik etdiyi nümayəndə heyəti Minsk şəhərindəki Qələbə meydanına gələrək Qələbə abidəsini ziyarət edib.**



Mərasim zamanı Baş nazirin müavini və nümayəndə heyətinin üzvləri İkinci Dünya müharibəsi illərində faşizm üzərində qələbə uğrunda canlarından keçmiş qəhrəmanların əziz xatirəsini dərin ehtiramla yad edib, abidənin önünə əklil qoyublar.

Daha sonra nümayəndə heyəti Əbədi məşəlin önünə tər çiçəklər düzərək, həlak olanların xatirəsinə sükutla hörmətini bildirib.

*XQ*

# Beynəlxalq Prokurorlar Assosiasiyasının nümayəndə heyəti Azərbaycanda



**Baş prokuror Kamran Əliyevin dəvəti ilə dünya prokurorlarının ilk və yeganə qlobal təşkilatı olan Beynəlxalq Prokurorlar Assosiasiyasının yeni fəaliyyətə başlamış Baş müşaviri, Birləşmiş Krallığın Dövlət Prokurorluq Xidmətinin idarə rəisi xanım Tarika Jayaratnenin rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə işgüzar səfərə gəlib.**

Qonaqları qəbul edən Baş prokuror qeyd edib ki, ölkə Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq prokurorluq orqanları tərəfindən beynəlxalq tərəfdaşlarla əməkdaşlıq əlaqələrinin gücləndirilməsi xüsusi diqqətdə saxlanılır. Bu kontekstdə Assosiasiya ilə ölkəmizin prokurorluq orqanları arasında uzunmüddətli, geniş və faydalı əməkdaşlıq əlaqələri formalaşıb, təsis edildiyi gündən Azərbaycan Respublikası Prokurorluğu qurumun fəaliyyətinə mühüm töhfələr verib.

Görüş zamanı qonaqlara son dövrlərdə milli prokurorluq orqanlarında həyata keçirilmiş islahatlar, tətbiq edilən yeni hüquq institutları və yanaşmalar barədə məlumat verilib.

Səmimi qəbula görə minnətdarlıq ifadə edən qonaqlar Azərbaycan Prokurorluğunun qurumun fəaliyyətində aktiv roluna və verdiyi töhfələrinə görə təşəkkürünü bildirmiş, uzun illərdir davam edən sıx və uğurlu əməkdaşlıqdan məmnuniyyət ifadə edilib.

*XQ*

# Fövqəladə hallar nazirinin vətəndaş qəbulu



**Fövqəladə hallar naziri Kəmaləddin Heydərov iyunun 2-də Xırdalanda, Abşeron Rayon Dövlət Yanğından Mühafizə Hissəsinin inzibati binasında Abşeron və Zəngilan rayonlarının sakinləri ilə görüşüb.**

K.Heydərov xalqımızın ümummilli lideri Heydər Əliyevin Xırdalan şəhərindəki abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub, əziz xatirəsini dərin ehtiramla yad edib.

Sonra fövqəladə hallar naziri tərəfindən qəbul edilən Abşeron və Zəngilan rayonları sakinlərinin müraciətlərinin əksəriyyəti yerindəcə öz həllini tapıb, bir sıra məsələlərlə bağlı qanunvericiliyə uyğun dərhal zəruri tədbirlərin görülməsi barədə nazirliyin aidiyyəti strukturlarının rəhbərlərinə tapşırıqlar verilib.

Qəbula gələn vətəndaşlar onların müraciətlərinə yerində və operativ yanaşılması üçün yaradılan şəraitə görə Prezident İlham Əliyevə minnətdarlıq ediblər.

***"Bakı Enerji Həftəsi"***

# AÇG yatağından 4,6 milyard barel neft hasil edilib

**"Azəri-Çıraq-Günəşli" dünyanın ən böyük və ən möhtəşəm neft yataqlarından biridir. Hasilata başlanıldığı vaxtdan indiyədək buradan 4,6 milyard bareldən artıq neft hasil edilib. Bu fikirləri bp-nin hasilat və əməliyyatlar üzrə icraçı vitse-prezidenti Qordon Birrel dünən Bakı Enerji Forumu çərçivəsində təşkil olunan brifinq zamanı səsləndirdi.**

Bu nəticəyə nail olmaq üçün ən müasir texnologiyalardan və innovativ yanaşmalardan istifadə edildiyini diqqətə çatdıran vitse-prezidentin sözlərinə görə, AÇG yataqlar blokunun işlənməsi çərçivəsində sənayedə mövcud olan bütün qabaqcıl imkanlardan istifadə olunub. "Bu gün bizim üçün sevindirici haldır ki, neftlə yanaşı, yataqda sərbəst təbii qaz ehtiyatları da aşkar edilib. SOCAR və Azərbaycan hökuməti ilə əldə olunmuş razılaşmalara əsasən, həmin qazın işlənməsi və hasilatı məhz bizim tərəfimizdən həyata keçiriləcək".

Aşkar olunmuş qaz ehtiyatlarının həm hazırda hasilat aparılan neft laylarında, həm onların üst qatlarında, həm də alt qatlarında yerləşdiyini diqqətə çatdıran Qordon Birrel bildirdi ki, ümumilikdə, bu ehtiyatlar AÇG-nin müxtəlif zonalarında, xüsusilə "Azəri" və "Günəşli" sahələrində mövcuddur. "Bununla belə, qaz layları ilə bağlı hələ də qeyri-müəyyənliklər qalır. Qazın hansı sahələrdə yerləşdiyi, həcminin nə qədər olduğu və ümumi ehtiyatların miqyası barədə tam dəqiq məlumatlar hələlik mövcud deyil. Məhz buna görə ilk kəşfiyyat quyusunun qazılmasında məqsəd bizə lazım olan dinamik məlumatları əldə etməkdir. Bu məlumatlar qeyri-müəyyənlikləri azaltmağa və ehtiyatları daha dəqiq qiymətləndirməyə imkan verəcək".

Qeyd olundu ki, hazırkı hesablamalara görə, təkcə "Dərinsulu Günəşli" sahəsində qaz ehtiyatları, təxminən, 4-6 trilyon kub fut səviyyəsində qiymətləndirilir. Hazırda qazılan quyu "Günəşli" yatağının aşağı laylarında yerləşir. Tamamlama işləri artıq başlanıb. Sonrakı mərhələdə isə daha yuxarı laylara keçilməsi nəzərdə tutulur. Şirkət rəsmisi onu da bildirdi ki, burada hasil olunacaq qaz mövcud infrastruktur vasitəsilə yaxınlıqda yerləşən "Qərbi Çıraq" platformasına ötürüləcək, oradan isə Səngəçal terminalına nəql edilərək bazarlara çıxarılacaq. Bununla belə, qazın hansı konkret alıcılara satılacağını indidən deməyin çətin olduğunu vurğulayan Qordon Birrelin sözlərinə görə, bunun üçün hasilat göstəriciləri və kommersiya şərtləri tam formalaşmalıdır.

İlkin hasilat quyusunun platformaya qoşulması əməliyyatlarının yüksək peşəkarlıqla həyata keçirildiyini vurğulayan vitse-prezident komanda işini yüksək qiymətləndirdi. Diqqətə çatdırıldı ki, quyunun qazılması və platformaya birləşdirilməsi işlərini həyata keçirən komandanın 90 faizindən çoxu yerli azərbaycanlı mütəxəssislərdir. Onlar son dərəcə mürəkkəb geoloji şəraitdə çox çətin bir layihəni uğurla icra ediblər.

Brifinqdə iştirak edən bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Cio Kristofoli bildirdi ki, təmsil etdiyi şirkət "Azəri-Çıraq-Günəşli" yatağında sərbəst təbii qazının hasilatı layihəsi çərçivəsində müəyyən olunan əlavə neft halqasınnın öyrənilməsi üçün quyu qazır. Onun sözlərinə görə, həmin quyu aşkar olunan neft halqası barədə, həcmləri və imkanları haqqında məlumat toplamağa, eləcə də burada hasilata imkan yaradacaq. Yeni quyudan hasilata isə bu ilin sentyabrında başlanılması planlaşdırılır.

Azərbaycan neftinin Qara dənizin Supsa limanına nəqli üçün inşa olunmuş Qərb ixrac boru kəmərinin hazırda işlək vəziyyətdə olduğunu diqqətə çatdıran Cio Kristofoli qeyd etdi ki, ehtiyac yaranacağı təqdirdə, onun fəaliyyəti bərpa oluna bilər. Boru kəmərinin gələcək fəaliyyətinin isə mövcud müqavilələr və tərəfdaşlar arasında əldə olunmuş razılaşmalar əsasında müəyyən ediləcəyini bildirən şirkət rəsmisinin sözlərinə görə, bu məsələlər operatorların və kəmər sahiblərinin səlahiyyətinə daxildir: "Bizim mövqeyimiz ondan ibarətdir ki, qüvvədə olan müqavilələrdən irəli gələn öhdəliklər yerinə yetirilməlidir. Boru kəməri ilə bağlı qərarlar da həmin müqavilə şərtlərinə uyğun şəkildə qəbul edilir". Qeyd olundu ki, iyunun 8-də Bakı-Supsa neft kəmərinin Azərbaycan hissəsi üzrə operatorluq Azərbaycan, Gürcüstan hissəsi isə Gürcüstan hökumətinə təhvil veriləcək.

Brifinqdə "Qarabağ" yatağı, eləcə də "Əşrəfi", "Dan ulduzu" və "Aypara" perspektivli strukturunun işlənməsi, "Şahdəniz kompressiya stansiyası" layihəsinin icra vəziyyəti, Səngəçal terminalının və "Şahdəniz" platformalarının elektrikləşdirilməsi, şirkətin ölkəmizdə həyata keçirdiyi layihələr üzrə emissiyaların azaldılması və digər məsələlər barədə də media nümayəndələrinin maraqlandıran məsələlərə aydınlıq gətirildi.

***M.YAQUBZADƏ***
***XQ***

# Orta Dəhliz və Azərbaycanın yeni iqtisadi hədəfləri

## *Tarixi ticarət yollarının bərpası ölkəmizi qlobal logistikanın ön xəttinə çıxarıb*

**Qərb və Şərq arasında ticarət əlaqələrinin inkişafında Azərbaycan tarixən mühüm rol oynamışdır. Qlobal proseslərin inkişafı ölkəmizin beynəlxalq nəqliyyat dəhlizlərində müasir rolunu və əhəmiyyətini aktuallaşdırır. İqtisadi-siyasi mühit, əlverişli geoiqtisadi mövqe və infrastruktur inkişaf planları Azərbaycanın təkcə tranzit ölkə kimi deyil, regional əməkdaşlıq proseslərinin mərkəzi dövləti statusunu daha da yüksəldir.**




İpək yolu əsrlər boyu mühüm ticarət karvanı yolu kimi xidmət etmiş və öz dövrünün ən qiymətli və faydalı mallarının mübadiləsinə xidmət göstərmişdir. Azərbaycan öz ərazisi ilə İpək Yolunun nəinki iqtisadi faydalarını təmin etmiş, həm də müxtəlif sivilizasiyaları əhatə edən mədəni mübadilələri asanlaşdırmışdır. Nəticədə ticarət mallarının qərbə daşınmasını təmin etməklə uzaq torpaqlar arasında həyati bir əlaqə rolunu oynamışdır.

Tarixi ticarət yollarının bərpası müasir dövrdə yeni münasibətlər sahəsini formalaşdırmışdır. Müasir təşəbbüslərdə beynəlxalq ticarət və infrastrukturun inkişafı arasındakı vacib əlaqənin əhəmiyyəti nəzərə alınır və qlobal iqtisadi inteqrasiyanın təməl sütunlarından birini təşkil edir. Azərbaycan ərazisindən keçən dəhliz şəbəkələri yalnız malların və ideyaların transsərhəd hərəkətini asanlaşdırmayıb, həm də dəhlizlərin keçdikləri bölgələrin geosiyasi mənzərəsini formalaşdırıb.

Bu məqalədə məqsədimiz dəhlizlərin və infrasruktur şəbəkələrin inkişaf proseslərinə nəzər salmaq, onların tarixi əhəmiyyətini və Azərbaycan iqtisadiyyatına təsirlərini, eləcə də logistik və infrastruktur xüsusiyyətlərini və coğrafi kontekstlərini vurğulamaqla beynəlxalq dəhlizlərin iqtisadi inkişafa çoxşaxəli təsirini qiymətləndirməkdir.

Azərbaycan regionda fəaliyyət göstərən nəqliyyat və logistika infrastrukturlarını hərəkətə gətirən investisiyaların və eyni zamanda bir sıra prioritet layihələrin reallaşdırıldığı mərkəzə çevrilməkdədir.

Orta Dəhliz, Şimal-Cənub dəhlizləri ilə yanaşı, Zəngəzur dəhlizi də yeni təşəbbüs kimi inkişaf etdirilir. Qarabağın azad olunması nəticəsində meydana gələn bu dəhliz ideyası təkcə Azərbaycan və Ermənistan üçün deyil, həmçinin bütün Xəzər regionu üçün çox vacibdir. Təsadüfi deyil ki, ölkə başçısı Zəngəzur dəhlizinin bütün Türk dünyası üçün əhəmiyyəti və perspektivləri üzərində dayanaraq, öz çıxışlarında bu dəhlizin həyata keçirilməsinin zəruriliyini daim qeyd edir. Həm Azərbaycanın əsas hissəsinin onun Naxçıvan Muxtar Respublikası ilə birləşdirilməsi təmin olunur, həmçinin beynəlxalq tranzit dəhlizlərin əhəmiyyətli hissəsinə çevrilir.

Azərbaycanın nəqliyyat və logistika infrastrukturuna çox fəal sərmayə qoyuluşlarının əsas səbəblərindən biri məhz belə bir strateji effektin əldə edilməsidir. Rəsmi statistik məlumatlara əsasən, son illər milyardlarla dollar sərmayə qoyuluşları həyata keçirilmiş, Xəzər dənizində ən böyük beynəlxalq ticarət limanı tikilmişdir. Onun yükqaldırma qabiliyyətinin artırılması və 25 milyon tona çatdırılması nəzərdə tutulur.

Ölkəmizin regional nəqliyyat siyasətinin ən vacib istiqamətlərindən biri də Gürcüstandan keçməklə Azərbaycanı Türkiyə ilə birləşdirən dəmir yolu xəttinin çəkilməsi olmuşdur. Bakı-Tbilisi-Qars yeni dəmir yolu xətti üzrə beynəlxalq layihənin həyata keçirilməsi Trans-Avropa və Trans-Asiya dəmir yolu şəbəkələrinin birləşdirilməsini təmin etməklə region ölkələrinin tranzit potensialının artmasına imkan yaradır.

Azərbaycan Avropa Qonşuluq siyasəti çərçivəsində əməkdaşlığın inkişafına, habelə ölkəmizin xarici iqtisadi əlaqələrinin genişlənməsinə töhvə vermiş olur. Azərbaycanın təşəbbüsləri sayəsində Avropa və Asiya ölkələrinə məxsus yüklərin bu dəmir yoluna cəlb edilməsi perspektivdə intermodal və konteyner daşımalarının həcmini daha da artıracaq.

Azərbaycan Respublikası Prezidentinin 21 fevral 2007-ci il tarixli 1974 nömrəli sərəncamına uyğun olaraq, “Bakı-Tbilisi-Qars yeni dəmir yolu” layihəsinin maliyyələşdirilməsini Dövlət Neft Fondu həyata keçirmişdir. Qars-Axalkalaki dəmir yolu layihəsinin Gürcüstan ərazisinə düşən hissəsinin tikintisi, habelə Axalkalaki-Marabda dəmir yolu xəttinin reabilitasiya-rekonstruksiyasının maliyyələşdirilməsinə Azərbaycan Respublikası tərəfindən 775 milyon ABŞ dolları həcmində kredit vəsaiti ayrılmışdır.

Azərbaycan təkcə Cənubi Qafqaz və Xəzər bölgəsi üçün deyil, Avropa və Mərkəzi Asiya arasında da bir körpü ola bilər. Azərbaycan Prezidenti İlham Əliyevin III Şuşa Qlobal Media Forumunda iştirakçılarla görüşü zamanı (iyul 2025) nəqliyyat-logistika sahəsinin inkişafı və strateji hədəflərlə bağlı dediyi çox əhəmiyyətli fikirlərə nəzər salmaq olar: “Burada söhbət təkcə tranzitdən getmir. Biz dəhlizlər, dəmir yolları haqqında danışanda tranzit və tranzit ödəmələri haqqında danışdığımız düşünülə bilər. Tranzit ödəmələri, əlbəttə ki, vacibdir, o, ölkəni gücləndirə bilər. Ancaq əsas məsələ tranzit marşrutu boyu infrastrukturun və sahələrin yaradılmasıdır ki, o sahələr əlavə sərmayə cəlb edə bilər.

Bu səbəbdən də bir neçə əsas şərtin təmin edilməsi vacibdir. Bunun biri sabitlik və təhlükəsizlikdir. Bu gün regionumuz, Mərkəzi Asiya regionu, Cənubi Qafqaz, ondan Şərqdə və Qərbdə yerləşən ölkələr sabit dövlətlərdir. Xüsusilə də Qarabağ münaqişəsi başa çatandan sonra sabitlik, təhlükəsizlik və inkişaf üçün perspektivlər daha aydın və genişdir. Yəni bu, bağlılıq layihələrinin təşviqi baxımından mühüm amildir. İkinci amil qonşularla xoş münasibətlərdir. Bu olmadığı təqdirdə ölkə tranzit ölkə ola bilməz və biz burada qonşularımızla deyil, qonşularımızın qonşuları ilə də yaxşı münasibətlərə malik olmalıyıq”.

Orta Dəhliz, dünya iqtisadiyyatının artan qeyri-müəyyənlikləri, beynəlxalq logistika xidmətləri bazarının konyunktur problemləri, habelə Rusiya ilə Ukrayna arasında hərbi əməliyyatların kəskinləşməsi nəticəsində diqqəti daha çox cəlb edən beynəlxalq dəhliz konsepsiyasıdır. Bu lahiyə Çini Avropa ilə birləşdirən multimodal nəqliyyat dəhlizidir. Avropa ilə Asiya arasında ticarət yolu olan Orta Dəhliz, Şimal Dəhlizindən daha sürətli, daha qənaətcil, daha təhlükəsiz, 2000 km qısa və iqlim şəraiti baxımından daha əlverişlidir. Beynəlxalq ticarətdə ən başlıca üstünlüklərindən birini Çin ilə Avropa arasında nəqliyyat müddətini 18 günə qədər azaltması təşkil edir.

Orta Dəhliz Azərbaycan, Qazaxıstan, Türkiyə, Gürcüstan və Özbəkistan arasında infrastrukturun və inteqrasiyanın inkişafı üçün vahid strategiya kimi inkişaf etdirilir. Dünya Bankı hesabatlarında Avropa və Asiyanı birləşdirən ticarət dəhlizləri arasında əhəmiyyətini və rolunu aşağıdakı şəkildə nəzərdən keçirir. Orta Dəhlizin Avropa və Asiyanı birləşdirən ticarət dəhlizləri arasında aşağıdakı mühüm geoiqtisadi əhəmiyyətinə və coğrafi üstünlüklərinə diqqət yetirilir.

Dəhliz boyu daşımaların müddətinə görə layihənin əhəmiyyəti dəniz marşrutu ilə müqayisə edilə bilər. Nəticədə, bu dəhliz uzun məsafəli ticarət üçün daha mühüm prioritet təşkil etmişdir.

### Dövlətin nəqliyyat və logistika siyasətinin hədəfləri

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə “Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi” təsdiq edilmişdir. Nəqliyyat və logistika sahəsində mühüm dövlət əhəmiyyətli sənəd olaraq, Strateji Yol Xəritəsi logistika və ticarət əlaqələrinin inkişafı üzrə Azərbaycanın 2020-ci ilədək, 2025-ci ilədək və 2025-ci ildən sonrakı dövr üçün qısa, orta və uzunmüddətli perspektiv istiqamətlərini müəyyən etmişdir. Artıq ötən dövrlərdən bu günədək dövlət sənədinin nəzərdə tutduğu tədbirlər həyata keçirilmişdir. Xəzər regionu hövzəsində beynəlxalq yükdaşımaların davamlı inkişafı üzrə inkişaf perspektivlərini özündə əks etdirən strateji məqsəd və hədəflərlə yanaşı, həmin məqsəd və hədəflərə nail olmaq üçün strateji prioritetlər göstərilmiş və müvafiq tədbirlər planı hazırlanmışdır.

**İqtisadi artımın təmin olunmasına və yeni iş yerlərinin yaradılmasına şərait yaradan aşağıdakı prioritetlər nəzərdə tutulmuşdur:**

*– Azərbaycanın regional əhəmiyyətli logistika və ticarət qovşağı kimi aparıcı mövqeyinin gücləndirilməsi;*

*– Ələt qəsəbəsində yerləşən yeni Bakı Limanı kompleksi, Bakı-Tbilisi-Qars dəmir yolu və Astara-Astara dəmir yolu layihələrinin tamamlanması;*

*– logistika sahəsində əməliyyatların təkmilləşdirilməsi;*

*– Bakının regional əhəmiyyətli ticarət qovşağına çevrilməsi;*

*– Bakıda və ölkənin müxtəlif yerlərində logistika və ticarət mərkəzlərinin yaradılması;*

*– logistika sahəsində özəl sektorun iştirak səviyyəsinin yüksəldilməsi.*

Avropa və Asiya arasında Azərbaycanın bir neçə nəqliyyat dəhlizinin üzərində yerləşməsi onun beynəlxalq yükdaşımalar sahəsində strateji rolunu xüsusilə artırır. Şərq-Qərb, Şimal-Cənub, Şimal-Qərb, Cənub-Qərb dəhlizləri və gələcəkdə Zəngəzur dəhlizi Azərbaycanın əməkdaşlıq münasibətlərinin geniş konfiqurasiyasının mühüm tərkib hissəsinə çevrilir.

Azərbaycan Respublikasının ərazisindən keçən tranzit dəhlizlərin rəqabətqabiliyyətinin və səmərəliliyinin artırılması yeni mərhələdə strateji prioritetlərdən birini təşkil edir. Azərbaycan Respublikası Prezidentinin 23 noyabr 2023-cü il tarixli Sərəncamı ilə “Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımaların təşviqinə dair 2024–2026-cı illər üçün Fəaliyyət Planı” təsdiq edilmişdir.

Azərbaycanın beynəlxalq əlaqələrinin gələcək istiqamətlərindən biri kimi beynəlxalq dəhlizlərin fəaliyyəti sahəsində mühüm dövlət tapşırıqları icra edilir.

Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsini əlaqələndirici orqanı kimi nəzərdə tutulmuşdur. Beynəlxalq ticarətdə yükdaşımaların səmərəli təşkili öz növbəsində kompleks tədqiqat vəzifələrini də qarşıya qoyur. Ölkə başçısının müvafiq sərəncamı əsasında bu tədbirlərin icrasının monitorinqi və qiymətləndirilməsi Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirir.

### Orta Dəhliz regional əməkdaşlıq meydanını genişləndirir

Dünya Bankının məlumatlarına əsasən, Orta Dəhliz üzrə tövsiyələrə və işlərin icrasına əməl olunarsa, 2030-cu ildə gözlənilən vaxt bölgüsü (günlərlə) əhəmiyyətli dərəcədə azalacaq.

**Dünya Bankının “Orta Ticarət və Nəqliyyat Dəhlizi: 2030-cu ilə qədər yük daşımalarının həcmini üç dəfə artırmaq və səyahət müddətini yarıya endirmək üçün siyasətlər və investisiyalar” adlı hesabatında bu dəhlizin əhəmiyyəti ilə bağlı aşağıdakı qiymətləndirmələri qeyd edilir:**

*– Azərbaycan, Gürcüstan, Qazaxıstan və Avropa arasında artan ticarət bu dəhlizə olan tələbin əsas hərəkətverici qüvvələridir. Dünya Bankının modelləşdirməsində 2030-cu ilə qədər Azərbaycan, Gürcüstan və Qazaxıstan arasında ticarətin 37 faiz, bu ölkələrlə Aİ arasında isə 28 faiz artım proqnozlaşdırılır.*

*– Tam fəaliyyəti nəticəsində bu dəhliz Çin-Avropa ticarət və təchizat zəncirlərini şoklardan qorumağa kömək edəcək.*

*– Yaxın perspektivdə səmərəlilik artımları və ortamüddətli investisiyalar Orta Dəhlizin fəaliyyətini gücləndirəcək və regional ticarəti canlandırmaq üçün dəhlizin potensialından istifadəyə imkan verəcək. Bunun üçün koordinasiyanı, logistikanı və rəqəmsallaşmanı təkmilləşdirmək üçün addımlar atmağı tələb olunur, eyni zamanda, Azərbaycan, Gürcüstan və Qazaxıstanda dəmir yollarının, intermodal qurğuların və limanların təkmilləşdirilməsi üçün yeni investisiyalara ehtiyac var.*

Dünya iqtisadiyyatının tənzimləyici mexanizmini təşkil edən əhəmiyyətli təşkilatların biri kimi İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) Orta Dəhlizin əhəmiyyətini daim qiymətləndirir. Bu təşkilat öz hesabatlarında beynəlxalq ticarətin asanlaşdırılması, infrastruktur islahatlar, sərhəd prosedurlarının və icazə tələblərinin rəqəmsallaşdırılmasının və uyğunlaşdırılmasının inkişaf etdirilməsinə yönəlməni nəzərə alan bir sıra tövsiyələri irəli sürür.

Azərbaycanda həyata keçirilən beynəlxalq logistik layihələr, aparılan işlərin miqyası və perspektivləri bu təşkilatın müsbət qiymətləndirmələrində yer alır. Eləcə də Azərbaycanın regional inkişafa töhfəsinin rolu qeyd olunur. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının “Orta Dəhlizin potensialının reallaşdırılması” adlı 2023-cü il hesabatında Azərbaycan, Gürcüstan, Qazaxıstan və Türkiyədə ticarətin asanlaşdırılması islahatlarına baxmayaraq, marşrutun inkişafına Mərkəzi Asiyada regional yanaşmanın formalaşmasının bir sıra çətinliklərini qeyd edir.

Mərkəzi Asiyanın çətin tranzit və ticarət prosedurları sərhəd məntəqələrində tıxac yaradır və qeyri-sabit və gözlənilməz tranzit və keçid vaxtlarına səbəb olur və marşrutun cəlbediciliyini azaldır. Xüsusilə, sərhəd gömrük tutumunun çatışmazlığı və marşrut boyunca gömrük orqanları arasında çevik əməkdaşlığın olmaması da təkrarlanan yoxlamalara və gecikmələrə səbəb olur və nəqliyyat artdıqda tıxac yaradır.

Yaxın müddətli səmərəlilik artımları və orta müddətli investisiyalar Orta Dəhlizin fəaliyyətini gücləndirəcək və regional ticarəti canlandırmaq üçün potensialından istifadə edəcək. Bu, koordinasiyanı, logistikanı və rəqəmsallaşmanı təkmilləşdirmək üçün addımlar atmağı tələb edir, eyni zamanda, Azərbaycan, Gürcüstan və Qazaxıstanda dəmir yollarının, intermodal qurğuların və limanların təkmilləşdirilməsi üçün vacib investisiyalara ehtiyac var.

Müasir infrastrukturun qurulması nəticəsində Azərbaycan ərazisindən tranzit daşımaların həcmi artır. Rəqəmsallaşma prosesi nəticəsində gömrük prosedurları da sadələşdirilir.

Azərbaycan Prezidenti İlham Əliyev 2025-ci ildə Daşkənddə Mərkəzi Asiya Dövlət Başçılarının “Mərkəzi Asiya+Azərbaycan” formatında keçirilən 7-ci Məşvərət Görüşünün iclasında çıxışı zamanı Orta Dəhliz üzrə Azərbaycandan keçən yükdaşımaların 90 faiz artmasını bildirməklə Azərbaycan və Mərkəzi Asiyanın Şərqlə Qərb, Şimalla Cənub arasında birləşdirici körpü olmasını qeyd etmişdir: “Nəqliyyat və logistika infrastrukturunun müasirləşdirilməsi, gömrük prosedurlarının sinxronlaşdırılması və rəqəmsallaşdırılması üzrə birgə səylər yükdaşımaların həcminin artırılması, iqtisadi dayanıqlılığın gücləndirilməsi və beynəlxalq bazarlarda əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş imkanlar açır”.

Azərbaycan iqtisadiyyatı regionun infrastruktur cəhətdən inkişaf edən və etibarlı biznes mühitini formalaşdıran əhəmiyyətli tərəfdaş ölkə imicini qazanmışdır. Prezident İlham Əliyev öz çıxışlarında bu nəticələrin həm milli və həm də regional əhəmiyyətini xüsusilə vurğulayır. Azərbaycan iqtisadi inkişafını şaxələndirmə siyasəti əsasında davam etdirir. Neft strategiyasının uğurları yeni inkişaf strategiyasının təməlini təşkil edir.

Bu strategiyada əsas prioritet faydalı təbii resurs sahələri ilə deyil, insan kapitalının gələcək sahələri ilə müəyyən edilir. Burada xüsusilə İT, müasir rəqəmsal texnologiyalar və süni intellekt sektorunu qeyd etmək olar. Azərbaycan milli iqtisadi sahələrin inkişfında olduğu kimi, regional nəqliyyat dəhlizlərinin inkişafı sahəsində də süni intellektlə bağlı aparıcı şirkətlərlə artıq əməkdaşlığı inkişaf etdirir. Müasir dünyada regional inkişaf və regional əməkdaşlıq bağlılıq təşkil edir.

Orta Dəhliz kimi əlaqələndirici layihələr prioritetdir və logistikanın inkişafı region ölkələri üçün eyni dərəcədə əhəmiyyətlidir. Burada ölkə başçısının öz çıxışlarında vurguladığı məqamları qeyd etmək xüsusilə əhəmiyyətlidit. Yəni Azərbaycanın iqtisadi inkişaf potensialı baxımından, söhbət təkcə ölkə büdcəsinin transit gəlirlərindən getmir. Orta Dəhliz kimi strateji lahiyənin tam gücü ilə fəaliyyət göstərməsi, təkcə ölkə iqtisadiyyatını deyil, regionun biznes mühitini gücləndirə bilər.

Azərbaycanda həyata keçirilən layihələrin iqtisadi və siyasi uğurları regionda tranzit marşrutu boyu infrastrukturun və sahələrin yaradılmasına təkan verə bilər və yeni sahələrə əlavə sərmayələr cəlb edə bilər. Azərbaycan Orta Dəhlizin inkişafına tarixi əhəmiyyətli töhfə vermişdir. Bu sahədə sülh və təhlükəsizlik məsələləri kimi əsas şərtin təmin edilməsi xüsusilə vacibdir. Cənubi Qafqaz ölkələri sabit dövlətlər kimi mövqeyini inkişaf etdirməlidirlər. Xüsusilə Qarabağ münaqişəsi artıq basa çatmış, ölkəmizin tarixi qələbəsi regiona sabitlik gətirmiş, təhlükəsizlik və inkişaf üçün yeni, eyni zamanda, geniş perspektivlər açmışdır.

Orta Dəhlizin inkişafı regionda “yaşıl enerji” layihələri üzərində yeni əməkdaşlıqlara yol açır. Azərbaycanda və Mərkəzi Asiya ölkələri Günəş və külək elektrik enerjisi stansiyalarının yaradılması üçün ən perspektivli ölkələrdir. Bakıda COP29 çərçivəsində Özbəkistan, Qazaxıstan və Azərbaycan prezidentləri arasında “yaşıl enerji” ilə bağlı Xəzər dənizinin dibi ilə elektrik kabelinin çəkilməsi layihəsinin imzalanması Azərbaycanın inteqrator ölkə statusunu, yeni regional əməkdaşlıq və inkişaf mərkəzi kimi əhəmiyyətini artırır.

Orta Dəhliz Azərbaycanın iqtisadi əlaqələri üçün daha geniş coğrafiyanı əhatə etməyə imkan verir. Azərbaycan, Mərkəzi Asiya və Avropa ölkələri arasında imzalanmış beynəlxalq əməkdaşlıq sazişləri Azərbaycanın regional qovşaq kimi üstünlüklərini nümayiş etdirir. Azərbaycanın iqtisadi inkişaf modelinin formalaşmasında nəqliyyat, istehsal və rəqəmsal strategiyaların tətbiqi üçün çox böyük artım potensialından istifadə perspektivlərini şərtləndirir.

Azərbaycanın Avropa və Asiya arasında yerləşən ölkə kimi müasir meqalayihələrin həyata keçirilməsində təcrübəsi genişlənir, şaxələndirilmiş xarici siyasəti sayəsində həlledici tərəfdaş ölkə statusuna malik ölkə kimi rolu artır.

Orta Dəhliz, bəzən də Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu adlandırılan regional lahiyə haqqında dünyada geniş müzakirələr və təhlilər aparılır. Bu proseslərdə Azərbaycan əsas mövqeyə malikdir. Azərbaycanda həm də layihənin reallaşması üçün konkret işlər görülür. Eyni zamanda, Şimal-Cənub dəhlizi boyunca Azərbaycanda güclü infrastruktur yaradılıb, ən müasir tələblərə cavab verən avtomobil və dəmir yolu inşa edilib. Xüsusilə Ələtdə beynəlxalq əhəmiyyətli ticarət limanı tikilib istifadəyə verilib. Hazırda Zəngəzur dəhlizi üçün perspektiv əhəmiyyətli siyasət aparılır.

Məlum olduğu kimi, son illər Rusiyaya və İrana qarşı Avropa İttifaqı və ABŞ tərəfindən tətbiq edilən sanksiyalar və Ukrayna müharibəsinin şiddətlənməsi Avropa ilə Asiyanı əlaqələndirilməsinə təsirsiz qalmamış, beynəlxalq daşımalarda çox ciddi problemlər yaradıb. Uzun illər ərzində Çindən, Hindistandan Avropaya, eləcə də geriyə Çin istiqamətdə yükdaşımalar əsasən dəniz yolu vasitəsilə həyata keçirilir. Dünyada baş verən bir çox mürəkkəb hadisələr dəniz yollarını da iqtisadi cəhətdən səmərəsizliklərə səbəb olmuşdur.

Azərbaycanın geoiqtisadi nailiyyətləri dünya təcrübəsinə yeni imkanlar gətirmiş, Çindən İspaniyaya qədər bütün, demək olar ki, bütün dövlətlərin Orta Dəhlizə marağı sürətlə artmışdır. Bu baxımdan Azərbaycan və Mərkəzi Asiyanın regionun 5 dövləti tezliklə bu dəhlizi istismara vermək üçün bir araya gələrək, dünya iqtisadiyyatında yeni üstünlüklər qazanmış oldular.

Nəticədə, nəinki regionda çox nəhəng nəqliyyat dəhlizi yaradılmış oldu, dünyanın iqtisadi cəhətdən lider ölkələrinin transmilli şirkətləri ticarət daşımalarının vaxtını qısaltmaq və səmərəliliklərini artırmaq imkanı əldə etdilər.

Azərbaycan öz inkişaf potensialı ilə beynəlxalq dəhlizlər ticarət infrastrukturun inkişafını asanlaşdırmaqla regionda iqtisadi artım və inteqrasiya üçün həyati mərkəz rolunu oynayır. Gələcəkdə regionun potensialından tam istifadə etmək üçün ətraf mühitlə bağlı narahatlıqları, geosiyasi mürəkkəblikləri aradan qaldırmaq və bütün maraqlı tərəfdaşlar üçün logistik imkanlara bərabər çıxışı təmin etmək vacibdi.

Orta Dəhlizin inkişafı yalnız coğrafi sərhəd keçid nöqtələrini birləşdirməklə deyil, həm də inkişaf etmiş ölkələrlə dinamik qarşılıqlı əlaqələr yaratmaq, texnoloji inkişafı təşviq etmək və dəhlizlər boyunca az inkişaf etmiş əraziləri müasir infrastrukturlara inteqrasiya etməklə bağlıdır. Bu sahədə potensial imkanlardan geniş istifadə edilməsi qarşılıqlı əlaqələrin təkmilləşdirilməsinə və iqtisadi inteqrasiyaya nail olmaq üçün əhəmiyyət kəsb edir və həm iqtisadi artımı, həm də dayanıqlılığı təmin edir.

***Məhəmməd ƏLİYEV,***
***Azərbaycan Dövlət İqtisad Universiteti biznes və logistika kafedrasının müdiri, professor,***

***Müşfiq QULİYEV,***
***kafedranın professoru, iqtisad elmləri doktoru***

*Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 2 iyun tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Milli Kibertəhlükəsizlik Agentliyinin NİZAMNAMƏSİ

**1. Ümumi müddəalar**

1.1. Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin (bundan sonra – Nazirlik) tabeliyində Milli Kibertəhlükəsizlik Agentliyi (bundan sonra – Agentlik) ölkədə kibertəhlükəsizlik sahəsində tənzimləmənin və nəzarətin (kritik informasiya infrastrukturlarına, dövlət orqanlarına (qurumlarına) məxsus olan informasiya infrastrukturlarına münasibətdə yalnız məlumat mübadiləsinin) həyata keçirilməsini, həmçinin dayanıqlılığın artırılmasını, o cümlədən informasiya infrastrukturu subyektlərinin fəaliyyətinin koordinasiyasını, informasiya infrastrukturlarının kibertəhlükəsizliyinin pozulmasına yönəlmiş hərəkətləri aşkarlamaq, araşdırmaq və qarşısını almaq üçün preventiv tədbirlər görülməsini (dövlət orqanlarına (qurumlarına) məxsus olan informasiya infrastrukturları, eləcə də kritik informasiya infrastrukturları istisna olmaqla), mövcud və yarana biləcək kibertəhlükələr barədə ölkə səviyyəsində məlumatlandırmanı, əhalinin, dövlət və qeyri-dövlət qurumlarının (bundan sonra – istifadəçilər) kibertəhlükəsizlik sahəsində maarifləndirilməsini və onlara metodiki dəstək göstərilməsini təmin edən (ali kateqoriya dövlət orqanlarına, mühafizə olunan şəxslərə, qorunan və strateji obyektlərə, habelə dövlət orqanlarına (qurumlarına) məxsus olan informasiya infrastrukturlarına münasibətdə aidiyyəti səlahiyyətli orqan vasitəsilə, kritik informasiya infrastrukturunun təhlükəsizliyinə münasibətdə kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi sahəsində səlahiyyətli orqan vasitəsilə), habelə yayılması qadağan edilən informasiyanın internet informasiya ehtiyatlarında yerləşdirilməsinə qarşı tədbirlər görən və fərdi məlumatların mühafizəsi sahəsində (bundan sonra – müvafiq sahə) fəaliyyət göstərən publik hüquqi şəxsdir.

1.2. Agentlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, bu Nizamnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, həmçinin digər normativ hüquqi aktları rəhbər tutur.

1.3. Agentlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Agentlik ümumdövlət və ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olur. Agentlik bu Nizamnamədə qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər.

1.5. Agentliyin müstəqil balansı, əmlakı, xəzinə və bank hesabları, üzərində öz adı və "Azərbaycan Respublikasının Dövlət Gerbindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri həkk olunmuş möhürü, müvafiq ştampları, loqotipi (emblemi) və blankları vardır.

1.6. Qanuna uyğun olaraq, Agentliyin əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır. Agentlik məhkəmədə iddiaçı və ya cavabdeh qismində çıxış edə bilər.

1.7. Agentliyin rəsmi adı aşağıdakı kimidir:

1.7.1. tam halda – "Milli Kibertəhlükəsizlik Agentliyi" publik hüquqi şəxs, qısaldılmış halda – MKA;

1.7.2. ingilis dilində tam halda – National Cybersecurity Agency, qısaldılmış halda – NCA.

1.8. Agentlik Bakı şəhərində yerləşir.

**2. Agentliyin fəaliyyət istiqamətləri**

2.1. Agentliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. müvafiq sahədə dövlət siyasətinin formalaşmasında və həyata keçirilməsində iştirak etmək;

2.1.2. müvafiq sahədə fəaliyyətin normativ hüquqi aktlara uyğun olaraq təşkilini, əlaqələndirilməsini, tənzimləməni və qüvvədə olan normativ hüquqi aktlara əməl edilməsinə nəzarəti həyata keçirmək;

2.1.3. kibertəhlükəsizlik sahəsində informasiya infrastrukturu subyektlərinin fəaliyyətini koordinasiya (kritik informasiya infrastrukturlarına, dövlət orqanlarına (qurumlarına) məxsus olan informasiya infrastrukturlarına münasibətdə yalnız məlumat mübadiləsini) etmək;

2.1.4. ölkə üzrə informasiya infrastrukturlarının kibertəhlükəsizliyinin pozulmasına yönəldilmiş hərəkətlərin aşkarlanması, araşdırılması və qarşısının alınması üçün aidiyyəti qurumlarla birlikdə preventiv tədbirlər görmək;

2.1.5. informasiya sistemlərinin və şəbəkələrinin, kompüter avadanlıqlarının və onların proqram təminatının, lokal və korporativ informasiya sistemlərinin və ehtiyatlarının təhlükəsizliyinə qarşı yönəldilmiş kiberhücumlar, kibertəhdidlər, baş vermiş kiberinsidentlər, qanunsuz müdaxilələr, ziyanverici proqramlar (bundan sonra – kibertəhlükələr) barədə dövlət orqanlarından (qurumlarından), sahəvi kompüter insidentlərinə qarşı mübarizə mərkəzlərindən, istifadəçilərdən, proqram təminatı və texniki avadanlıqları istehsalçılarından, xarici ölkələrdəki analoji strukturlardan və digər mənbələrdən daxil olan məlumatları toplamaq və təhlil etmək (kritik informasiya infrastrukturunun təhlükəsizliyinə münasibətdə kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi sahəsində səlahiyyətli orqan vasitəsilə);

2.1.6. mövcud və yarana biləcək kibertəhlükələr barədə ölkə səviyyəsində məlumatlandırmanı həyata keçirmək, istifadəçilərin kibertəhlükəsizlik sahəsində maarifləndirilməsini və onlara metodiki dəstək göstərilməsini təmin etmək (ali kateqoriya dövlət orqanlarına, mühafizə olunan şəxslərə, qorunan və strateji obyektlərə, habelə dövlət orqanlarına (qurumlarına) məxsus olan informasiya infrastrukturlarına münasibətdə aidiyyəti səlahiyyətli orqan vasitəsilə, kritik informasiya infrastrukturunun təhlükəsizliyinə münasibətdə kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi sahəsində səlahiyyətli orqan vasitəsilə);

2.1.7. müvafiq sahə üzrə tövsiyələr vermək;

2.1.8. müvafiq sahə üzrə hazırlığı təmin etmək məqsədilə ölkədə və Azərbaycan Respublikasının hüdudlarından kənarda fəaliyyət göstərən digər aidiyyəti qurumlarla əməkdaşlıq etmək;

2.1.9. yayılması qadağan edilən informasiyanın internet informasiya ehtiyatlarında yerləşdirilməsi halları ilə bağlı qanunla müəyyən edilmiş tədbirlər görmək;

2.1.10. fərdi məlumatların qanunsuz toplanılması, işlənilməsi və mühafizəsinin təmin edilməməsi halları ilə bağlı tədbirlər görmək;

2.1.11. müvafiq sahədə fəaliyyətin təkmilləşdirilməsi, göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi, şəffaflığın artırılması, habelə innovativ ideya və layihələrin dəstəklənməsi məqsədilə aidiyyəti qurumlarla birlikdə müvafiq tədbirlər görmək;

2.1.12. müvafiq sahə üzrə dövlət–özəl tərəfdaşlığının inkişafı və təşviqi üçün tədbirlər görmək;

2.1.13. bu Nizamnamə ilə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərmək.

**3. Agentliyin vəzifələri və hüquqları**

3.1. Bu Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, Agentliyin vəzifələri aşağıdakılardır:

3.1.1. müvafiq sahədə normativ hüquqi aktların, inkişaf konsepsiyalarının və məqsədli proqramların hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

3.1.2. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə tənzimlənən və Agentliyin səlahiyyətinə aid olan məsələlər üzrə Azərbaycan Respublikasının götürdüyü öhdəliklərin yerinə yetirilməsini təmin etmək;

3.1.3. "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununda və digər normativ hüquqi aktlarda nəzərdə tutulan hallarda və qaydada hüquqmüəyyənedici sənədlər vermək;

3.1.4. müvafiq sahədə qüvvədə olan normativ hüquqi aktlara əməl edilməsinə öz səlahiyyətləri çərçivəsində nəzarəti həyata keçirmək;

3.1.5. ölkədə ümumi kibertəhlükəsizlik vəziyyətini mütəmadi təhlil etmək, kibertəhlükəsizlik sahəsində ölkədə fəaliyyət göstərən informasiya infrastrukturu subyektlərinin fəaliyyətinin koordinasiyasını (kritik informasiya infrastrukturlarına, dövlət orqanlarına (qurumlarına) məxsus olan informasiya infrastrukturlarına münasibətdə yalnız məlumat mübadiləsini) həyata keçirmək, istifadəçilərin kibertəhlükəsizlik sahəsində maarifləndirilməsini və onlara metodiki dəstək göstərilməsini təmin etmək (ali kateqoriya dövlət orqanlarına, mühafizə olunan şəxslərə, qorunan və strateji obyektlərə, habelə dövlət orqanlarına (qurumlarına) məxsus olan informasiya infrastrukturlarına münasibətdə aidiyyəti səlahiyyətli orqan vasitəsilə, kritik informasiya infrastrukturunun təhlükəsizliyinə münasibətdə kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi sahəsində səlahiyyətli orqan vasitəsilə);

3.1.6. ölkədə kibertəhlükəsizlik sahəsində koordinasiyanı (kritik informasiya infrastrukturlarına, dövlət orqanlarına (qurumlarına) məxsus olan informasiya infrastrukturlarına münasibətdə yalnız məlumat mübadiləsini) və preventiv tədbirlərin görülməsini, habelə kibertəhlükələr barədə məlumatların toplanılmasını və araşdırılmasını, eləcə də ölkə üzrə digər informasiya infrastrukturlarının kibertəhlükəsizliyinin pozulmasına yönəldilmiş hərəkətlərin aşkarlanmasını, araşdırılmasını və qarşısının alınmasını təmin edən milli kompüter insidentlərinə qarşı mübarizə mərkəzinin fəaliyyətini təşkil etmək, milli və sahəvi kompüter insidentlərinə qarşı mübarizə mərkəzləri arasında vahid məlumatlandırma mexanizmlərini müəyyən etmək;

3.1.7. aidiyyəti qurumlardan, digər ölkələrin analoji qurumlarından, beynəlxalq təşkilatlardan, habelə fiziki və hüquqi şəxslərdən baş vermiş kibertəhlükələr və kiberinsidentlər barədə məlumatlar əldə etmək, toplamaq, həmçinin məlumatların tamlığını (dəqiq, səlis, aktual və bütöv olmasını) və əlçatanlığını (müraciətin, əldə etmənin, nəzarətdə saxlamanın mümkün olması) təmin etmək üçün tədbirlər görmək;

3.1.8. ümumi internet trafikində qlobal kiberhücumların qarşısını almaq məqsədilə telekommunikasiya operatoru və provayderi ilə birlikdə Nazirliklə razılaşdırılmış qabaqlayıcı tədbirlər həyata keçirmək;

3.1.9. istifadəçilərdən, proqram təminatı və texniki avadanlıqları istehsalçılarından, yerli və xarici ölkələrin kompüter insidentlərinə qarşı mübarizə mərkəzlərindən, xarici və digər mənbələrdən kibertəhlükələr və onların qarşısının alınması üçün tətbiq edilən proqram, texniki vasitələr haqqında daxil olan məlumatları toplamaq və təhlil etmək;

3.1.10. televiziya və radio yayımlarına, peyk sistemlərinin fəaliyyətinə maneə törətməyə yönəldilmiş kibertəhlükələrin müəyyən edilməsi ilə bağlı daxil olan müraciətləri araşdırmaq və müvafiq tədbirlər görmək;

3.1.11. kibertəhlükəsizliyin təmin edilməsi sahəsində beynəlxalq təcrübənin öyrənilməsi və təhlili əsasında kibertəhlükələr, kibertəhlükəsizliyin təmin edilməsi üçün yararlı üsul və vasitələr, həmçinin açıq kodlu proqramlar barədə ölkə səviyyəsində məlumatlandırmanı (kritik informasiya infrastrukturunun təhlükəsizliyinə münasibətdə kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi sahəsində səlahiyyətli orqan vasitəsilə) həyata keçirmək, informasiya sistemlərinə və ehtiyatlarına qanunsuz müdaxilə hallarının qarşısının alınmasını təmin edən səmərəli proqramın, texniki vasitələrin seçilməsinə və tətbiqinə dair bülletenlər, tövsiyələr hazırlamaq;

3.1.12. istifadəçilərə qarşı kibertəhlükələrin qarşısının alınması, baş vermiş kiberhücumların mənbələrinin müəyyən edilməsi və müvafiq tədbirlərin həyata keçirilməsi məqsədilə onlar barədə məlumatlar toplamaq və saxlamaq, həmin məlumatların normativ hüquqi aktlarda nəzərdə tutulmuş qaydada mühafizəsini təmin etmək;

3.1.13. ölkədə istifadəçilər tərəfindən geniş istifadə olunan proqram təminatlarını və texniki avadanlıqları təhlükəsizlik baxımından təhlil etmək, onlarda aşkar olunmuş zəifliklərin aradan qaldırılması ilə bağlı tövsiyələr vermək;

3.1.14. müvafiq sahədə baş verə biləcək kibertəhlükələrdən qorunmaq üçün tətbiq edilən texnoloji yeniliklər, yeni yaranan kibertəhlükələr və onların reallaşdırılması üsullarını və vasitələrini təhlil etmək;

3.1.15. kibertəhlükəsizlik və fərdi məlumatların mühafizəsi sahələri üzrə illik statistik hesabatlar hazırlamaq və özünün rəsmi internet informasiya ehtiyatında dərc etmək;

3.1.16. baş vermiş kibertəhlükələr barədə məlumatların operativ qəbulunu təşkil etmək və müvafiq tədbirlər görmək;

3.1.17. ölkədə kibertəhlükəsizliyin səviyyəsinin artırılması məqsədilə Nazirliyə təkliflər vermək;

3.1.18. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə yayılması qadağan edilmiş informasiyanın yayılmasının monitorinqini aparmaq, nəticələrinə dair aidiyyəti dövlət orqanlarını (qurumlarını) məlumatlandırmaq;

3.1.19. kiberhücumların qarşısının alınması məqsədilə internet informasiya ehtiyatlarının (dövlət orqanlarının (qurumlarının) internet informasiya ehtiyatları istisna olmaqla) fəaliyyətinin monitorinqini aparmaq;

3.1.20. yayılması qadağan edilən informasiyanın internet informasiya ehtiyatında yerləşdirilməsi hallarını bilavasitə və ya fiziki, hüquqi şəxslərdən, yaxud dövlət orqanlarından (qurumlarından) daxil olmuş məlumatlar əsasında müəyyən etmək, bu barədə internet informasiya ehtiyatının və onun domen adının sahibinə, habelə host provayderə yazılı xəbərdarlıq etmək və onlardan bu cür halların aradan qaldırılması məqsədilə müvafiq tədbirlər görülməsini tələb etmək;

3.1.21. yayılması qadağan edilən informasiyanın yerləşdirildiyi internet informasiya ehtiyatına müraciətin qanunla müəyyən edilmiş qaydada məhdudlaşdırılmasının həyata keçirilməsi ilə bağlı tədbirlər görmək və yayılması qadağan edilən informasiyanın yerləşdirildiyi informasiya ehtiyatlarının siyahısını aparmaq, həmin siyahının host və internet provayderlər tərəfindən əldə edilməsinə və onun tətbiqinə riayət edilməsinə nəzarəti həyata keçirmək;

3.1.22. Azərbaycan Respublikasında lotereya təşkilatçısının və (və ya) idman mərc oyunları operatorunun məlumatı əsasında, telekommunikasiya xidmətləri vasitəsilə qumar oyunlarının təşkilinin və keçirilməsinin, qumar oyunlarında iştirak üçün bilet satışının təşkilinin və (və ya) satışının, həmçinin qumar oyunlarında iştirakın, o cümlədən ölkə ərazisindən xarici lotereya təşkilatçılarının və idman mərc oyunları operatorlarının, habelə onların satıcılarının virtual mühitə çıxışlarının qarşısını almaq üçün qanunla müəyyən edilmiş qaydada tədbirlər görülməsini təmin etmək;

3.1.23. "Elektron ticarət haqqında" Azərbaycan Respublikası Qanununun 5.3-cü maddəsində nəzərdə tutulan məlumatlarla alıcıların (sifarişçilərin) və səlahiyyətli dövlət orqanlarının (qurumlarının) tanış olmasına imkan yaratmadıqda, müvafiq satıcının ölkə ərazisində fəaliyyətinin məhdudlaşdırılmasını təmin etmək;

3.1.24. fərdi məlumatların qanunsuz toplanılması, işlənilməsi və mühafizəsinin təmin edilməməsi nəticəsində hüquqları pozulmuş subyektlərin şikayətlərinə baxmaq və onları araşdırmaq;

3.1.25. fərdi məlumatların informasiya ehtiyatlarının və sistemlərinin (ali kateqoriya dövlət orqanlarının, habelə mühafizə olunan şəxslərin, qorunan və strateji obyektlərin təhlükəsizliyini təmin edən dövlət orqanlarının, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin və dövlət sirrinə aid edilən fərdi məlumatların informasiya ehtiyatları və sistemləri istisna olmaqla) dövlət qeydiyyatını və dövlət reyestrini (bundan sonra – dövlət reyestri) aparmaq;

3.1.26. inzibati xəta əlamətləri aşkar etdikdə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq tədbirlər görmək, eləcə də cinayət əlamətləri olduqda aidiyyəti üzrə dövlət orqanlarına (qurumlarına) məlumat vermək;

3.1.27. fərdi məlumatların informasiya ehtiyatlarının və sistemlərinin (ali kateqoriya dövlət orqanlarının, habelə mühafizə olunan şəxslərin, qorunan və strateji obyektlərin təhlükəsizliyini təmin edən dövlət orqanlarının, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin və dövlət sirrinə aid edilən fərdi məlumatların informasiya ehtiyatları və sistemləri istisna olmaqla), habelə onların layihə sənədlərinin dövlət ekspertizasını təşkil etmək;

3.1.28. fərdi məlumatların toplanılması, işlənilməsi və mühafizəsi ilə məşğul olan dövlət orqanlarından (qurumlarından), hüquqi və fiziki şəxslərdən "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinin pozulması hallarının aradan qaldırılmasını tələb etmək;

3.1.29. dövlət reyestrinə daxil edilmiş informasiya ehtiyatlarında və sistemlərində (ali kateqoriya dövlət orqanlarının, habelə mühafizə olunan şəxslərin, qorunan və strateji obyektlərin təhlükəsizliyini təmin edən dövlət orqanlarının, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin və dövlət sirrinə aid edilən fərdi məlumatların informasiya ehtiyatları və sistemləri istisna olmaqla) fərdi məlumatların toplanılmasının, işlənilməsinin və mühafizəsinin "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə, habelə məlumatların və onların işlənilmə üsullarının informasiya sisteminin bəyan olunmuş məqsədlərinə uyğunluğunu aidiyyəti dövlət orqanları ilə birlikdə yoxlamaq;

3.1.30. fərdi məlumatların mülkiyyətçi və operatorlarının sifarişlərinə əsasən fərdi məlumatların toplanılmasının, işlənilməsinin və mühafizəsinin təşkilati və texniki cəhətdən normativ hüquqi aktların tələblərinə uyğun aparılmasının auditini həyata keçirmək;

3.1.31. fərdi məlumatların mülkiyyətçi və operatorlarının rəsmi müraciətinə əsasən, fərdi məlumatlar haqqında normativ hüquqi aktların tətbiqi ilə bağlı məsələləri izah etmək;

3.1.32. fərdi məlumatların mühafizəsi sahəsində mülkiyyətçi və operatorların öhdəlikləri ilə bağlı məlumatlılığın artırılması üçün tədbirlər həyata keçirmək;

3.1.33. fərdi məlumatların mühafizəsi sahəsində fərdi məlumat subyektlərinin hüquqları üzrə maarifləndirilməsini həyata keçirmək;

3.1.34. "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci və 14.2-ci maddələrinə uyğun olaraq, internet informasiya ehtiyatları vasitəsilə yayımlanan kino, televiziya və videofilmlərin (o cümlədən animasiya filmlərinin), kompüter oyunlarının və digər elektron oyunların işarələnmədiyi, yaxud həmin Qanunun tələblərini pozmaqla işarələndiyi barədə məlumat əldə etdikdə, bu informasiya məhsullarının ekspertizasını təşkil etmək;

3.1.35. dövlət orqanlarının (qurumlarının), yerli özünüidarəetmə orqanlarının, hüquqi və fiziki şəxslərin müvafiq sahə üzrə fəaliyyətini əlaqələndirmək;

3.1.36. müvafiq sahədə elektron xidmətləri "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununa və "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq təşkil etmək;

3.1.37. Agentliyin fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.38. müvafiq sahədə dövlət–özəl tərəfdaşlığının inkişafı və təşviqi üçün tədbirlər görmək, habelə normativ hüquqi aktlara uyğun olaraq dövlət–özəl tərəfdaşlığı layihələrinin özəl investisiyaların cəlb edilməsi yolu ilə həyata keçirilməsi məqsədilə tədbirlər görmək;

3.1.39. kargüzarlığı və vətəndaşların qəbulunu müvafiq normativ hüquqi aktların tələblərinə uyğun təşkil etmək, Agentlik əməkdaşlarının əlavə təhsilinin və peşəkarlığının yüksəldilməsi üçün tədbirlər görmək;

3.1.40. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet informasiya ehtiyatının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin internet informasiya ehtiyatında yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.41. Agentliyə ayrılan büdcə vəsaitindən, kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.42. dövlət və kommersiya sirrinin, habelə məxfilik rejiminin qorunması üçün tədbirlər görmək;

3.1.43. Agentliyin informasiya təminatını təşkil etmək və onun təhlükəsizliyini təmin etmək;

3.1.44. strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər görmək;

3.1.45. qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, müvafiq sahədə elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək;

3.1.46. müvafiq sahədə peşəkar mütəxəssislərin hazırlanması və mövcud kadr potensialının artırılması, bu sahədə tədris proqramlarının tərtibi ilə bağlı təkliflər vermək və onların həyata keçirilməsində iştirak etmək;

3.1.47. müvafiq sahədə ixtisaslı kadrlara dair məlumat bazası formalaşdırmaq;

3.1.48. bu Nizamnamə ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

3.2. Öz vəzifələrini yerinə yetirmək üçün Agentliyin aşağıdakı hüquqları vardır:

3.2.1. müvafiq sahədə normativ hüquqi aktın layihəsinin hazırlanması, qəbul olunması, aktda dəyişikliklər edilməsi, aktın şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi haqqında aidiyyəti üzrə təklif vermək;

3.2.2. müvafiq sahədə beynəlxalq müqavilələrə Azərbaycan Respublikasının tərəfdar çıxması barədə Nazirliyə təkliflər vermək;

3.2.3. müvafiq sahədə proqram təminatı və texniki avadanlıq istehsalçıları ilə, eləcə də beynəlxalq təcrübənin tətbiqi imkanlarının araşdırılması məqsədilə beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

3.2.4. informasiya sistemlərinə və şəbəkələrinə, kompüter avadanlıqlarına və onların proqram təminatına qarşı yönəldilmiş və ya yönəldilə biləcək kibertəhlükələr barədə sahəvi kompüter insidentlərinə qarşı mübarizə mərkəzlərinə və informasiya infrastrukturu subyektlərinə müraciət etmək;

3.2.5. müvafiq sahədə Azərbaycan Respublikasında fəaliyyət göstərən kompüter insidentlərinə qarşı mübarizə mərkəzlərindən normativ hüquqi aktlarla müəyyən edilmiş tələblərə uyğun olaraq kibertəhlükələr və onların nəticələri barədə operativ məlumat almaq, o cümlədən real vaxt rejimində məlumat mübadiləsi aparmaq;

3.2.6. müvafiq sahədə fəaliyyət göstərən yerli və xarici ekspertləri cəlb etməklə, mütəxəssislərin hazırlıq səviyyəsinin yüksəldilməsi üçün təlimlər, seminarlar təşkil etmək, həmçinin onların tərtibi ilə bağlı təkliflər vermək və həyata keçirilməsində iştirak etmək;

3.2.7. müvafiq sahədə normativ hüquqi aktlarda nəzərdə tutulmuş hallarda yoxlamalar aparmaq, icrası məcburi olan göstərişlər vermək və bundan irəli gələn digər tədbirlər görmək;

3.2.8. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı araşdırmalar aparmaq, işçi qruplar və komissiyalar yaratmaq;

3.2.9. vəzifələrinin icrası ilə əlaqədar dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, sahəvi kompüter insidentlərinə qarşı mübarizə mərkəzlərinə, hüquqi və fiziki şəxslərə, o cümlədən telekommunikasiya operatorlarına və provayderlərinə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.2.10. fəaliyyət istiqamətləri üzrə rəy və təkliflər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq;

3.2.11. müstəqil ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək;

3.2.12. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı konfranslar, müşavirələr, seminarlar keçirmək və digər tədbirlər təşkil etmək;

3.2.13. əməkdaşlarını dövlət təltiflərinə və digər mükafatlara təqdim etmək, onların həvəsləndirilməsi üçün tədbirlər görmək;

3.2.14. sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, təsərrüfat cəmiyyətləri yaratmaq və ya onlarda iştirak etmək;

3.2.15. xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

3.2.16. bu Nizamnamə ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**4. Agentliyin idarə olunması**

4.1. Agentlik öz fəaliyyətində və idarəetmədə mütərəqqi korporativ idarəetmə standartlarını tətbiq edir.

4.2. Agentliyin idarəetmə orqanı onun İdarə Heyətidir.

4.3. Agentliyə ümumi rəhbərliyi və nəzarəti İdarə Heyəti həyata keçirir. İdarə Heyətinin tərkibi 4 (dörd) üzvdən – Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən İdarə Heyətinin sədrindən və onun 3 (üç) müavinindən ibarətdir.

4.4. İdarə Heyətinin sədri müvəqqəti olmadıqda, onun səlahiyyətlərinin icrasını İdarə Heyəti sədrinin müəyyən etdiyi müavinlərindən biri həyata keçirir.

4.5. İdarə Heyətinin vəzifələri aşağıdakılardır:

4.5.1. Agentliyin fəaliyyətini təşkil etmək və onun fəaliyyətinə nəzarət etmək;

4.5.2. təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi üçün Nazirliyə təkliflər vermək və sənədlər (o cümlədən Agentliyin illik maliyyə hesabatını və fəaliyyətinə dair illik hesabatı) təqdim etmək;

4.5.3. Agentliyin strateji məqsəd və planlarını müəyyən etmək, inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi üçün Nazirliyə təkliflər vermək;

4.5.4. Agentliyin strukturunun, əməyin ödənişi fondunun, işçilərin say həddinin və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğinin təsdiq edilməsi, o cümlədən Agentliyin əldə etdiyi vəsait hesabına işçilərə əlavə ödənilən həvəsləndirmə sisteminin müəyyənləşdirilməsi məqsədilə Nazirliyə təkliflər vermək;

4.5.5. Nazirliyin razılığı ilə Agentliyin təsərrüfat cəmiyyətlərinin yaradılması və ya onlarda iştirak barədə, həmçinin Agentliyin idarə, filial və nümayəndəliklərinin yaradılması barədə qərar qəbul etmək;

4.5.6. Nazirliyin razılığı ilə Agentliyin maliyyə planlaşdırmasını və büdcəsini təsdiq etmək;

4.5.7. Agentliyin fəaliyyətinə dair daxili qaydaları (o cümlədən maraqların toqquşmasının istisna olunması qaydasını), habelə idarə, filial və nümayəndəliklərinin əsasnamələrini, təsərrüfat cəmiyyətlərinin nizamnamələrini Nazirliklə razılaşdırmaqla təsdiq etmək;

4.5.8. Agentliyin fəaliyyətinə dair illik hesabatı dinləmək;

4.5.9. Nazirliyin razılığı ilə Agentliyin kənar auditorunu təyin etmək və onun audit hesabatını qəbul etmək;

4.5.10. kənar auditorun yoxlamalarının, habelə digər yoxlamaların nəticələrinə dair tədbirlər görmək;

4.5.11. Agentliyin daxili audit bölməsinin fəaliyyətinə nəzarət etmək və fəaliyyətinə dair hesabatlar almaq, habelə Nazirliyin razılığı ilə onun üzvlərini vəzifəyə təyin və vəzifədən azad etmək;

4.5.12. Nazirliyin razılığı ilə Agentliyin xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri Agentliyin aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanılması haqqında qərar qəbul etmək;

**(ardı 11-ci səhifədə)**

# Milli Kibertəhlükəsizlik Agentliyinin NİZAMNAMƏSİ

(əvvəli 10-cu səhifədə)

4.5.13. Agentliyin xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizi və daha az hissəsi məbləğində olan əqdin, eləcə də aidiyyəti şəxslə dəyəri Agentliyin aktivlərinin 5 (beş) faizədək hissəsini təşkil edən əqdin bağlanılması haqqında qərar qəbul etmək;

4.5.14. Agentliyin strateji məqsəd və planlarının, habelə büdcəsinin icrasına nəzarət etmək;

4.5.15. bu Nizamnamənin 3.1.41-ci yarımbəndində nəzərdə tutulan vəsaitdən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

4.5.16. İdarə Heyəti üzvlərinin müraciətlərinə baxmaq və qərar qəbul etmək;

4.5.17. bu Nizamnamənin 3.1.1-ci və 3.2.1-ci yarımbəndlərində nəzərdə tutulmuş məsələlərin həlli üçün tədbirlər görmək;

4.5.18. Agentliyin fəaliyyəti ilə əlaqədar İdarə Heyəti sədrinin və ya təsisçinin səlahiyyətlərinə aid edilməyən bütün digər məsələlər barədə qərar vermək.

4.6. İdarə Heyətinin sədri ayda azı 1 (bir) dəfə İdarə Heyətinin iclaslarını çağırır və iclaslara sədrlik edir. İdarə Heyətinin iclaslarının keçirilməsi təşəbbüsü ilə İdarə Heyətinin üzvü çıxış edir. İdarə Heyətinin iclasları üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. İdarə Heyətinin iclasında, hər üzvün bir səsi olmaqla, qərarlar sadə səs çoxluğu ilə qəbul edilir. Səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir. Səslərin sayı bərabər olduqda, iclasa sədrlik edənin səsi həlledicidir.

4.7. İdarə Heyətinin iclasının nəticəsi İdarə Heyəti üzvlərinin və katibinin imzaladıqları protokolda əks olunmaqla rəsmiləşdirilir.

4.8. İdarə Heyətinin üzvlərinə, habelə İdarə Heyətinin iclaslarına dəvət olunan şəxslərə İdarə Heyətinin iclaslarının keçiriləcəyi yer və vaxt, habelə gündəliyə daxil edilmiş məsələlər barədə iclasa azı 3 (üç) iş günü qalmış, zəruri sənədlər əlavə edilməklə yazılı məlumat verilir.

4.9. İclasın gündəliyinə İdarə Heyətinin hər hansı üzvünün maraqlarına toxunan məsələ çıxarıldıqda, həmin üzv bununla bağlı maraqları haqqında ətraflı məlumat verməli, bu məsələnin müzakirəsində və həmin məsələyə dair səsvermədə iştirak etməməlidir.

4.10. Gündəliyə daxil edilməmiş və ya tələb olunan aidiyyəti sənədləri iclasdan əvvəl təqdim edilməmiş məsələlər barədə bütün iştirakçı üzvlərin razılıq verdiyi hallar istisna olmaqla, qərar qəbul edilə bilməz.

4.11. İdarə Heyətinin sədri:

4.11.1. Agentliyin cari fəaliyyətinə rəhbərlik edir və onu təmsil edir;

4.11.2. İdarə Heyətinin fəaliyyətini təşkil edir, iclasların gündəliyini müəyyənləşdirir və iclaslara sədrlik edir;

4.11.3. öz təşəbbüsü, İdarə Heyətinin digər üzvünün təşəbbüsü ilə İdarə Heyətinin iclaslarını çağırır;

4.11.4. öz təşəbbüsü ilə, habelə İdarə Heyətinin hər hansı bir üzvünün xahişi əsasında digər şəxsləri İdarə Heyətinin iclasında iştirak etməyə dəvət edir;

4.11.5. Agentliyin fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan daxili sərəncam və əmrlər verir;

4.11.6. Agentliyin fəaliyyət istiqamətlərinə dair qəbul olunmuş aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

4.11.7. özünün və Agentliyin struktur bölmələrinin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

4.11.8. müəyyən edilmiş struktur, əməyin ödənişi fondu və işçilərin say həddi daxilində Agentliyin Aparatının və digər struktur bölmələrinin strukturunu, ştat cədvəlini və xərclər smetasını Nazirliklə razılaşdırmaqla təsdiq edir;

4.11.9. Agentliyin işçilərinin vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini əməyin ödənişi fondu çərçivəsində təşkil edir;

4.11.10. bu Nizamnamə ilə müəyyən edilmiş hallar istisna olmaqla, Agentliyin, o cümlədən onun idarə, filial və nümayəndəliklərinin, habelə tabeliyindəki digər qurumların işçilərinin (təsərrüfat cəmiyyətlərində isə yalnız rəhbərlərin) vəzifəyə təyin və vəzifədən azad edilməsi, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi barədə qərarlar qəbul edir;

4.11.11. Agentliyin əmlakından onun Nizamnaməsində nəzərdə tutulmuş məqsədlərə uyğun istifadə olunmasına nəzarət edir;

4.11.12. bu Nizamnamə ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində Agentliyin adından əməliyyatlar aparır, müqavilələr bağlayır və onların yerinə yetirilməsini təmin edir;

4.11.13. Agentliyin fəaliyyət istiqamətləri ilə bağlı məşvərətçi komitələr və işçi qruplar yaradır;

4.11.14. Agentliyin fəaliyyət istiqamətləri üzrə dövlət sirrinin və məxfilik rejiminin, habelə qanunla qorunan digər məlumatların mühafizəsi üçün zəruri tədbirlər görür;

4.11.15. Agentlikdə kargüzarlıq və arxiv işinin aparılmasını təmin edir;

4.11.16. Agentlikdə müraciətlərə baxılmanı və vətəndaşların qəbulunu təmin edir.

4.12. İdarə Heyətinin üzvləri:

4.12.1. İdarə Heyətinin səlahiyyətlərinə aid məsələlərin həllində iştirak edirlər;

4.12.2. İdarə Heyətinin iclasının gündəliyi ilə və baxılması nəzərdə tutulmuş materiallarla əvvəlcədən tanış olurlar;

4.12.3. İdarə Heyətinin qəbul ediləcək qərarlarına dair fikir bildirirlər;

4.12.4. İdarə Heyətinin səlahiyyətlərinə aid məsələlərə onun iclaslarında baxmaq barədə təkliflər verirlər;

4.12.5. İdarə Heyətinin qərarları, iclas protokolları ilə və digər sənədlərlə tanış olurlar.

4.13. İdarə Heyətinin üzvləri onun iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmalı, İdarə Heyəti üzvünün adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməlidirlər, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsi ilə müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

**5. Agentliyin nizamnamə fondu, əmlakı və maliyyə fəaliyyətinin əsasları**

5.1. Agentliyin nizamnamə fondunun məbləği 442 498,00 (dörd yüz qırx iki min dörd yüz doxsan səkkiz) manatdır.

5.2. Agentliyin əmlakı nizamnamə fondundan, təsisçinin verdiyi əmlakdan, həmçinin fəaliyyətindən əldə olunmuş gəlirdən, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan edilməyən digər vəsaitdən formalaşır.

5.3. Agentlik öz əmlakından yalnız bu Nizamnamə ilə müəyyən olunmuş məqsədlərə uyğun istifadə edir. Agentlik balansında olan dövlət əmlakına münasibətdə səlahiyyətlərini "Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə müəyyən edilmiş qaydada həyata keçirir.

5.4. Agentlik qanunda nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri müəyyən edilmiş qaydada ödədikdən sonra Agentliyin, onun idarə, filial, nümayəndəliklərinin və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların fəaliyyətindən əldə olunmuş vəsait üzərində müstəqil sərəncam vermək hüququna malikdir. Agentliyin sərəncamında qalan vəsaitdən Nazirlik əməkdaşlarına əlavə mükafatların verilməsi üçün ayırmalar nəzərdə tutulur.

5.5. Agentliyin mənfəəti bu Nizamnamədə nəzərdə tutulmayan məqsədlər üçün yalnız Nazirliyin qərarı ilə dövlət büdcəsinə köçürülür.

5.6. Agentliyin məhsullarının (malların, işlərin və xidmətlərin) qiymətləri dövlət tərəfindən tənzimlənən qiymətlərə (tariflərə) aid deyildir.

**6. Agentliyin fəaliyyətinə nəzarətin forması və əhatə dairəsi**

6.1. Agentliyin fəaliyyətinə nəzarəti Nazirlik, həmçinin bu Nizamnamə ilə müəyyən edilmiş qaydada İdarə Heyəti həyata keçirirlər.

6.2. Agentliyin fəaliyyətinə dair illik hesabat Nazirliyə təqdim edilir.

**7. Agentlikdə uçot və hesabat**

7.1. Agentlik "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir.

7.2. Agentlik "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatları tərtib və təqdim edir.

7.3. Agentlik idarə, filial, nümayəndəlik və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasını təmin edir.

7.4. Agentlik öz fəaliyyətinin müstəqil surətdə yoxlanılması üçün kənar auditor cəlb edir.

**8. Agentliyin yenidən təşkili və ləğvi**

Agentliyin yenidən təşkilini və ləğvini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

---

# Rəqəmsal keçid kəndə də yeni düzən gətirəcək

## *"Ağıllı" texnologiyaların məhsul bolluğuna töhfələri artır*



**Son illərdə aqrar sahədə həyata keçirilən genişmiqyaslı islahatlar, dövlət dəstəyi mexanizmlərinin təkmilləşdirilməsi, su təminatının yaxşılaşdırılması, müasir suvarma sistemlərinin tətbiqi və kənd yerlərində infrastrukturun yenilənməsi ölkənin ərzaq təhlükəsizliyinin möhkəmlənməsinə mühüm töhfə verib. Bununla belə, qlobal iqlim dəyişiklikləri, su resurslarının azalması, beynəlxalq bazarlarda rəqabətin güclənməsi və kənd təsərrüfatında məhsuldarlığın artırılması zərurəti qarşıya yeni vəzifələr qoyub. Hazırda bu vəzifələrin həllinin artıq ənənəvi idarəetmə üsulları ilə deyil, inkişaf etmiş ölkələrin təcrübəsinə əsaslanan rəqəmsal texnologiyalar, peyk monitorinqləri və süni intellekt imkanlarının geniş tətbiqi ilə mümkünlüyü öz təsdiqini tapıb.**

Prezident İlham Əliyevin sədrliyi ilə mayın 25-də keçirilən kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə dövlət başçısı nitqində respublikamızda aqrar siyasətin yeni mərhələyə daxil olduğunu, bundan sonra müasir texnologiyaya əsaslanan inkişaf modelinin xüsusi diqqətdə saxlanılacağını bildirdi. Ölkə rəhbəri, eyni zamanda, Azərbaycanda hər bir torpaq sahəsinin dəqiq təhlilinin aparılması və onun elektron məlumat bazasının yaradılmasının zəruriliyini xatırladaraq əkin üçün yararlı ərazilərə "pasport" verilməsinin və onun həmin torpaqlarda hansı məhsulun daha yüksək gəlirliliyi təmin edə biləcəyinin elmi əsaslarla müəyyənləşdirilməsinin önəmini vurğuladı.

### Dəqiq kənd təsərrüfatı modeli

Xatırladaq ki, bu yanaşma müasir dünyada "dəqiq kənd təsərrüfatı" adlandırılan modelin əsas elementidir. Burada süni intellekt torpaq analizləri, iqlim göstəriciləri, su təminatı, məhsuldarlıq statistikası və bazar məlumatlarını emal edərək fermerlərə optimal qərarlar təqdim edir. Başqa sözlə, əgər əvvəlki dövrlərdə kənd təsərrüfatı əsasən fermerlərin təcrübəsinə əsaslanırdısa, indi rəqəmsal texnologiyalar sayəsində torpağın kimyəvi tərkibindən tutmuş məhsulun bazarda satış perspektivlərinə qədər bütün məlumatlar bir sistemdə öz ifadəsini tapır. Bu isə daha yüksək məhsuldarlıq, daha az xərc və daha böyük gəlir deməkdir.

Müşavirədə aqrar sektorun sürətli inkişafı üçün müasir peyk texnologiyalarından istifadənin vacibliyini də önə çəkən dövlət başçısı belə bir yolla əkin sahələrinin vəziyyətinin real vaxt rejimində izlənilməsinin mümkün olduğunu diqqətə çatdırdı. Ölkə rəhbəri, eyni zamanda, peyk görüntülərinin torpağın nəmlik səviyyəsinin, bitkilərin inkişaf dinamikasının, xəstəlik və zərərvericilərin yayılma risklərinin dəqiqliklə müəyyənləşdirməyə imkan verdiyini bildirdi.

**Kənd təsərrüfatı mütəxəssisi Sabutay Əhmədovun** sözlərinə görə, beynəlxalq təcrübədə bu məlumatlar süni intellekt platformaları tərəfindən təhlil edilərək fermerlərə xəbərdarlıq və tövsiyələr şəklində təqdim olunur. Nəticədə suvarma vaxtı, gübrələmə norması və məhsulun yığım müddəti daha dəqiq müəyyənləşdirilir. Bu yanaşma təkcə məhsuldarlığın artırılmasına deyil, həm də su və enerji resurslarının qənaətlə istifadəsinə əlverişli şərait yaradır.

**Müşavirədə təqdim olunan məlumatlardan aydın görünür ki, 2026–2030-cu illəri əhatə edən yeni Dövlət Proqramı kənd təsərrüfatında transformasiyanı dörd əsas istiqamətdə nəzərdə tutur:**

*– resurs səmərəliliyinə əsaslanan kənd təsərrüfatı;*

*– yüksək əlavə dəyər yaradan istehsal;*

*– bazar inteqrasiyası və dəyər zənciri yanaşması;*

*– texnologiya və innovasiyalara əsaslanan inkişaf.*

Bu yanaşmanın diqqətçəkən cəhəti ondan ibarətdir ki, proqram yalnız istehsal göstəricilərinin artırılmasını deyil, həm də institusional islahatları, qanunvericilik yeniliklərini və rəqəmsallaşmanı özündə birləşdirir. Başqa sözlə, qarşıdakı illərdə aqrar sektorun inkişafının yeni əkin sahələrinin yaradılması ilə bərabər, eyni zamanda, rəqəmsal idarəetmə sistemlərinin qurulması ilə gerçəkləşəcəyi nəzərdə tutulur.

Prezident İlham Əliyev müşavirədə kənd təsərrüfatının sürətli inkişafı üçün ən mühüm amillərdən birinin subsidiya mexanizminin çevikləşdirilməsi ilə bağlı olduğunu qeyd etdi. Dövlət başçısı subsidiya siyasətinin daimi deyil, bazar tələblərinə uyğun olaraq mütəmadi yenilənməsinin vacibliyini vurğuladı və hər il daxili bazarın ehtiyacları, ixrac imkanları və beynəlxalq tələbatın nəzərə alınması əhəmiyyətini önə çəkdi. Eyni zamanda, böyük həcmli iqtisadi məlumatları emal edən rəqəmsal sistemlərin müxtəlif məhsullar üzrə bazar tələbatını proqnozlaşdıra, qiymət dəyişikliklərinin təhlilini apara və dövlətə daha səmərəli subsidiya qərarları qəbul etmək imkanı yarada biləcəyini də vurğuladı.

Qlobal iqlim dəyişiklikləri fonunda Azərbaycan üçün ən vacib məsələlərdən biri də su ehtiyatlarının səmərəli idarə edilməsidir. Müşavirədə qeyd olunduğu kimi, bu məsələdə müasir suvarma texnologiyaları əsaslı rol oynayır. Hazırda ölkədə müasir suvarma sistemləri tətbiq olunan sahələr 130 min hektara çatır və qarşıya qoyulan məqsəd isə bu göstəricini 2030-cu ilədək 300 min hektara yüksəltməkdir.

Mütəxəssislərin fikrincə, damcı və pivot suvarma texnologiyalarının tətbiqi təkcə suya qənaət etmir. Bu sistemlər sensorlar və rəqəmsal idarəetmə vasitələri ilə təchiz olunduqda "ağıllı" suvarma modelinə çevrilir. Belə texnologiyalar torpağın nəmliyini ölçərək yalnız zəruri həcmdə su verir. Nəticədə su sərfiyyatı azalır, məhsuldarlıq yüksəlir, torpaqların şoranlaşmasının qarşısı alınır.

Bu gün dünyanın inkişaf etmiş aqrar ölkələrində suvarma sistemlərinin böyük hissəsi artıq süni intellekt əsasında idarə olunur. Azərbaycanın da bu istiqamətdə addımlar atması uzunmüddətli ərzaq təhlükəsizliyi baxımından mühüm əhəmiyyət daşıyır.

### Aqrar məlumat bazası və ixrac strategiyası

Prezident İlham Əliyev sözügedən müşavirədə kənd təsərrüfatı istehsalının ixrac bazarları ilə əlaqələndirilməsinin vacibliyini xüsusi vurğulayaraq müasir dövrdə hansı məhsulun hansı bazarda neçə il ərzində rəqabət üstünlüyünü qoruyacağını əvvəlcədən müəyyənləşdirməyin strateji əhəmiyyət daşıdığını bildirdi. Ölkə rəhbəri bu məqsədlə rəqəmsal aqrar məlumat platformalarının yaradılmasının zəruriliyini diqqətə çatdırdı və belə platformaların beynəlxalq bazarlardakı qiymətləri, istehlak meyillərini, logistika imkanlarını və rəqabət şəraitini təhlil etməklə fermerlərə, eləcə də dövlət qurumlarına daha düzgün qərarlar qəbul etmək imkanı verə biləcəyini xatırlatdı.

Beləliklə, kənd təsərrüfatının inkişafının yeni mərhələsində müasir texnoloji yollarla istehsal bazarın tələblərinə uyğunlaşdırılır və ixrac potensialı daha da artırılır. Məhz bu məqsədlə də yeni Dövlət Proqramı çərçivəsində aqrar sektora 5,9 milyard manat investisiyanın yönəldilməsi nəzərdə tutulur. Bunun 2,2 milyard manatının dövlət, 3,7 milyard manatının isə özəl sektor tərəfindən gerçəkləşdiriləcəyi planlaşdırılır.

Bu investisiyalar yeni infrastrukturun yaradılması ilə bərabər, həm də kənd təsərrüfatının rəqəmsal transformasiyasına xidmət edəcək. İntensiv bağçılıq, müasir istixanalar, konsolidasiya layihələri, qapalı suvarma şəbəkələri, aqrar məlumat mərkəzləri, rəqəmsal xəritələr və süni intellekt əsaslı idarəetmə sistemləri gələcək inkişafın əsas istiqamətlərindən biri olacaq.

Hesablamalara görə, Dövlət Proqramının icrası nəticəsində kənd təsərrüfatında istehsal artımının 2 faizdən yuxarı, ixrac artımının isə 6 faizdən çox olacağı gözlənilir. Lakin bu göstəricilərin dayanıqlı xarakter alması üçün texnologiyaların tətbiqi əsas şərt olaraq qalır.

Dünya artıq kənd təsərrüfatında yeni mərhələyə qədəm qoyur. Fermerlərin qərarlarını süni intellekt sistemləri dəstəkləyir, peyklər əkin sahələrini izləyir, sensorlar torpağın vəziyyətini ölçür, dronlar məhsuldarlığı qiymətləndirir. Azərbaycanın qarşıdakı illərdə aqrar inkişaf strategiyası da məhz bu istiqamətdə formalaşır.

Prezident İlham Əliyevin müşavirədə səsləndirdiyi fikirlər göstərir ki, kənd təsərrüfatının gələcək inkişaf modeli torpaq, su və əmək resurslarından daha səmərəli istifadə etməklə yanaşı, rəqəmsal texnologiyaların və süni intellektin geniş tətbiqinə əsaslanacaq. Bu yanaşmanın məhsuldarlığın artırılması ilə yanaşı, həm də ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi, ixrac potensialının genişləndirilməsi, fermer gəlirlərinin yüksəldilməsi və aqrar sektorun qlobal rəqabət qabiliyyətinin artırılması baxımından strateji əhəmiyyəti hər zaman mühüm önəm daşıyacaq. Azərbaycanın kənd təsərrüfatında başlayan yeni dövrün əsas siması isə torpaqla texnologiyanın, fermerlə süni intellektin və ənənə ilə innovasiyanın uğurlu sintezi olacaq.

Prezident İlham Əliyevin müşavirədə səsləndirdiyi "hər torpaq sahəsinin pasportlaşdırılması", "peyk imkanlarından istifadə", "süni intellekt əsaslı təhlillərin aparılması", "subsidiya mexanizmlərinin çevikləşdirilməsi" kimi tapşırıqlar dünyanın inkişaf etmiş aqrar ölkələrinin son illərdə uğurla tətbiq etdikləri modellərlə səsləşir. Respublikamızın üstünlüyü ondan ibarətdir ki, ölkə kənd təsərrüfatının rəqəmsal transformasiyasına nisbətən erkən mərhələdə daxil olur və dünya təcrübəsində mövcud olan səhvləri təkrarlamadan ən müasir həlləri birbaşa tətbiq etmək imkanına malikdir. Xüsusilə peyk müşahidələri, elektron kənd təsərrüfatı informasiya sistemləri, süni intellekt əsaslı məhsuldarlıq proqnozları, "ağıllı" suvarma şəbəkələri və rəqəmsal subsidiya mexanizmləri ölkəmizin aqrar sektorunda keyfiyyətcə yeni inkişaf mərhələsinin əsasını təşkil edə bilər.

Beləliklə, dünya təcrübəsi göstərir ki, XXI əsrdə kənd təsərrüfatında uğur artıq təkcə münbit torpaqlar və əlverişli iqlimlə müəyyən edilmir. Əsas rəqabət üstünlüyü məlumatı daha dəqiq emal edən, resurslardan daha səmərəli yararlanan və qərarvermədə süni intellektin imkanlarından faydalanan ölkələrin tərəfindədir. Azərbaycanın aqrar siyasətində müəyyənləşdirilən yeni prioritetlər də məhz bu qlobal inkişaf tendensiyalarına uyğun olaraq formalaşır.

***Vaqif BAYRAMOV***
***XQ***

*Ekspert rəyi*



**Elşan ƏHMƏDOV,**
**iqtisad üzrə fəlsəfə doktoru, dosent**

Son illərdə ölkənin sosial-iqtisadi inkişafında rəqəmsal transformasiya prioritet istiqamət kimi müəyyənləşdirilib. Dövlət başçısının təsdiq etdiyi "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" və "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda iqtisadiyyatın rəqəmsallaşdırılması, innovasiyaların tətbiqi və aqrar sektorun rəqabət qabiliyyətinin artırılmasına xüsusi önəm verilib. Strategiyada kənd təsərrüfatında innovativ texnologiyaların tətbiqi, rəqəmsal həllərin genişləndirilməsi və su ehtiyatlarından səmərəli istifadənin təmin olunması qarşıya mühüm vəzifələr kimi qoyulub.

Prezident İlham Əliyev kənd təsərrüfatının inkişafına həsr olunmuş çoxsaylı müşavirələrdə bu sahənin qeyri-neft sektorunun aparıcı istiqamətlərindən biri olduğunu vurğulayıb, məhsuldarlığın artırılması, innovativ texnologiyaların tətbiqi və su təminatının yaxşılaşdırılması məsələlərini daim diqqət mərkəzində saxlayıb.

Azərbaycanda da son illərdə elektron kənd təsərrüfatı sisteminin yaradılması, aqrar xidmətlərin rəqəmsallaşdırılması və innovativ həllərin tətbiqi istiqamətində mühüm addımlar atılıb. Kənd Təsərrüfatı Nazirliyi tərəfindən elektron xidmətlərin genişləndirilməsi, rəqəmsal platformaların tətbiqi və süni intellekt əsaslı həllərin hazırlanması aqrar idarəetmənin keyfiyyətinin yüksəldilməsinə xidmət edir.

Fikrimcə, növbəti mərhələdə əsas diqqət üç istiqamətə yönəldilməlidir. Birincisi, kənd təsərrüfatında rəqəmsal savadlılığın artırılmasıdır. Fermerlər müasir texnologiyaların tətbiqi üzrə davamlı təlimlərə cəlb olunmalıdırlar. İkincisi, suvarma infrastrukturunun modernləşdirilməsi və damcı suvarma sistemlərinin tətbiqinin genişləndirilməsidir. Dövlət dəstəyi mexanizmləri bu istiqamətdə daha da gücləndirilməlidir.

Üçüncüsü, süni intellekt və peyk məlumatları əsasında milli aqrar məlumat platformasının yaradılmasıdır. Bu platforma məhsul proqnozlaşdırılması, su ehtiyatlarının idarə olunması və risklərin qiymətləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyacaqdır.

Nəticə etibarilə, rəqəmsal texnologiyalar və innovativ suvarma sistemləri kənd təsərrüfatının gələcəyini müəyyən edən əsas amillərdən biridir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən rəqəmsal transformasiya siyasəti aqrar sahədə də yeni inkişaf imkanları yaradır. Bu imkanlardan səmərəli istifadə etməklə Azərbaycan həm ərzaq təhlükəsizliyini gücləndirə, həm su ehtiyatlarını qoruya, həm də kənd təsərrüfatının beynəlxalq rəqabət qabiliyyətini əhəmiyyətli dərəcədə artıra bilər.

# Akademik Musiqili Teatr “Balaca şahzadə” əsərini səhnələşdirib

*Leyla Əliyeva və Alona Əliyeva tamaşanı izləyiblər*







**Uşaqların Beynəlxalq Müdafiəsi Günündə Azərbaycan Dövlət Akademik Musiqili Teatrında dünyaşöhrətli fransız yazıçısı Antuan de Sent-Ekzüperinin “Balaca şahzadə” əsəri əsasında hazırlanmış eyniadlı tamaşa nümayiş olunub.**

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Alona Əliyeva tamaşanı izləyiblər.

Həm uşaqlar, həm də böyüklər üçün nəzərdə tutulan səhnə əsəri əyləncəli olmaqla yanaşı, dərin məna kəsb edir.

Tamaşanın quruluşçu rejissoru Xalq artisti Cənnət Səlimova, səhnələşdirəni yazıçı-publisist İlqar Fəhmi, bəstəkarı Ruslan Ağababayev, rəssamı Məryəm Ələkbərli, xoreoqrafı Rusiyanın Əməkdar incəsənət xadimi Sergey Qritsay, baletmeysterləri Əməkdar artistlər Zakir və Yelena Ağayevlər, bərpaçı rejissoru Sevinc Məmmədova, bərpaçı xoreoqrafı Məhəmməd Abdullayev, rejissor assistenti isə Çimnaz Bağırovadır.

Səhnə əsərində teatrın aktyorları Faiq Mirzəyev (Kral), Əmrah Dadaşov (Pilot), Hüseyn Əlili (Aydın), Rauf Babayev (Kommersant), Ruslan Mürsəlov (Tülkü), Zaur Əliyev (Dərviş), Nuray Məmmədzadə (Qızılgül), Murad Əliyev (Şoumen), həmçinin balet artistləri iştirak ediblər. Balaca şahzadə obrazını isə 44 günlük Vətən müharibəsi şəhidi Telman Kəlbiyevin övladı Elcan Kəlbiyev canlandırıb.

Qeyd edək ki, əsər 2019-cu ildə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın dəstəyi ilə səhnəyə qoyulub.

***XQ***

# Apellyasiya Məhkəməsində Ermənistan vətəndaşlarının vəsatətlərinə baxılıb



**İyunun 2-də Bakı Apellyasiya Məhkəməsində Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə və digər çoxsaylı cinayətlərə görə Bakı Hərbi Məhkəməsi tərəfindən barələrində ittiham hökmü çıxarılmış Ermənistan Respublikası vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin apellyasiya şikayətləri üzrə məhkəmə baxışı başlayıb.**





Bakı Apellyasiya Məhkəməsinin hakimləri Elmar Rəhimovun sədrliyi, Emin Mehdiyev və Mehriban Qarayevanın (ehtiyat hakim Əli Məmmədov) iştirakı ilə keçirilən məhkəmə iclasında barələrində cinayət işi üzrə apellyasiya icraatı aparılan şəxslərin hər biri bildikləri dillərdə – erməni və rus dillərində tərcüməçi, habelə müdafiələrinin təmin olunması məqsədilə vəkillərlə təmin edilib.

Məhkəmə iclasında zərərçəkmiş şəxslərin nümayəndələri, dövlət ittihamını müdafiə edən prokurorlar - Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Abbas Abbaslı, həmin idarənin şöbə prokurorları Anar Ələkbərov və Sevinc Qasımova iştirak ediblər.

Təqsirləndirilən şəxslər tərcüməçilərə, məhkəmə kollegiyasına, müdafiəçilərə, dövlət ittihamını müdafiə edən prokurorlara, həmçinin nümayəndələrə etiraz etmədiklərini bildiriblər.

Təqsirləndirilən şəxslərə cinayət-prosessual qanunvericilikdə müəyyən edilən tutulmuş hüquq və vəzifələri təkrarən izah olunub. David Babayan özü tərəfindən, digər təqsirləndirilən şəxslər isə müdafiəçiləri tərəfindən verilən apellyasiya şikayətlərini müdafiə etdiklərini deyiblər.

Sədrlik edən şikayətlər üzrə təqsirləndirilən şəxslərin mövqelərini öyrəndikdən sonra qaldırılan vəsatətlərin qanunvericiliyin tələblərinə uyğun olaraq növbəti mərhələdə müzakirə ediləcəyini bildirib.

Təqsirləndirilən şəxslər apellyasiya şikayəti üzrə bəzi dəqiqləşdirmələrin aparılması, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (ombudsmanın) Aparatından nümayəndənin məhkəmə iclasında iştirak etməsi, şahidlərin dindirilməsi və digər məsələlər barədə müvafiq vəsatətlər veriblər.

Dövlət ittihamını müdafiə edən prokuror Sevinc Qasımova vəsatətlərə münasibət bildirərək qeyd edib ki, Ombudsman Aparatının nümayəndəsi hazırkı məhkəmə prosesində proses tərəfi deyil. Həmin qurumun nümayəndəsi ictimai əsaslarla açıq məhkəmə iclasında iştirak edə bilər. Qanunvericiliyə əsasən ombudsman və ya Ombudsman Aparatının nümayəndələri cəzaçəkmə müəssisəsində saxlanılan şəxslərin saxlanılma şəraiti, eyni zamanda, digər hallarla bağlı yerində tanış ola və preventiv tədbirlər görə bilərlər.

Həmçinin qeyd olunub ki, ibtidai istintaq və məhkəmə baxışı zamanı kifayət qədər şahid dindirilib və onlar əvvəlki ifadələrini yenidən təsdiqləyiblər. Qanunvericiliyə əsasən, birinci instansiyada təqdim edilməmiş yeni sübutların apellyasiya mərhələsində qəbul olunması üçün əvvəllər təqdim edilə bilməmə səbəblərinin əsaslandırılmalı olduğu xatırladılıb.

Qeyd olunub ki, yeni şahidlərin dindirilməsi barədə vəsatət verilərkən həmin şəxslərin konkret anket məlumatları təqdim edilməli olduğu halda, müdafiə tərəfi bu məlumatları göstərə bilməyib.

Bundan başqa, ittiham tərəfi vurğulayıb ki, sübutların lüzumsuz toplanılması məhkəmə prosesinin uzadılmasına və süründürməçiliyə gətirib çıxarmamalıdır.

Bu səbəblərdən dövlət ittihamını müdafiə edən prokuror prosesin lüzumsuz yerə uzanmaması üçün verilən vəsatətlərin təmin olunmamasını məhkəmədən xahiş edib.

Zərərçəkmiş şəxslərin nümayəndələri də dövlət ittihamını müdafiə edən prokurorun mövqeyi ilə razı olduqlarını bildiriblər.

Məhkəmə iclasında, həmçinin vurğulanıb ki, vəsatətlərdən biri də iclas protokolları və iş materialları ilə elektron qaydada tanış olmaqla bağlı idi. Burada heç bir məhdudiyyət yoxdur və istənilən proses iştirakçısı müraciət edərək sənədlərlə tanış ola bilər.

Daha sonra məhkəmə kollegiyası müşavirəyə gedib. Müşavirədən sonra qəbul edilmiş qərarlar elan olunub və müdafiə tərəfinin vəsatətlərinin qismən təmin edildiyi bildirilib.

Apellyasiya baxışı iyunun 9-da davam etdiriləcək.

Xatırladaq ki, Bakı Hərbi Məhkəməsinin 5 fevral 2026-cı il tarixli hökmünə əsasən, Arayik Harutyunyan, Levon Mnatsakanyan, David Manukyan, Davit İşxanyan və David Babayan ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum ediliblər. Arkadi Qukasyan və Bako Sahakyan 20 il, Madat Babayan və Melikset Paşayan 19 il, Qarik Martirosyan 18 il, Davit Allahverdiyan və Levon Balayan 16 il, Vasili Beqlaryan, Qurgen Stepanyan və Erik Qazaryan isə 15 il müddətinə azadlıqdan məhrum ediliblər.

***XQ***

# ABŞ senatoru Ağ Evdə sülh razılaşmasını “böyük dönüş” adlandırıb

**Ötən ilin avqust ayında Ağ Evdə Prezident Trampın liderliyi ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan sülh sənədi imzalamaq üçün bir araya gəldi.**



Bu sözləri ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin üzvü, senator Stiv Deyns Dövlət katibi Marko Rubio ilə dinləmələr zamanı sual verərkən deyib. O bildirib ki, bu, böyük dönüş nöqtəsi idi.

“Fikrimcə, bu barədə məlumatlandırma azdır. Düşünürəm ki, bu hekayəni yaymalıyıq. Bu, rəhbərlik tərəfindən həll edilmiş kritik bir geosiyasi problemdir”, - deyə o əlavə edib.

***XQ***

# Konstitusiya Məhkəməsi Plenumunun növbəti iclası

**Fərhad Abdullayevin sədrliyi ilə Konstitusiya Məhkəməsi Plenumunun növbəti iclası keçirilib.**



Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən bildirilib ki, məhkəmə iclasında Azərbaycan Respublikası Konstitusiyasının 80-ci maddəsi baxımından Cinayət Məcəlləsinin 79-cu maddəsinin həmin Məcəllənin 41.2-ci maddəsi və Cəzaların İcrası Məcəlləsinin 173-cü maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair konstitusiya işinə baxılıb.

Konstitusiya Məhkəməsinin Plenumu iş üzrə hakim F.Tutayukun məruzəsini, maraqlı subyektlər Azərbaycan Respublikası Prokurorluğunun sorğusunu və Milli Məclis Aparatının mülahizəsini, Ali Məhkəmə, Bakı Apellyasiya Məhkəməsi, Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi, Vəkillər Kollegiyası tərəfindən təqdim edilmiş mütəxəssis mülahizələrini, ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Cinayət hüququ və kriminologiya kafedrasının dosenti M.Bayramovanın rəyini və iş materiallarını araşdırıb müzakirə edərək qərar qəbul edib.

Qərarda deyilir ki, Azərbaycan Respublikası Konstitusiyasının 80-ci maddəsinin, həmçinin Cinayət Məcəlləsinin 5.1, 8.1, 41.2-ci və Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin 173.4-cü maddələrinin tələbləri baxımından cəzanın çəkilməsinin təxirə salındığı dövrdə hamiləliyin pozulması halı məhkəmə tərəfindən cəzaçəkmənin təxirə salınmasının ləğvi üçün əsasdır. Bu hal məhkumun cəzanın çəkilməmiş hissəsindən azad edilməsini və ya cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz olunmasını şərtləndirə bilməz.

“Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikası Konstitusiya Qanununun 12.3-cü maddəsinə və Konstitusiya Məhkəməsi Plenumunun bu Qərarının təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelərə əsasən Cinayət Məcəlləsinin 79.3-cü və Cəzaların İcrası Məcəlləsinin 173.4-cü maddələrinin təkmilləşdirilməsi Milli Məclisə tövsiyə edilsin.

Qərar dərc edildiyi gündən qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz.

***XQ***

# “Ağıllı ətraf mühit və yaşıl texnologiyalar”

*Bakıda “ICSEGT 2026” Beynəlxalq Elmi Konfransı öz işinə başladı*

**Bakıda Odlar Yurdu Universitetinin təşkilatçılığı ilə “Ağıllı ətraf mühit və yaşıl texnologiyalar 2026” – ICSEGT 2026 Beynəlxalq Elmi Konfransı işə başladı. Artıq üçüncü dəfə keçirilən bu elmi platforma dünyanın müxtəlif ölkələrindən gələn alimləri, tədqiqatçıları və akademik mütəxəssisləri bir araya toplayır.**



Açılış mərasimində çıxış edən Odlar Yurdu Universitetinin rektoru Əhməd Vəliyev belə beynəlxalq məclislərin Azərbaycanın elmi əməkdaşlıq mühitinin genişlənməsinə və qlobal akademik inteqrasiyaya töhfə verdiyini bildirdi. Onun sözlərinə görə, ölkə başçısının müəyyən etdiyi inkişaf prioritetləri elmi müstəvidə müzakirə olunur və beynəlxalq elmi ictimaiyyətə çatdırılır.

Rektor qeyd etdi ki, elm müasir cəmiyyətlərin inkişafında həlledici rol oynayır və bu istiqamətdə beynəlxalq əməkdaşlığın gücləndirilməsi xüsusi əhəmiyyət daşıyır. O, Kanada, Polşa və digər ölkələrdən alimlərin iştirak etdiyi ICSEGT konfransının artıq qısa müddətdə nüfuzlu beynəlxalq elmi platformaya çevrildiyini vurğuladı. Əhməd Vəliyev “ağıllı ətraf mühit” və “yaşıl texnologiyalar” sahəsində aparılan müzakirələrin dayanıqlı inkişaf hədəflərinə mühüm töhfə verdiyini söylədi.

Odlar Yurdu Universitetinin prorektoru Fəxrəddin Məmmədov isə konfransın beynəlxalq elmi əlaqələrin inkişafında oynadığı rolu diqqətə çatdırdı. O qeyd etdi ki, ICSEGT 2026 müxtəlif ölkələrdən alim və tədqiqatçıları bir araya gətirərək aktual elmi problemlərin müzakirəsi və yeni tədqiqat nəticələrinin paylaşılması üçün geniş imkanlar yaradır.

Milli Məclis Sədrinin müavini Musa Qasımlı, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin direktoru Ülkər Səttarova və digər çıxış edənlər də konfransın əhəmiyyətindən söz açaraq dedilər ki, “ICSEGT 2026” beynəlxalq elmi əməkdaşlığın genişlənməsi, yeni tərəfdaşlıqların qurulması və qlobal problemlərin həllinə yönəlmiş fikir mübadiləsi üçün mühüm müzakirə formatıdır.

Konfransın tərəfdaşları sırasında bir sıra dövlət qurumları və beynəlxalq elmi təşkilatlar – Elm və Təhsil Nazirliyi yanında Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə yanaşı, müxtəlif elmi institutlar, Kanada, Polşa, Şimali Kipr və Rusiya universitetləri də var.

Hibrid formatda keçirilən konfransda ağıllı şəhər və ekosistemlər, bərpaolunan enerji, yaşıl texnologiyalar, süni intellekt, IoT, kiber-fiziki sistemlər, biotexnologiya, ekoloji kimya, davamlı memarlıq və digər aktual istiqamətlər üzrə elmi müzakirələr aparılır.

30-dan çox ölkədən 200-ə yaxın təmsilçinin iştirak etdiyi konfransda elmi məruzələr təqdim olunur, innovativ tədqiqat nəticələri bölüşülür və beynəlxalq əməkdaşlıq imkanları müzakirə edilir.

“ICSEGT 2026” konfransı qlobal ekoloji çağırışlar və yaşıl transformasiya sahəsində yeni elmi yanaşmaların formalaşması baxımından mühüm platforma kimi çıxış edir. Məclis iyunun 3-də işini başa vuracaq.

***NA BDALOV***
***XQ***

*Aktual müsahibə*

# Turizm sehrli bir dünyadır...

**Heç bir uğur asanlıqla əldə olunmur. Ölkəmizin turizm sektoru əvvəlki onilliklər boyu bu mühüm sahədə qazanılan zəngin ənənələrdən, eləcə də yeni, qlobal müsbət tendensiyalardan bəhrələnərək davamlı olaraq inkişaf edir. Bu uğurları artırmaq, yeni müvəffəqiyyətlər qazanmaq üçün isə daha hansı işləri görmək zəruridir? Bəs bu barədə təcrübəli insanlar, peşəkarlar nə düşünürlər?**




Müsahibimiz bu gün adı, təcrübəsi, faydalı təşəbbüsləri həmkarları və yetirmələri tərəfindən fəxrlə qeyd olunan milli turizm sektorunun həqiqi uzmanlarındandır. 57 ildir ki, fasiləsiz olaraq bu sahədə çalışır. Bacarıq və səriştəsilə turizmin inkişafı istiqamətində kifayət qədər sanballı işlər görüb, nəzərəçarpan uğurlar qazanıb.

Həmsöhbətimiz **Dövlət Turizm Agentliyi sədrinin müşaviri, "Turizm Agentlikləri Assosiasiyaları" İctimai Birliyi sədrinin müavini, 57 il bu sahədə çalışmış, turizmin uzmanı Müzəffər Ağakərimovdur.** Onunla məhz ölkə turizminin dünəni, bugünü və perspektivləri barədə söhbət etdik. İnanırıq ki, söhbətin məğzi oxucularımız üçün də maraqlı olacaq.

***– 1969-cu ildən ölkəmizin turizm sektorunda çalışırsınız. Eşitdiyimə görə, sizə daha yüksək vəzifələrdə təkliflər edilib, amma getməmisiniz. Görünür, turizm sizin tale yazınızdır…***

– Deyərdim ki, bu, taleyin mənə böyük səxavətlə bəxş etdiyi gözəl bir töhfə, hədiyyədir. Sözün düzü, ilk vaxtlar turizmə ömürlük bağlanacağımı düşünmürdüm. Lakin zaman keçdikcə bu sehirli aləmin qeyri-adi cazibəsinə düşdüm və heç yerə getmədim. Buna görə zərrə qədər peşman deyiləm, əksinə, böyük qürur hissi keçirirəm. Bu gün isə tam əminliklə deyə bilərəm ki, turizm mənim ilk və əbədi məhəbbətimdir *(gülümsəyir).*



1948-ci ildə Bakıda anadan olmuşam. Paytaxtın "Sovetski" adlanan məşhur məhəlləsindəki "Köhnə Çadrovı" küçəsində evimiz olub. Xalqımızın tarixinə, mədəniyyətinə uşaqlıq və yeniyetməlik illərimdən dərin maraq göstərirdim. İxtisasca ali təhsilli tarixçiyəm. 1973-cu ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) tarix fakültəsini bitirmişəm. Turizm sahəsində biliklərimi təkmilləşdirmək üçün isə Moskvada Turizm, Mehmanxana və restoran biznesi Akademiyasında qiyabi təhsil almışam.

Turizm sahəsində əmək fəaliyyətimə BDU-ya daxil olduğum il, yəni 1969-cu ildə Bakı Səyahətlər və Ekskursiyalar Bürosunda bələdçi kimi başlamışam. Sonralar müxtəlif turizm marşrutlarında baş təlimatçı, daha sonra isə "İnturist" sisteminə daxil olan "Moskva" mehmanxanasında inzibatçı, baş inzibatçı və şöbə müdiri vəzifələrində çalışmışam. 1993–1998-ci illərdə "Azərbaycan" hotelində baş direktorun müavini olmuşam. Bütün bunları oxuculari turizm sahəsində kifayət qədər təcrübəmin olduğunu göstərmək üçün qeyd edirəm.

Bir məqamı xüsusi vurğulamaq istəyirəm. O illərdə ölkəmizdə turizm sahəsi ilə, əsasən, "İnturist" mehmanxanalar şəbəkəsi məşğul olurdu. Qeyd etmək lazımdır ki, bu şəbəkə respublikamızda turizmin təşkili istiqamətində yaxşı təcrübə əldə etmişdi. Bakının "İnturist" şəbəkəsinin əməkdaşlarının yüksək peşəkarlığı keçmiş ittifaq səviyyəsində də qəbul olunurdu. Bu gün Azərbaycan turizminin əldə etdiyi nailiyyətlərdə həmin sistemdə yetişmiş təcrübəli mütəxəssislərin əməyi az deyil.

***– O dövrdə xarici ölkələrdən Azərbaycana gələn məşhur qonaqlardan kimləri xatırlayırsınız?***

– Bilirsinizmi, Azərbaycana dünyanın hər yerindən yüksək rəsmi şəxslər, görkəmli elm və mədəniyyət xadimləri, populyar estrada, caz ulduzları çox gəliblər. Bakı daim öz yüksək mədəni mühiti ilə qonaqları özünə cəlb edib. Mən burada çox sayda dünyaşöhrətli insanın adını çəkə bilərəm. Lakin bunları bir-bir sadalasam, uzun bir siyahı alınar.

Hər halda çox məşhur bir biznes adamının adını qeyd etmək yerinə düşərdi. Yadımdadır, ötən əsrin 1970-ci illərində amerikalı milyarder Devid Rokfeller turist kimi Bakıya gəlmişdi. O zaman "Moskva" mehmanxanasında qonaqların qəbulu və xidmət şöbəsinin müdiri idim. D.Rokfeller bir həftə Bakıda qaldı, "Xəzərin qoynuna sığınan gözəl şəhərimiz"in (Rokfellərin müsahibəsində belə qeyd etmişdi-müəllif) görməli yerləri ilə yaxından tanış oldu. Neft maqnatı ABŞ-a qayıtdıqdan sonra Bakı və bakılılar haqqında amerikalı jurnalistlərlə öz xoş təəssüratlarını bölüşmüşdü.

***– Turistlərin qarşılanması və yola salınması zamanı, yəqin ki, bəzən çətin, gözlənilməz situasiyalarla da üzləşmisiniz. Bu barədə nə deyə bilərsiniz?***

– Nə gizlədim, bəzən bizdən asılı olmayan çətin, gözlənilməz anlar olurdu. O vaxt beynəlxalq aeroportlar yalnız Moskvada fəaliyyət göstərirdi. Bu da bəzən işimizə çətinliklər törədirdi. Məsələn, 1983-cü ildə Bakıda xalçaçılıq sənətinə həsr olunmuş beynəlxalq simpozium keçirilirdi. Hər şey normal məcrada davam edirdi. Amma tədbirin son günlərində SSRİ hava məkanında Cənubi Koreyaya məxsus mülki təyyarənin vurulması səbəbindən beynəlxalq uçuşlarda ciddi problemlər yarandı.

Qərb dövlətləri dərhal öz aeroprtlarını keçmiş İttifaqın təyyarələrinə bağladılar. Yalnız Qərbi Berlin aeroportu Moskvadan gələn sərnişinləri qəbul edirdi. Mən o zaman Moskvada operativ qaydada bu məsələnin həlli ilə məşğul oldum. Oradakı yaxın dostlarımım dəstəyi ilə simpozium iştirakçılarını Qərbi Berlinə, oradan da öz ölkələrinə yola salmaq mümkün oldu.

Etiraf edirəm ki, böyük tədbirlərə gələn qonaqları yüksək səviyyədə qəbul edərək yola salmaq o qədər də asan məsələ deyil. 1994-cü ilin 20 sentyabrında Bakıda "Gülüstan" sarayında böyük neft sazişi – "Əsrin müqaviləsi" imzalandı. Çox sayda rəsmiləri aeroportda qarşılamaq, mehmanxanalarda yerləşdirmək, ölkəmizin tarixi abidələri, gəzməli-görməli yerləri ilə tanış etmək lazım gəlirdi. Fəxrlə deyə bilərəm ki, müstəqil Azərbaycanın turizm sektoru bu mühüm vəzifənin öhdəsindən bacarıqla gəldi. Nəticədə, həm qonaqlar, həm də ölkə rəsmiləri razı qaldılar.

***– Turizm sektorunda gənc, milli kadrların hazırlanması prosesində də fəal iştirak edibsiniz. Belə ki, bu sahədə uzun illər pedaqoji fəaliyyətlə də məşğul olubsunuz, çox sayda dərsliklər yazıbsınız. Bu barədə nə deyə bilərsiniz?***

– Mən həmişə bu əqidədə olmuşam ki, hər bir insan, ziyalı öz bilik və bacarığını gənc nəslə ötürməlidir. Şəxsən mən uzun illər ərzində qazandığım təcrübəmi gənclərlə bölüşməyi mənəvi borc hesab edirəm. 2004-cü ildən Bakı Dövlət Universitetində, 2006-cı ildən isə Azərbaycan Turizm və Menecment Universitetində uzun illər dərs demişəm. Tələbələrimə, ən başlıcası, turizmi sevdirməyə çalışmışam. Bu sahəyə qəlbən bağlanmadan, böyük uğur əldə etmək qeyri-mümkündür. Çox sevinirəm ki, ölkəmizdə çox istedadlı kadrlar yetişib.

Pedaqoji fəaliyyətimin ilk dönəmində gördüm ki, tələbələrin Azərbaycan dilində turizm ədəbiyyatına ehtiyacı böyükdür. Buna görə də "Mehmanxana təsərrüfatı", "Hotel" və digər müfəssəl dərsliklər hazırladım. Turizm, hotelçilik və ekskursiya fəaliyyətinə dair 12 kitabın müəllifiyəm.

Bundan başqa, Ulu öndərin 100 illik yubileyi münasibətilə nəşr olunan "Heydər Əliyev və Azərbaycan turizmi" kitabının həmmüəlliflərindənəm. Yerli və xarici mətbuatda, nüfuzlu beynəlxalq sahə jurnallarında Azərbaycan turizminin inkişafına dair çoxsaylı məqalələrim dərc olunub. Bir çox qlobal mətbu nəşrlərdə turizm üzrə ekspert kimi də çıxış edirəm.

***– Müzəffər müəllim, bu sualım, bəlkə də, ilk baxışdan bir qədər təəccüblü görünə bilər. Mənə elə gəlir ki, turizm sahəsində çalışan insanlar daha ünsiyyətcil və mehriban olurlar. Bu fikirlə razısınızmı?***

– Tamamilə razıyam. Turizm insanlarla işləməyi, onları anlamağı və qonaqpərvər olmağı tələb edir. Tam səmimiyyətlə deyirəm: bu sahədə çalışan insanlar, adətən, açıqürəkli, mehriban və pozitiv olurlar.

Azərbaycan xalqı tarixən qonaqpərvərliyi ilə seçilib. Ona görə bu sahədə işləyənlər yüksək mədəniyyətə və ünsiyyət bacarıqlarına malik olmalıdırlar.

Turizm sektorunda tur bələdçilərinin rolu xüsusilə böyükdür. Xarici qonaqlarda Azərbaycan haqqında ilk təəssüratı məhz onlar formalaşdırırlar. Gəlin etiraf edək: "İçərişəhər"dən, Şuşadan ürəksiz danışmaq mümkünsüzdür. Turistlər tur bələdçilərinin hər bir sözündən, hərəkət və davranışından hiss etməlidirlər ki, xalqımız öz torpağını, tarixini, mədəniyyətini çox sevir, bundan qürur duyur və bu məmləkəti göz bəbəyi kimi qorumağa hazırdır.

***– Azərbaycan turizminin beynəlxalq əlaqələri hansı səviyyədədir?***

– Fəxrlə qeyd edə bilərəm ki, həqiqətən, ölkəmizdə bu istiqamətdə davamlı, düşünülmüş addımlar atılır. Dövlət Turizm Agentliyinin (DTA) rəhbərliyi və kollektivi dövlətimizin başçısının bu sahənin davamlı inkişafı ilə bağlı qarşıya qoyduğu mühüm vəzifələri böyük məsuliyyət hissi ilə yerinə yetirməyə çalışır.

Dünyanın müxtəlif ölkələrində keçirilən sərgilərdə DTA-nın xəttilə Azərbaycan turizminin uğurları və imkanları geniş təqdim edilir və təbliğ olunur. Məqsəd Azərbaycanımızı qlobal turizmin ən sevimli məkanlarından birinə çevirməkdir. Əminəm ki, buna mütləq nail olacağıq.

Ölkəmizdə sabitlik, əmin-amanlıqdır. Turistlər yurdumuza erkən uçub gələn qaranquşlar kimidir. Baharın müjdəçisi olan bu "elçilər" o evlərin eyvanlarında yuva qururlar ki, oranın sakinləri bir-birlərinə can deyib can eşidirlər. Biz Azərbaycanımızı abad və gözəl məkana çevirməli, qədim yurdumuzu sevməli və sevdirməliyik. Turizmin uğur düsturu məhz budur!

***Söhbəti qələmə aldı:***
***Məsaim ABDULLAYEV***
***XQ***

# Dahilərə sənət həyatı vermiş heykəltaraş

**"Borçalı" İctimai Birliyinin təşkilatçılığı ilə Atatürk Mərkəzində tanınmış heykəltaraş, Azərbaycan Rəssamlar İttifaqının üzvü Cümşüd İbrahimlinin 85 illik yubiley mərasimi keçirilib.**

"Borçalı" İctimai Birliyinin sədri, şair-publisist Dəyanət Osmanlı qocaman sənətkarın yaradıcılıq yolundan danışaraq qeyd edib ki, heykəltaraşın əsərlərində və layihələrində modern düşüncə ilə ənənəvi üsulub vəhdət təşkil edir. "Babək", "Koroğlu", "Pənahəli xan", "Nizami Gəncəvi", "Nuru Paşa", "Atatürkün salamı", "Niyazi", "M.Ə.Sabir", "Planetin harayı", "Rəşid Behbudov", "Səttar Bəhlulzadə" və s. çoxsaylı abidə, büst və barelyef nümunələrində Vətən, torpaq sevgisi, xalqımızın qəhrəmanlıq tarixinə, görkəmli şəxsiyyətlərə sayğı əksini tapıb: "Heykəltaraşın bu günümüzlə səsləşən layihə-eskiz modellərindən biri isə hələ 1991-ci ildə hazırladığı "Pənahəli xan" atlı monumental abidəsidir. Şuşa şəhəri üçün nəzərdə tutulan əsərdə Pənahəli Xan şahə qalxmış Qəmər atın belində, bir əlində qalxan, bir əlində sıyrılmış qılınc təsvir olunub. Cümşüd İbrahimli bu gün də həmişəki yaradıcılıq əzmini qoruyub saxlayır və həvəslə yeni abidə layihələri üzərində işləyir".




BDU-nun kafedra müdiri, dosent Knyaz Aslan heykəltaraş Cümşüd İbrahimlinin yaradıcılıq yolunun əlamətdar, milli-mənəvi dəyərlərə bağlı olduğunu deyib: "Onun toxunduğu mövzular milli və bəşəri səciyyə daşıyır, əsərlərində tariximizin, tarixi şəxsiyyətlərimizin ruhunu səmimiyyətlə anır, xatirəsini ustalıqla daşın yaddaşına köçürür".

Digər çıxış edənlər də Cümşüd İbrahimli sənət yolu barədə fikirlərini, onun vətənə bağlılığından, milli heykəltaraşlığa verdiyi töhfələrdən söhbət açıblar.

Sonda yubiliyara "Borçalı" İctimai Birliyinin "Borçalının fəxri" diplomu təqdim olunub.

***XQ***

*Sənətin əbədiyyəti*

**Unudulmaz sənətkarımız, Xalq artisti Əminə Yusifqızı yaddaşlarda bənzərsiz qiraət ustası kimi yaşayır. Onun səsinin öz rəngi, öz çaları, əlahiddə tembri vardı, heç bir səsə bənzəmirdi. Uşaqlıq illərimizin munis, büllur səslərindən idi...**

# Bir səsin min bir ahəngi

## *Xalq artisti Əminə Yusifqızı yaddaşlara belə köçdü*



Bu səsin sehrinə düşməmək, onun ifasını dinləyəndən sonra həmin əsərə təkrarən müraciət edib, diqqətdən qaçan məqamlara bir daha qayıtmamaq mümkün deyil. Əminə xanım hər şeiri bir obraz kimi təqdim edir və dinləyicini bu tamaşanın iştirakçısına çevirirdi.

Əminə xanım səhnə həyatının ilk illərində Gənc Tamaşaçılar Teatrında, Akademik Milli Dram Teatrında çalışmış, bir sıra yaddaqalan obrazlar yaratmışdır. Fitri istedadı ilə teatr ictimaiyyətinin diqqətini cəlb edən gənc aktrisa "Komsomol poeması" (Səməd Vurğun) tamaşasında Humay, "Ana tarla"da (Çingiz Aytmatov) Aliman, "Anacan" (Yusif Əzimzadə) tamaşasında Qulu, "Söz yarası"nda (Qeybulla Rəsulov) Ülkər, "Şeytanın şagirdi"ndə (Bernard Şou) Esse və digər rolları canlandırıb.

O, müxtəlif və mürəkkəb surətlərin gözəl ifaçısı idi. "Şərikli çörək", "Sən niyə susursan", "Bizim küçənin uşaqları", "Qətl günü" filmlərində çəkilib. Azərbaycan filmlərinin böyük əksəriyyətində bir sıra obrazları səsləndirib.

Onun Xalq artisti, görkəmli rejissorumuz Mərahim Fərzəlibəyovla da bir neçə iş birliyi olub. 1974-cü ildən "Azərbaycanfilm" kinostudiyasında fəaliyyət göstərən aktrisa kinostudiyanın nəzdindəki Kinoaktyor Teatr Studiyasında çalışarkən F.Lorkanın "Qanlı toy" tamaşasında "Gəlin" obrazını canlandırıb. Tamaşanın quruluşçu rejissoru Mərahim Fərzəlibəyovdur. O danışır ki, Əminə xanım bu rolu, sadəcə, oynamır, daha doğrusu yaşayır, tamaşaçıları mütəəssir edir və həyəcanlandırırdı. Bu keyfiyyət bir tərəfdən Əminə xanımın ifa etdiyi obrazın məzmunundan, ictimai siqlətindən doğursa, digər tərəfdən, onun özünün sənətkarlıq təbiətindən əmələ gəlir. Ümumiyyətlə, Əminə xanımın həyatı və fəaliyyəti Azərbaycan teatr tarixinin ayrılmaz hissəsidir.

Bundan əvvəl Mərahim müəllimin özünün ssenarisi əsasında çəkilən "Edit Piaf" televiziya tamaşasında Əminə xanım baş rolda oynayıb. Əfsanəvi müğənni Edit Piafın obrazını ustalıqla canlandıran aktrisanın tərəf müqabili unudulmaz aktyorumuz Kamil Qubuşov idi. O, Müsyö Leple obrazını oynayırdı.

Daha sonra Əminə xanım Mərahim müəllimin quruluşunda Məmməd Muradın "Köksüz budaqlar" tamaşasında Əsmər roluna dəvət alıb. Həmin tamaşada Əminə xanımın tərəf müqabili Xalq artisti Şahmar Ələkbərov idi. Aleksandr Nikitinin "Abşeronda bir gecə" tamaşasında Əminə xanım böyük sənətkarlarımız Leyla Bədirbəyli, Eldəniz Zeynalov, Muxtar Manıyev, Eldəniz Rəsulov, Gündüz Abbasovla birgə səhnəni bölüşürdü.

Əminə xanım həmişə müsahibələrində Mərahim Fərzəlibəyovu bir rejissor kimi yüksək qiymətləndirib və onunla iş birliyindən zövq aldığını bildirib. Mərahim müəllim də hər zaman Əminə xanımdan söz düşəndə deyir ki, "mən həmişə təəssüf hissi keçirmişəm ki, Əminə xanım teatrda fəaliyyətini davam etdirmədi, davam etsəydi, səhnəmizdə parlaq obrazlar qalereyası yaradacığına heç bir şübhəm yoxdur. Onun sənətkarlıq qüdrəti, səhnə potensialı buna imkan verirdi".

Qarşıdan unudulmaz sənətkarın 90 illiyi gəlir. Təəssüf ki, Əminə Yusifqızı 90 yaşına bir il qalmış dünyasını dəyişdi. Amma ecazkar səsi hələ uzun illər dinləyicilərin ruhunu ovsunlayacaq.

***Kənan HACI,***
***yazıçı-publisist***

*Kitab rəfi*

## "Gül dəftəri"




**Cinas bayatılar ustadı kimi tanınan klassik şair Sarı Aşığın "Gül dəftəri" kitabı 3-cü dəfə çap olunub.**

Şair İlham Qəhrəmanın tərtib etdiyi yeni nəşr AMEA Folklor İnstitutu Elmi Şurasının qərarı ilə işıq üzü görüb. Təkmilləşdirilmiş topluda Sarı Aşığa məxsus müxtəlif mənbələrdən götürülmüş 1018 bayatı, 8 qoşma (2 təcnis), 33 bayatı-tapmaca və bağlamalar yer alıb.

Tərtibçi istifadə etdiyi qaynaqlara tənqidi yanaşıb, çoxsaylı deyim və sözlərə, dini-mifoloji məfhumlara, xüsusi adlara aydınlıq gətirib, cinasları düzgün və anlaşıqlı şəkildə təqdim edib. Sarı Aşığın irsi bu kitabla oxuculara tam şəkildə çatdırılır.

Əvvəlki toplulardan fərqli olaraq 3-cü nəşrə Haqq Aşığının 2 mənbədən götürülmüş 21 bayatısı əlavə edilib və indiyə qədər cavabsız qalmış bağlama və tapmacaların bir çoxunun açması düzgün qeyd olunub. Eyni zamanda, oxucular kitabda Sarı Aşıq haqqında el arasında yayılmış rəvayətlərlə də tanış ola biləcəklər.

Geniş oxucu kütləsi üçün nəzərdə tutulmuş nəşrin redaktoru filologiya üzrə fəlsəfə doktoru Məsiağa Məhəmmədidir.

## "Ədəbi varislik zənciri..."




**AMEA Lənkəran Regional Elmi Mərkəzinin Ədəbiyyat və azsaylı xalqların folkloru şöbəsinin müdiri Sərraf Talıbın "Ədəbi varislik zənciri: Lənkəran ədəbi mühiti Azərbaycan ədəbiyyatı müstəvisində" adlı kitabı çapdan çıxıb.**

Elmi-publisistik məqalələr toplusuna 2020-ci ildən etibarən müxtəlif illərdə Polşada yayımlanan "POLİSH JOURNAL OF SCIENCE", "Colloquium-jornal", RF-də "Kulturologia, iskusstvovedenie i filologia: sovremennye vzglady i nauçnye issledovania" onlayn jurnal və nəşrlərdə, eləcə də AMEA-nın "Elm və həyat", AYB-nin Lənkəran Bölməsinin "Şəfəq" jurnallarının ayrı-ayrı saylarında dərc olunmuş, müxtəlif elmi konfrans materiallarına salınmış məqalələrin əksəriyyəti daxil edilib. Kitab "Filoloji - nəzəri araşdırmalar", "Folklor və etnoqrafiya" və "Elmi-publisistik yazılar" adlı 3 fəsildən ibarətdir.

Kitabın rəyçiləri fəlsəfə doktorları dosent Elşad Səfərli və Cəmil Quliyev, elmi redaktoru və ön sözün müəllifi fəlsəfə doktoru, dosent Esmira İsmayılova, redaktorları fəlsəfə doktoru, dosent Sevinc Hüseynova və yazıçı-publisist, AYB-nin üzvü İltifat Əhmədovdur.

***Əli NƏCƏFXANLI***
***XQ***

# BMT-də Baş katib seçkisi öncəsi maliyyə çöküşü təhlükəsi

## *ABŞ və Çinin borcları təşkilatın büdcəsinin yarısına bərabərdir*

**İkinci Dünya müharibəsindən sonra beynəlxalq ictimaiyyət yeni qlobal münaqişələrin qarşısını almaq və beynəlxalq əməkdaşlığı təşviq etmək üçün BMT-ni yaratdı. Hazırda dünyanın demək olar ki, bütün ölkələri bu təşkilatın üzvüdür. Bu, onu fərqli siyasi sistemlərə, maraqlara və inkişaf səviyyələrinə malik dövlətlərin dialoqa girə və ortaq problemlərin həll yollarını axtara biləcəkləri yeganə foruma çevirir. Təhlükəsizlik, iqtisadiyyat, humanitar yardım, ətraf mühit, səhiyyə və insan hüquqları ilə bağlı müzakirələr məhz BMT strukturları vasitəsilə aparılır.**



Fəaliyyət göstərdiyi 80 ilə yaxın bir dövrdə təşkilat onlarla silahlı münaqişənin həllində iştirak edib. BMT-nin sülhməramlı missiyaları Balkanlarda, Afrikada, Yaxın Şərqdə və digər bölgələrdə fəaliyyət göstərib. Dünya Ərzaq Proqramının işi sayəsində hər il müharibə və aclıqdan əziyyət çəkən ölkələrdə milyonlarla insan yardım alır. Ümumdünya Səhiyyə Təşkilatı COVID-19 pandemiyası dövründə beynəlxalq səyləri əlaqələndirmiş və bir çox ölkələrdə təhlükəli xəstəliklərlə mübarizəyə kömək etmişdir. BMT-nin Uşaq Fondu isə dünya miqyasında peyvənd, təhsil və uşaqların müdafiəsi proqramlarını dəstəkləyir.

Təşkilatın Nizamnaməsi müasir beynəlxalq münasibətlərin fundamental prinsiplərini təsbit edir. Bunlara dövlətlərin suveren bərabərliyi, ərazi bütövlüyünə hörmət, mübahisələrin dinc yolla həlli və hüquqi əsas olmadan güc tətbiqindən imtina daxildir. BMT-nin himayəsi altında bir çox beynəlxalq müqavilə və sazişlər imzalanmışdır.

Dünyada müxtəlif beynəlxalq təşkilatlar mövcuddur, lakin hər biri məhdud sayda iştirakçını bir araya gətirir və ya müəyyən fəaliyyət sahələrinə diqqət yetirir. Amma BMT, demək olar ki, bütün dünyanı əhatə edir və beynəlxalq məsələlərin tam spektrini həll edir.

Bu gün dünya təkbaşına ayrı-ayrı dövlətlərin həll edə bilmədiyi problemlərlə üzləşir: beynəlxalq terrorizm, iqlim dəyişikliyi, epidemiyalar, miqrasiya böhranları, ərzaq təhlükəsizliyi və silahlara nəzarət birgə fəaliyyət tələb edir. Təşkilat müntəzəm olaraq tənqid olunur və islahatlara ehtiyac duyur, lakin yenə də qlobal dialoq üçün əsas mexanizm, mövcud beynəlxalq münasibətlər və beynəlxalq hüquq sisteminin təməli olaraq qalır.

Lakin qalır desək belə, bunu daha ehtiyatla dilə gətiririk, çünki onun taleyi artıq sual altındadır. Çünki BMT iki ən böyük donoru - ABŞ və Çin tərəfindən ödənişlərin dayandırılması səbəbindən maliyyə çöküşü riski ilə üzləşib. "The Wall Street Journal" qəzetinin məlumatına görə, Vaşinqtonun borcu 4 milyard dolları keçib, Pekin isə təşkilata 445 milyon dollar borcludur. Bu ölkələr birlikdə BMT-nin əsas maliyyələşdirməsinin 42 faizini təşkil edir.

ABŞ-ın təşkilata münasibəti qismən bəllidir. Donald Tramp administrasiyası təşkilatın xərclərini səmərəsiz adlandırır. ABŞ artıq Ümumdünya Səhiyyə Təşkilatı da daxil olmaqla bir neçə BMT proqramı və agentliyindən çıxıb. Çin, "töhfələrdə faktiki lider" olduğunu iddia etsə də, köçürmələrini təxirə salır. Eyni zamanda, digər ənənəvi donorlar – Böyük Britaniya, Almaniya, İsveç və Hollandiya da təşkilata dəstəyini azaldır və bu addımı büdcə qənaəti və siyasi dəyişikliklər fonunda beynəlxalq xərclərin ixtisarı ilə əlaqələndirirlər.

BMT-nin Baş katibi Antonio Quterreş, təşkilatın faktiki olaraq "iflasa doğru yürüş"də iştirak etdiyi barədə xəbərdarlıq edib və maliyyə çöküşünü olduqca real bir ehtimal adlandırıb. Belə təxmin edilir ki, BMT-nin vəsaiti avqustun ortalarında tükənə bilər.

Bu səbəbdən artıq BMT daxilində də xərclərin azaldılmasına hesablanan misli görünməmiş tədbirlərə başlanılıb: ofislər bağlanır, katiblikdə çalışan təxminən 3 min əməkdaş işdən çıxarılıb, tərcüməçilərin iş saatları azaldılıb, qərargahlardakı eskalatorları dayandırırlar və Nyu-Yorkdakı qərargahın təmiri təxirə salınır. Təşkilat həmçinin sülhməramlı əməliyyatları məhdudlaşdırır. Qoşunlar bəzi Afrika ölkələrindən daha tez çıxarılır, Nepal və Banqladeş də daxil olmaqla, sülhməramlı kontingent göndərən dövlətlərə ödənişlər isə gecikir. Təşkilatın rəhbərliyi xəbərdarlıq edir ki, mövcud böhran əvvəlki böhranlardan xeyli ciddidir.

ABŞ Dövlət Departamentinin sözçüsü Maykl De Sombre BMT Təhlükəsizlik Şurasına bildirib ki, "biz çoxtərəflilikdən imtina etməyə deyil, aydınlığın və nəticələrin səmərəsizlik və boş sözlərdən üstün olmasını təmin etməyə çalışırıq".

BMT-nin borc ala bilməməsi və rəhbərliyin dərin yenidənqurma üçün məhdud səlahiyyətləri səbəbindən vəziyyət daha da mürəkkəbləşir. Büdcənin təxminən 70 faizi əməkhaqqına xərclənir, lakin üzv dövlətlər mövcud təşəbbüsləri azaltmaqdansa, böyük həvəslə daha çox yeni təşəbbüslər irəli sürürlər. İndi onların sayı təxminən 40 mini keçir.

Bir çox analitiklər beynəlxalq təşkilatın maliyyələşdirmə problemləri, onların hansı qlobal proseslərə işarə etdiyi və gələcəkdə onu nələr gözlədiyi barədə müxtəlif təhlillər aparır və proqnozlar verirlər.

Sual oluna bilər ki, maliyyələşdirmənin azaldılması nə ilə bağlıdır?

Qeyd etdiyimiz kimi, əsas səbəb, BMT-nin baza büdcəsinin təxminən 42 faizini təmin edən 2 ən böyük ianəçi - ABŞ və Çin tərəfindən gecikdirilmiş ödənişlərdir. BMT hesab edir ki, bu borclar siyasi təsir vasitəsi kimi istifadə olunur.

BMT-yə humanitar yardımın ən böyük donoru olan ABŞ maliyyələşdirməni ildə 10 milyard dollardan təxminən 3,8 milyard dollara endirib. Buna baxmayaraq, ABŞ məcburi ianələrini ödəməyib və səmərəsiz xərclərlə mübarizə aparmaq ehtiyacını əsas gətirərək, ÜST də daxil olmaqla, bir neçə BMT proqramından çıxıb. Vaşinqton təşkilatdan xərclərin, personalın və imtiyazların daha da azaldılmasını tələb edir. Özünü BMT-nin əsas müdafiəçisi adlandıran Çin də 2026-cı ilin may ayında qurumun büdcəsinə təxminən 850 milyon dollar köçürsə də, borcunu tam ödəməyib. Çinin ödənişlərinin gecikməsi ölkənin çoxtərəfli formatlara, beynəlxalq hüquq və diplomatiyanın roluna, BMT-yə fəal dəstəyi fonunda baş verir. Lakin Çinin borcunun əhəmiyyətli bir hissəsinin may ayında ödənildiyini nəzərə alsaq, o zaman bu, daha çox maliyyə məsələsi ola bilər.

Nəzəri olaraq, Quterreşin Tramp üzərində təsir gücü var: BMT-nin, bir ölkənin təşkilata olan borcları ikiillik ödəniş məbləğini keçərsə, Təhlükəsizlik Şurası üzvünün səsvermə hüquqlarını müvəqqəti olaraq dayandırmaq hüququ var. ABŞ bu həddi keçib, lakin Quterreşin Vaşinqtonla belə bir qarşıdurmaya girməyəcəyi əvvəlcədən bəllidir.

Rusiyanın Siyasi Təhlil Mərkəzinin direktoru Pavel Danilin bu versiyanı belə izah edir: "Düşünürəm ki, təşkilat ABŞ-a münasibətdə belə yanaşmanı nəzərdən keçirməyəcək, çünki Vaşinqtonun Təhlükəsizlik Şurasında veto hüququ və səsvermə hüququ olmayacaqsa, o zaman Amerika bu təşkilatı tamamilə bağlamaq üçün əlindən gələni edər".

Araşdırmalar göstərir ki, 2025-ci ildə BMT-nin qiymətləndirilmiş töhfələrinin yalnız 77 faizi ödənilib ki, bu da üzv dövlətlər üçün rekord səviyyədə borc deməkdir. Bundan əlavə, BMT-nin büdcə sistemi özünün qaydaları üzündən daha da mürəkkəbləşir: istifadə olunmamış vəsaitlər üzv dövlətlərə, töhfələrini ödəyib-ödəməmələrindən asılı olmayaraq, geri qaytarılır. 2026-cı ildə bu cür geri qaytarılan məbləğ 227 milyon dollara çatıb və 2027-ci ildə 400 milyon dolları keçə bilər. Quterreş bu vəziyyəti BMT-nin maliyyəsinə "ikiqat zərbə" adlandırır.

Böhranın nəticələri artıq görünür: BMT-nin İnsan Hüquqları İdarəsi müharibə cinayətləri ilə bağlı araşdırmaları azaldır, Əfqanıstanda ana və uşaq sağlamlığı klinikaları bağlanır və Ümumdünya Ərzaq Proqramı Sudandakı münaqişədən yaxasını qurtaran qaçqınlar üçün ərzaq payını azaldır.

Böhran nəyi göstərir?

BMT-nin iflas riski bir neçə transşla "müalicə edilə" bilən, təcrid olunmuş maliyyə problemi deyil. Bu, davam edən qlobal proseslərin, yəni universal beynəlxalq institutların tənəzzülünün və regional blokların, koalisiyaların və çoxüzvlü müqavilələrin artan əhəmiyyətinin başqa bir simptomudur. Oxşar böhranlar ÜST və ÜTT kimi digər qlobal təşkilatlarda da davam edir. "Soyuq müharibə" ilə müqayisədə belə, daha az razılaşma və konsensusun olduğu bugünkü dünyada bu qaçılmazdır. Çünki XXI əsrin bütün münaqişələri çoxlu fərqlərin mövcudluğunu, maraqların daha ziddiyyətli olduğunu, qətnamələrin qəbul edilməsinin çətinliyini və onlarla razılaşmayan ölkələrin çoxluğunun o sənədləri nüfuzdan saldığını göstərir. Digər tərəfdən də artıq dünyada beynəlxalq təşkilatların regionallaşdırılması başlayıb. Dünya getdikcə bölünür. Beynəlxalq səhnədə belə qeyri-sabitlik olduğu bir vəziyyətdə, Aİ, G7, BRICS, Ərəb Liqası və AUKUS kimi situativ koalisiyalar və regional bloklar, sadəcə, əlverişli olduqlarına görə daha çox maraq doğurur.

Bundan əlavə, bir neçə ildir ki, BMT-nin islahatına ehtiyacın vacibliyi barədə müzakirələr davam edir. Bir çox ölkələr hesab edirlər ki, təşkilat artıq mövcud olmayan bir dünyanı əks etdirir, çünki təşkilatın 80 illik fəaliyyəti ərzində çox şey dəyişib. Məsələn, Qlobal Cənubun BMT Təhlükəsizlik Şurasında təmsilçiliyinin artırılmasının zəruriliyi, Afrika və Latın Amerikası ölkələrinin, eləcə də Türkiyənin, Hindistanın rolu barədə müzakirələr aparılır. Bu mənada, Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın yüksək tribunadan səsləndirdiyi "dünya 5-dən böyükdür" ifadəsi, eləcə də Azərbaycan Prezidenti İlham Əliyevin beynəlxalq məclislərdə bəyan etdiyi "BMT-nin fəaliyyətində islahatlara böyük ehtiyac duyulur" fikri buna əyani sübutdur. Bu, etibarsızlığa və BMT-nin qlobal böhranların həllində rolunun azalmasına səbəb olur.

Narahatlıq doğuran məqamlardan biri də ondan ibarətdir ki, təşkilatın maliyyə iflası daha çox kasıb ölkələrə mənfi təsir göstərir. BMT-nin humanitar missiyaları, qaçqınlara yardım proqramları, tibbi və ərzaq proqramları maliyyə çatışmazlığı səbəbindən təhlükə altında olduğundan, ən kasıb və ən böhranlı ölkələrdə insanların ərzaq payı azaldılır, peyvənd oluna bilmir və ya münaqişə baş verdikdə sığınacaq axtarırlar.

Təşkilatın maliyyə problem gərginləşdiyi bir vaxtda BMT-nin yeni Baş katibi vəzifəsinə seçkilər də artıq yaxınlaşmaqdadır. Əslində, seçki prosesi rəsmi olaraq 2025-ci il noyabrın 25-də, Baş Assambleyanın sədri və BMT Təhlükəsizlik Şurasının sədri üzv dövlətlərə namizədlərini irəli sürməyə dəvət edən birgə məktub göndərdiyi tarixdən başlayıb. Nizamnaməyə görə, namizəd bir və ya daha çox üzv dövlət tərəfindən irəli sürülə bilər, lakin hər ölkənin yalnız bir nəfəri irəli sürmək hüququ var.

Baş katibin seçilməsi proseduru olduqca mürəkkəbdir. BMT Nizamnaməsinə görə, Baş katib Təhlükəsizlik Şurasının tövsiyəsi ilə Baş Assambleya tərəfindən təyin olunur. Lakin bu qısa formul da mürəkkəb, çoxmərhələli prosedur ehtiva edir.

Təhlükəsizlik Şurasında səsvermə, bəlkə də, seçki dövrünün ən mürəkkəb prosesidir, çünki onun bütün üzvləri bir sıra gizli səsvermələr keçirirlər və hər birinin səs verməsi "lehinə", "əleyhinə" və ya "rəysiz" səsvermələridir. BMT Təhlükəsizlik Şurasının beş daimi üzvü - Rusiya, ABŞ, Çin, Birləşmiş Krallıq və Fransa - veto hüququna malik olduqları üçün hər biri istənilən namizədi bloklaya bilər. 2016-cı ildə Quterreş Baş katib seçiləndə Təhlükəsizlik Şurasının konsensusa gəlməsi üçün altı səsvermə mərhələsi tələb olunurdu. Buna görə də Baş Assambleya tərəfindən qəbul edilən qərar olduqca formal xarakter daşıyır və adətən Təhlükəsizlik Şurası tərəfindən təsdiqlənən namizəd səs çoxluğu ilə qəbul edilir.

Namizədlərlə ictimai dinləmələr artıq 2026-cı il aprelin 20-dən 27-dək keçirilib. Təhlükəsizlik Şurasında səsvermə isə bu il iyul ayının sonuna planlaşdırılıb. Təşkilatın maliyyə çöküşü ilə üzləşdiyi belə bir vaxtda seçkilərin baş tutub-tutmayacağı da sual doğurur.

***Hazırladı:***
***İlqar RÜSTƏMOV***
***XQ***

# Avropa İttifaqında miqrasiya ziqzaqları

## *Sərt deportasiya siyasəti narahatlıq yaradır*



**Avropa İttifaqı miqrasiya siyasətində yeni mərhələyə qədəm qoyur. Brüssel deportasiya prosedurlarını sürətləndirməyi, sığınacaq almaq hüququ əldə edə bilməyən şəxslərin geri qaytarılmasını asanlaşdırmağı və xarici sərhədlər üzərində nəzarəti gücləndirməyi nəzərdə tutan yeni qaydalar üzərində razılığa gəlib.**

Razılaşmanın ən diqqətçəkən məqamlarından biri isə uğursuz sığınacaq müraciəti etmiş şəxslərin Aİ hüdudlarından kənarda yaradılacaq xüsusi mərkəzlərə göndərilməsinin mümkün olmasıdır. Qərar Aİ-nin son illərdə həyata keçirdiyi genişmiqyaslı miqrasiya islahatlarının tərkib hissəsidir. Maraqlıdır ki, razılaşma növbəti həftə qüvvəyə minəcək yeni miqrasiya və sığınacaq paketindən əvvəl əldə olunub. Görünür, Brüssel prioritetlərini dəyişir. Əgər bir müddət əvvəl Avropa daha çox humanitar yanaşmanı ön plana çıxarırdısa, indi əsas diqqət sərhədlərə nəzarət və miqrasiya axınlarının idarə olunmasına yönəlir.

Avropa Komissiyası bu addımı praktiki zərurətlə əsaslandırır. Rəsmi statistika göstərir ki, sığınacaq müraciəti rədd edilən şəxslərin yalnız bir hissəsi geri qaytarılır. Qalanları isə müxtəlif hüquqi və inzibati səbəblərdən Avropa ölkələrində qalmağa davam edir. Brüssel hesab edir ki, bu vəziyyət həm qanunvericiliyin effektivliyini azaldır, həm də cəmiyyətlərdə narazılıq yaradır. Yeni qaydalar isə qəbul edilmiş qərarların icrasını sürətləndirməyə xidmət etməlidir. Lakin məsələ yalnız inzibati mexanizmlərlə məhdudlaşmır. Qərar Avropa siyasətində müşahidə olunan daha geniş tendensiyanın göstəricisidir. Son illər miqrasiya mövzusu bir çox Avropa ölkəsində daxili siyasi gündəmin əsas məsələlərindən birinə çevrilib. Sağçı və millətçi partiyalar məhz miqrasiya məsələsindən istifadə edərək seçici dəstəklərini artırıblar.

Yeni yanaşma müəyyən narahatlıqlar doğurur. İnsan hüquqları təşkilatları və bəzi ekspertlər hesab edirlər ki, Aİ hüdudlarından kənarda yaradılacaq mərkəzlər insan hüquqlarının qorunması ilə bağlı yeni suallar yarada bilər. Onların fikrincə, həmin şəxslərin hüquqi müdafiəyə çıxışı, saxlanma şəraiti və beynəlxalq standartların təmin olunması məsələləri diqqətlə izlənilməlidir. Əlbəttə, Avropa Komissiyası bu tənqidlərlə razılaşmır. Rəsmi mövqeyə görə, yeni qaydalar sığınacaq hüququnu məhdudlaşdırmır və beynəlxalq müdafiəyə ehtiyacı olan şəxslərin hüquqlarına toxunmur. Dəyişikliklər, sadəcə, müraciəti rədd edilən və Avropa ərazisində qalmaq üçün hüquqi əsası olmayan şəxslərə şamil olunur. Brüssel isə bunu mövcud qaydaların daha səmərəli tətbiqi kimi təqdim edir. Ancaq məsələdə müəyyən paradoks da mövcuddur. Aİ uzun illərdir özünü insan hüquqlarının və humanitar dəyərlərin müdafiəçisi kimi təqdim edir. Bu səbəbdən miqrasiya siyasətində sərt xəttin güclənməsi bəzi müşahidəçilər tərəfindən Avropanın normativ imici ilə ziddiyyət kimi qiymətləndirilir. Tənqidçilər hesab edirlər ki, miqrasiya probleminin sərhəd təhlükəsizliyi prizmasından qiymətləndirilməsi düzgün deyil. Digər tərəfdən, Avropa hökumətlərinin üzləşdiyi reallıqları da nəzərə almamaq mümkün deyil. Ukraynadakı müharibə, Yaxın Şərqdəki gərginliklər, Afrikadakı iqtisadi problemlər və iqlim dəyişiklikləri miqrasiya təzyiqini artırır. Avropa liderləri hesab edirlər ki, sərhədlər üzərində nəzarət gücləndirilməsə, siyasi, sosial sabitlik risk altına düşə bilər.

Maraqlıdır ki, Brüssel miqrasiya problemini getdikcə daha çox xarici amillə həll etməyə çalışır. Son illər üçüncü ölkələrlə bağlanan razılaşmalar, tranzit dövlətlərlə əməkdaşlığın genişləndirilməsi və miqrasiya marşrutlarının Avropa sərhədlərinə çatmadan idarə olunması cəhdləri bu siyasətin tərkib hissəsidir. Yeni deportasiya mərkəzləri məhz həmin yanaşmanın davamı kimi görünür. Lakin ekspertlərin əhəmiyyətli hissəsi hesab edir ki, sərhəd nəzarəti miqrasiyanın əsas səbəblərini aradan qaldırmır. Müharibələr, yoxsulluq, siyasi qeyri-sabitlik və sosial problemlər milyonlarla insanı yaşadığı yerləri tərk etməyə məcbur edir. Bu səbəblər mövcud olduqca miqrasiya axınlarının tam qarşısını almaq çətin olacaq.

Aİ-nin yeni qərarı Brüsselin miqrasiya məsələsində daha sərt və nəzarətçi xətt seçdiyini göstərir. Bu siyasət qısamüddətli perspektivdə deportasiya mexanizmlərini sürətləndirə və üzv dövlətlərin narahatlıqlarını qismən azalda bilər. Lakin onun insan hüquqları, beynəlxalq hüquq və Avropanın dəyərləri baxımından doğuracağı nəticələr hələ də müzakirə mövzusudur. Məhz buna görə yeni qaydalar Aİ-nin gələcək siyasi kimliyinin formalaşmasında mühüm rol oynayacaq. Brüssel sərhədlər üzərində nəzarəti gücləndirməyə çalışarkən, humanitar məsuliyyətlə təhlükəsizlik arasında tarazlığı qorumaq vəzifəsi ilə də üz-üzə qalacaq. Bu da qarşıdakı illərdə Avropa siyasətinin ən mürəkkəb sınaqlarından biri olacaq.

Sonda bir maraqlı məqamı da vurğulayaq ki, Aİ-nin son illər miqrasiya sahəsində atdığı addımlar, müəyyən mənada, uzun müddət tənqid etdiyi Rusiyanın sərt nəzarət yanaşmasını xatırlatmağa başlayır. Rusiyada da miqrasiya siyasəti daha çox təhlükəsizlik prizmasından idarə olunur və dövlət miqrant axınlarını ciddi qeydiyyat, nəzarət və sürətli deportasiya mexanizmləri ilə tənzimləyir. Aİ isə nə qədər beynəlxalq öhdəlikləri qoruduğunu bildirsə də, sərhəd nəzarətinin getdikcə ön plana çıxması göstərir ki, miqrasiya təzyiqi qarşısında Brüssel də sərt siyasətə doğru istiqamətlənir.

***Nəzrin ELDARQIZI***
***XQ***

### *Ekspert rəyi*



**Xəyal BƏŞİROV,**
**Siyasi və Hüquqi Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq**

Son illər Avropada miqrantlara münasibətdə məhdudiyyətlərin artmasının, qaydaların sərtləşməsinin şahidi oluruq. Bu, təkcə bir neçə addımla izah edilə bilməz. Proses ardıcıl şəkildə dərinləşən siyasi kursun tərkib hissəsidir. Əvvəlki mərhələdə əsas müzakirə mövzusu miqrantların qəbul olunması və sığınacaq prosedurlarının tənzimlənməsi idisə, indi diqqət daha çox deportasiya mexanizmlərinə yönəlib. Bu isə Avropa İttifaqı daxilində və onun sərhədlərinə yaxınlaşan miqrantlara münasibətdə daha sərt yanaşmanın formalaşdığını göstərir. Sərtləşmənin səbəbləri təkcə miqrasiya axınlarının artması ilə bağlı deyil, həm də uzun illər yürüdülən qlobal siyasətin nəticəsidir. Xüsusilə 2011-ci ildə "Ərəb baharı" adı altında Yaxın Şərq və Şimali Afrikada baş verən proseslər regionda sabitliyi ciddi şəkildə pozdu və milyonlarla insanın öz ölkələrini tərk etməsinə gətirib çıxardı. Müharibələr, daxili qarşıdurmalar və iqtisadi çöküşlər nəticəsində formalaşan miqrasiya dalğası Avropaya yönəldi və bu, qitənin sosial və siyasi sistemi üçün sınaq oldu. Rusiya–Ukrayna müharibəsi də miqrasiya təzyiqini artıran əsas amillərdən biridir. İndi proseslərin nəticəsi olaraq Avropaya üz tutan insanlara münasibətdə qaydalar daha da sərtləşdirilir.

Qlobal miqyasda təhlükəsizlik narahatlıqlarının artması, siyasi qütbləşmənin güclənməsi və sərhəd siyasətinin sərtləşməsi Avropanı daha qapalı və nəzarətli modelə doğru aparır. Bu mənada, Avropa İttifaqı həm sərhədlərini qorumağa, həm demoqrafik sabitliyi təmin etməyə, həm də daxili siyasi təzyiqlərə cavab verməyə çalışır. Amma mövcud yanaşmanı təkcə Avropaya aid etmək düzgün olmaz. Digər ölkələr də öz vətəndaşlarının gələcəkdə miqrasiya və deportasiya riskləri ilə üzləşməməsi üçün əvvəlcədən sosial və iqtisadi şəraiti yaxşılaşdırmağa çalışmalıdırlar. İnsanların miqrasiyaya məcbur qalmasına səbəb olan amillər aradan qaldırılmadıqca, prosesin qarşısını almaq mümkün deyil.

Ümumilikdə isə son illər baş verən hadisələr göstərir ki, Avropa İttifaqı daha sərt miqrasiya siyasətinə doğru gedir. Bu isə gələcəkdə həm qitə daxilində, həm də beynəlxalq miqrasiya sistemində yeni çağırışlara səbəb olacaq.

*Qardaşlıq körpüsü*

# Bakıdan Tbilisiyə yollar açıqdır...

**Doğma təhsil ocağında işıqlı bir ülfət çırağının istisinə isinmişdik. Məktəb illərinin bənzərsiz və doyumsuz anları çoxdan arxada qalıb.**

Yeddi yaşımızda birinci sinfə getdik. İndi ömrün yetmişinə yetişirik. Faxralı kənd orta məktəbini düz yarım əsr bundan əvvəl bitirdik. Ali təhsil almaq üçün Tbilisidən Bakıya sərnişin qatarı ilə gəldik. O zaman qatarın fit səsi könlümüzə layla çalır, qəlbimizi oxşayırdı. Uğurumuz xeyir oldu. Arzumuz kama yetdi. Ona görə, Tbilisi–Bakı qatarının yaşıdlarımızın yaddaşında xüsusi yeri var.

O qatar gəncliyimizə sevinc, ürəyimizə hərarət, arzularımıza qanad verdi. Hərəmiz bir ülvi arzunun sorağında, bir könül yolunun marağında idik. Borçalıdan Bakıya uzanan könül yolunda arzusuna çatanlar çox oldu. Məzun olduğumuz il məktəbin tarixində ən güclü buraxılış ili oldu. Aramızdan alim də, həkim də, müəllim də, mühəndis də, şair də, jurnalist də çıxdı. Sinif yoldaşımız Əflatun Amaşov Mətbuat Şurasının sədri olarkən Milli Məclisin deputatı seçildi. Elimizin adına ucalıq gətirdi.

Orta məktəbdə dəyərli müəllimlərimizdən dərs aldıq. Ağaclar bar verəndə meyvələr bağları bəzədiyi kimi, müəllimlərin ümidini doğruldan şagirdlər də oxuduqları məktəbin adını bəzəyir.

Sevə-sevə bizə elm öyrədən müəllimlərimizlə yanaşı, yaşadığımız mühit də bizə dərs verdi – həyat dərsi! Ömrün hər günü bizə bir sınaq, bir imtahan oldu. Həyat insanı həmişə sınaqlardan keçirir. Ötən günlərin sınaqları hələ də yadımızdan çıxmayıb.



...İllər keçdi, yaşa dolduq. Biz yaşa dolduqca sıralarımız seyrəldi. Nəslimizin yarpaq tökümü başladı. Həmin məktəb yoldaşlarımızdan bir çoxu bu gün həyatda yoxdur. Tale onların ömrünü yarıda qoydu.

Heyif sizdən, sıralarımızı vaxtsız tərk edən məktəb yoldaşlarımız-Sabir Ömərov, İbrahim Əlizadə, Adil Həsənov, Rəşid Qasımov və başqaları... Bizdən xoş xatirələrlə ayrıldınız... Birlikdə qatarla Tbilisidən Bakıya ali təhsil almağa gəldiyimiz gün heç yadımdan çıxmır. Adınız da, xatirələriniz də bizim üçün könül ziyarətidir.

Adlarını qeyd etdiyim məktəb yoldaşlarımızın hamısı Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) nüfuzlu fakültələrinə qəbul oldular və universiteti müvəffəqiyyətlə bitirdilər. Sabir, İbrahim və Rəşid fizika-riyaziyyat elmləri üzrə fəlsəfə doktorları oldular. Adil isə universitetin coğrafiya fakültəsini bitirdikdən sonra təyinatla Balakən rayonunda işləməyə göndərildi. Bir müddət orada müəllim kimi çalışdıqdan sonra, Balakən rayon Təhsil Şöbəsində müxtəlif vəzifələrdə işlədi.

Hər biri işlədiyi sahədə millətinə, dövlətinə fayda verib, vaxtsız bu dünyadan köçdü. Onların yoxluğu sıralarımızda böyük bir boşluq yaratdı.

Vaxt vardı, oğlanlı-qızlı məktəb yoldaşlarımızın hamısı bir yerdə olardı. Sinif otaqlarımız bahar ətrilə dolardı. İndi ömrümüzün payız fəslidir. Payız yelləri soyuq nəfəslidir. Başımızın üstündən payız yelləri əssə də, könlümüzdə qönçələr gül açır. Uşaqlıq çağımızın o fərəhli günlərində təbiət önündə diz çöküb bənövşələri qoxladığımız günlər bir də ömrümüzə qayıtmaz.

Nə yaxşı ki, ilin dörd fəsli varmış. Yoxsa, ömrün ilk baharının qədrini bilməzdik. Ömrün şən, fərəhli yeddisindən qayğılı yetmişinə yetişirik. Keçmiş xatirələrin yerində qalan isə həyat eşqimizdir. Təki insanın həyat eşqi tükənməsin.

Dünyaya göz açdığım, qucağında böyüdüyüm kəndimizin həsrətinə minnətdaram. Xatirə qanadlarında həsrətli könlüm kəndimizdəki məktəbi dolanıb gəlir. Məktəbə getdiyimiz kəndarası yollar, dünya görmüş sıra dağlar göz önündən gəlib keçir.

Altı ildir Gürcüstanla sərhəddə quru yollar bağlı olduğuna görə gedib-gələ bilmirik. Doğmalarımızın, əzizlərimizin qəbirlərini ziyarət edə bilmirik. Məktəb yoldaşlarımızdan, qohumlarımızdan da kənddə yaşayanlar var. Onlara əlimiz çatmasa da, birgə keçən günlərimizi sözdə yaşatmaq üçün Bakıda yaşayanlarla vaxt olduqca görüşürük. Hər görüşdə yeni bir ruh duyulur.

Son günlərədək ümidsizlik ürəyimizi üzmüşdü. Evimizin yaxınlığından keçən qatarların fit səsi ürəyimə xüsusi bir sevinc gətirdi. Artıq Bakıdan Tbilisiyə gedən qatarlar Vətən torpaqlarının üstündəki dəmir yolunda dolana-dolana şütüyür. İllərdən bəri fəaliyyətsiz qalmış Bakı-Tbilisi sərnişin qatarı yenə ürəyimizi, ruhumuzu özü ilə çəkib aparır. Yenə də qatarın yolunu gözləyən doğmalar, əzizlər bir-birini qucaqlayıb bağrına basır. Vağzalda elə kövrək, elə titrək səslə dinib danışırlar ki... Üzlərindən kövrəklik, narahatlıq, həm də gizli bir sevinc ifadəsi oxunur. Hərdən hönkürtü və qəhqəhələr də bir-birinə qarışır. Tbilisiyə getməyə hazırlaşan ixtiyar yaşında bir ana onu ötürməyə gələn nəvəsindən hər dəfə soruşurdu:

- Dərdin alem, Tbilisiyə gedən qatar budurmu, nə vaxt tərpənəcək? Hələ Tbilisidə düşüb ordan da Borçalıya getməliyəm.

İxtiyar ananın üzündə işıqlı bir təbəssüm vardı. Onun bu halı məni əməlli-başlı kövrəltdi. Sonra da ağır-ağır əl ağacına dirsəklənərək ayağa durdu. Səndələyə-səndələyə vaqona tərəf getdi. Qatar bələdçisinin və nəvəsinin köməyi ilə vaqona qalxdı. Elə bil, çiyinlərində həsrət, qəm-qüssə dolu bir yük aparırdı.

Nəvəsinin dediyinə görə, səksən beş yaşlı nənəsi Borçalıya getməyi çox arzulayır. Amma təyyarəylə gedə bilmir. Sərnişin qatarı fəaliyyətə başlayan gündən doğmalarının yanına getmək üçün sanki qol-qanad açıb. Bakıdan qatara mindirib yola salırıq. Tbilisidə də qohumlar qarşılayacaq. Amma quru sərhədlər açılsa, ahıl yaşlı insanlar Borçalıya daha rahat gedib-gələr. Nənəmin son arzusu, son istəyi də budur.

Azərbaycanın quru sərhədləri pandemiyaya görə, 2020-ci ilin yazından bağlıdır. Hələ ki, hava yolu və dəmir yolu ilə gedib-gəlmək mümkündür. Çox güman ki, bir gün də Borçalıya quru yolla gedə biləcəyik. Bu arzu da gözəl səslənir – Bakıdan Borçalıya yollar görünür...

*Həzi HƏSƏNLİ,*
*şair-publisist*

# “Dəmir İpək yolu” yenidən işə salındı




**İyunun 2-də Gürcüstanın Axalkalaki dəmir yolu və logistika kompleksində regionun mühüm yükdaşıma marşrutlarından olan Bakı–Tbilisi–Qars (BTQ) dəmir yolu xəttinin modernləşdirilmədən sonra istifadəyə verilməsi ilə bağlı mərasim keçirilib.**

Təntənəli açılışda Gürcüstanın Baş naziri İrakli Kobaxidze və iqtisadiyyat və dayanıqlı inkişaf naziri Mariam Kvrişivili, Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev, Türkiyənin nəqliyyat və infrastruktur naziri Abdulkadir Uraloğlu, həmçinin üç ölkənin dəmir yolu administrasiyalarının rəhbərləri iştirak ediblər. İrakli Kobaxidze BTQ-nin modernizasiya layihəsini Azərbaycan, Gürcüstan və Türkiyə arasında əməkdaşlığın uğurlu nəticəsi adlandırıb. Nazir qeyd edib ki, görülmüş işlər müasir standartlara uyğun icra olunub, nəticədə BTQ üzərindən regional yükdaşımaların əhəmiyyəti və regionun tranzit imkanları artıb.

Gürcüstanın iqtisadiyyat və dayanıqlı inkişaf naziri Mariam Kvrivişvili BTQ-nin Çin, Mərkəzi Asiya və Avropanı birləşdirərək iqtisadi inteqrasiyanı gücləndirdiyini bildirib. Onun sözlərinə görə, yenilənmiş BTQ Azərbaycan və Gürcüstanın regional daşımalardakı əhəmiyyətini artıracaq. Eyni zamanda, Orta Dəhlizlə yükdaşımaların artması fonunda BTQ-nin rolu güclənəcək.

Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev BTQ-nin hələ 2017-ci ildə istifadəyə verilməsini Avrasiya bağlantıları tarixində yeni bir səhifə adlandırıb. Nazir qeyd edib ki, BTQ-nin modernləşdirilməsi Azərbaycanın davamlı investisiya öhdəliyinə sadiqliyini və bu dəmir yolu xəttini Orta Dəhlizin mühüm dayağına çevirmək üçün strateji fəaliyyətini nümayiş etdirir.

Türkiyənin nəqliyyat və infrastruktur naziri Abdulkadir Uraloğlu isə BTQ-ni üç ölkənin etibarlı tərəfdaşlığının bariz nümunəsi adlandırıb. Nazirin sözlərinə görə, uğurla tamamlanmış layihə birgə məqsədyönlü fəaliyyətin məntiqi sonluğudur və artıq BTQ Avrasiya nəqliyyat xəritəsində həm Qafqaz regionunu, həm də Türkiyəni daha strateji şəkildə mövqeləndirir.

Çıxışların ardınca BTQ-nin modernləşdirilmədən sonra istifadəyə verilməsini rəsmiləşdirən rəmzi düymənin sıxılması mərasimi keçirilib və görülmüş işlərlə bağlı videoçarx nümayiş etdirilib.

Qeyd edək ki, 2024-cü ildə “Azərbaycan Dəmir Yolları” QSC (ADY) tərəfindən Orta Dəhlizin mühüm seqmentlərindən olan BTQ-nin imkanlarının artırılması məqsədilə xəttin Gürcüstan ərazisindən keçən 184 kilometrlik hissəsində modernləşdirmə işləri aparılıb.

5 mərhələdən ibarət layihə 13 dəmir yolu stansiyası, 55 körpü, 8 dartı yarımstansiyası, 320 bina və süni mühəndis qurğularını (körpü, yolötürücü, keçid və s.) əhatə edib. Layihə çərçivəsində 30,3 km uzunluğunda yeni dəmir yolu xətti, təkər cütlərinin dəyişdirilməsi stansiyası, 153,1 km uzunluğunda mövcud dəmir yolunun reabilitasiya və rekonstruksiyası üzrə işlər həyata keçirilib.

Görülmüş işlər nəticəsində BTQ-nin illik yükötürmə qabiliyyəti 1 milyon tondan 5 milyon tona çatdırılıb, bu xətt Çin və Mərkəzi Asiyadan Avropaya doğru daha funksional quru marşrutlardan birinə çevrilib.

***XQ***

## “Gəncə Cihazqayırma zavodu” ASC-nin 2025-ci il dekabrın 31-nə mühasibat balansı

**Ölçü vahidi: manat**

| Bölmələrin, maddələrin adları | 31 dekabr 2025-ci il | | 31 dekabr 2024-cü il | |
|---|---|---|---|---|
| **AKTİVLƏR** | | | | |
| **Uzunmüddətli aktivlər** | | | | |
| Qeyri-maddi aktivlər | 537,29 | | 596,99 | |
| Torpaq, tikili və avadanlıqlar | 1651012,04 | | 1627976,71 | |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | **1651549,33** | | **1628573,7** |
| **Qısamüddətli aktivlər** | | | | |
| Ehtiyatlar | 6110927,31 | | 5387082,94 | |
| Qısamüddətli debitor borcları | 14019438,31 | | 2454999,62 | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 561137,39 | | 2277218,7 | |
| Sair qısamüddətli maliyyə aktivləri | | | | |
| Sair qısamüddətli aktivlər | 832985,64 | | 2241981,68 | |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | | **21524488,65** | | **12361282,94** |
| **CƏMİ AKTİVLƏR** | | **23176037,98** | | **13989856,64** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | | |
| Ödənilmiş nominal (nizamnamə) kapital | 211956 | | 211956 | |
| Kapital ehtiyatları | 1289221,71 | | 1289221,71 | |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 12881662,71 | | 10313251,31 | |
| **CƏMİ KAPİTAL** | | **14382840,42** | | **11814429,02** |
| **CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | **0,00** | | **0** |
| **Qısamüddətli öhdəliklər** | | | | |
| Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | 3000000 | | 0 | |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 1249120,23 | | 394772,9 | |
| Qısamüddətli kreditor borcları | 1544077,34 | | 1437120,55 | |
| Sair qısamüddətli öhdəliklər | 3000000 | | 343534,17 | |
| **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | **8793197,57** | | **2175427,62** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **8793197,57** | | **2175427,62** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **23176037,98** | | **13989856,64** |

### Məcmu mənfəət və zərər haqqında hesabat

| Göstəricilərin adları | Hesabat dövrü üzrə | Əvvəlki dövr üzrə |
|---|---|---|
| Əsas əməliyyat gəlirləri | 37244515,26 | 28341444,50 |
| Satışın maya dəyəri üzrə xərclər | -32475548,37 | -24183794,14 |
| **Ümumi mənfəət (zərər)** | **4768966,89** | **4157650,36** |
| Sair əməliyyat gəlirləri | 13017,24 | 0,00 |
| İnzibati xərclər | -519508,64 | -273933,93 |
| Sair əməliyyat xərcləri | -106349,27 | -246943,75 |
| **Əməliyyat mənfəəti (zərəri)** | **4156126,22** | **3636772,68** |
| **Vergi qoymadan əvvəl mənfəət (zərər)** | **4156126,22** | **3636772,68** |
| Mənfəət vergisi | -832437,47 | -744847,46 |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | **3323688,75** | **2891925,22** |
| **Məcmu gəlir (xalis mənfəətin (zərərin) və digər məcmu gəlirin cəmi)** | **3323688,75** | **2891925,22** |

### Kapitalda dəyişikliklər haqqında hesabat

| GÖSTƏRİCİLƏR | Ödənilmiş nizamnamə kapitalı | Kapital ehtiyatları | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | Cəmi |
|---|---|---|---|---|
| | | Digər ehtiyatlar | | |
| Əvvəlki hesabat dövrünün əvvəlinə olan qalıq | 211956 | 1289222 | 7423956 | **8925133** |
| **Səhvlərin düzəldilməsindən sonra əvvəlki hesabat dövrünün əvvəlinə qalıq** | 211956 | 1289222 | 7423956 | **8925133** |
| Əvvəlki hesabat dövründə xalis mənfəət (zərər) | | | 2891925 | **2891925** |
| Mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi (dividendlər) | | | -2629,48 | **-2629,48** |
| **Əvvəlki hesabat dövrünün sonuna qalıq** | **211956** | **1289222** | **10313251** | **11814429** |
| **Səhvlərin düzəldilməsindən sonra hesabat dövrünün əvvəlinə qalıq** | 211956 | 1289222 | 10313251 | **11814429** |
| Hesabat dövründə xalis mənfəət (zərər) | | | 3323689 | **3323689** |
| Mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi (dividendlər) | | | -755277 | **-755277** |
| **Hesabat dövrü üzrə kapitalda dəyişikliklərin cəmi** | **0** | **0** | **2568411** | **2568411** |
| **Hesabat dövrünün sonuna qalıq** | **211956** | **1289222** | **12881663** | **14382840** |

### Pul vəsaitlərinin hərəkəti haqqında hesabat

| GÖSTƏRİCİLƏR | Hesabat dövrü üzrə | Əvvəlki dövr üzrə |
|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| Hesabat dövründə xalis mənfəət və ya zərər | 3323688,75 | 2891925,22 |
| mənfəət vergisi üzrə xərclər | 832437,47 | 744847,46 |
| amortizasiya xərcləri | 354516,22 | 344396,05 |
| **Dövriyyə kapitalındakı dəyişikliklərə qədər əməliyyat fəaliyyəti üzrə xalis pul vəsaitləri** | **4510642,45** | **3981168,73** |
| Aşağıdakı maddələr üzrə baş verən dəyişikliklər: | | |
| Ehtiyatların azalması (artması) | -723844,37 | 905138,28 |
| əməliyyat debitor borclarının azalması (artması) | -11564438,69 | -1565458,91 |
| sair qısamüddətli aktivlərin azalması (artması) | 1408996,04 | 1140540,55 |
| vergi və sair məcburi ödənişlər üzrə öhdəliklərin artması (azalması) | 854347,33 | 394772,9 |
| əməliyyat kreditor borclarının artması (azalması) | 106956,79 | 366620,85 |
| Sair qısamüddətli öhdəliklərin artması (azalması) | 2656465,83 | -4346236,07 |
| Ödənilmiş (qaytarılmış) mənfəət vergisi | -832437,47 | -744847,46 |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **-3583312,1** | **131698,87** |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkətləri** | | |
| Torpaq, tikili və avadanlıqların, qeyri-maddi aktivlərin və digər uzunmüddətli aktivlərin əldə edilməsi üçün pul vəsaitlərinin xaricolmaları | -377491,86 | -349605,11 |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **-377491,86** | **-349605,11** |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti** | | |
| təminatsiz istiqrazların, borc sənədlərinin, veksellərin, istiqraz vərəqələrinin, girov kağızlarının buraxılmasından və digər qısamüddətli və uzunmüddətli borcların alınmasına görə pul vəsaitlərinin daxilolmaları; | 6000000 | 2000000 |
| borc şəklində alınmış məbləğlərin geri qaytarılmasına görə pul vəsaitlərinin xaricolmaları | -3000000 | -2000000 |
| dividendlər və buna oxşar digər ödəmələr şəklində pul vəsaitlərinin xaricolmaları | -755277,35 | -2629,48 |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **2244722,65** | **-2629,48** |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması)** | **-1716081,31** | **-220535,72** |
| **Pul vəsaitlərinin və onların ekvivalentlərinin hərəkəti** | | |
| **bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin əvvəlinə olan məbləği** | **2277218,7** | **2497754,41** |
| **bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin sonuna olan qalığı** | **561137,39** | **2277218,69** |

### MÜSTƏQİL AUDİTORUN HESABATI

### “GƏNCƏ CİHAZQAYIRMA ZAVODU” ASC-nin səhmdarlarına və rəhbərliyinə

***Rəy***

Biz, "GƏNCƏ CİHAZQAYIRMA ZAVODU" ASC-nin (VÖEN 2301024501) 2025-ci il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatdan, məcmu gəlirlər hesabatından, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini apardıq.

Bizcə, əlavə edilmiş maliyyə hesabatları cəmiyyətin 2025-ci il dekabrın 31-nə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə düzgün və ədalətli əks etdirir.

***Rəy üçün əsaslar***

Biz, auditi Beynəlxalq audit standartlarına (BAS-lara) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz əlavə olaraq hesabatımızın “Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti” bölməsində təsvir edilir. Biz, Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid etik normaların tələblərinə uyğun olaraq cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Bizcə, əldə etdiyimiz audit sübutları rəyi əsaslandırmaq üçün yetərli və münasibdir.

***Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti***

Rəhbərlik, maliyyə hesabatlarının MHBS-yə (Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına) uyğun olaraq hazırlanmasına, düzgün təqdim edilməsinə, rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ yaranmadığı halda, rəhbərlik cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər cəmiyətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyırlar.

***Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti***

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik, əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun aparılmış audit onu həmişə aşkarlasın. Təhriflər, dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud, məcmu olaraq istifadəçilərin maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmək ehtimalı yarandığı halda, əhəmiyyətli hesab olunur.

**“BAKI HESABAT MƏRKƏZİ”**
**MMC-nin direktor-auditoru**
**Mehdi Babayev**

Xalq qəzeti

XQ

xalqqazeti.az

№ 95 (31064) 3 iyun 2026-cı il, çərşənbə

# “Sülh rəmzi uşaqlar”

**Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunmuş “Sülh rəmzi uşaqlar” adlı ədəbi-musiqili şənlik keçirilib.**

Məclisi giriş nitqi ilə muzeyin direktoru, akademik Rafael Hüseynov açaraq uşaqları əlamətdar gün münasibətilə təbrik edib, onlara sağlam həyat, xoş, firavan günlər arzulayıb. Uşaqların Beynəlxalq Müdafiəsi Gününün tarixi əhəmiyyətindən danışan direktor uşaqların hüquqlarının qorunmasının cəmiyyətin əsas vəzifələrindən biri olduğunu vurğulayıb. Alim uşaqlara qayğının, diqqətin, onlara parlaq gələcək bəxş edilməsinin ilk şərtinin yüksək təhsil və elmlərə yiyələnmək olduğunu bildirib.

Akademik Rafael Hüseynov istedadlı uşaqların inkişafına dəstək verilməsinin zəruriliyini qeyd edərək, ölkəmizdə uşaqlar üçün yaradılan şəraitdən, onların azad və təhlükəsiz yaşamaları, təhsil almaları, inkişaf etmələri və mütəxəssis kimi formalaşmaları istiqamətində həyata keçirilən dövlət layihələrindən danışıb.

Mərasimin aparıcısı, muzeyin gənc alimlər şurasının sədri Nuran Bağırova istedadlı uşaqları səhnəyə dəvət edib.

Şagirdlərin vokal və musiqi alətlərində ifaları, Azərbaycan Ukrayna, Çin, italyan, rus, urdu, türk dillərində dünya ədəbiyyatından seçmə qiraətləri, eləcə də rəsm əsərlərinin sərgisi və digər təqdimatları şənliyə təntənə gətirib.

“Sülh rəmzi uşaqlar”ın incəsənət üzrə gənc istedadları – Tofiq Quliyev adına 12 nömrəli məktəbin, Avropa-Azərbaycan Məktəbinin, Bakı Türk İlkokulunun, 3 saylı Uşaq-Gənclər İnkişaf Mərkəzinin və 3 saylı Respublika Xüsusi İnternat Məktəbinin şagirdlərinə Ədəbiyyat Muzeyinin Fəxri fərmanları verilib.



***Q.YUSİFOĞLU***
***XQ***

## İDMAN

### Minifutbol millimiz 1/4 finalda



**Minifutbol üzrə Azərbaycan milli komandası Avropa çempionatının 1/8 finalında Qazaxıstan seçməsi ilə görüşüb. Oyun millimizin 3:2 hesablı qələbəsi ilə başa çatıb. Komandamızın heyətində Rəvan Kərimov, İsa Atayev və Məhəmməd Xəlilov rəqib qapısına yol tapıblar.**

Komandamız dünən gecə yarısı 1/4 finalda Çexiya təmsilçisi ilə qarşılaşıb.

### Azərbaycan daha bir mötəbər turnirə ev sahibliyi edəcək




**2026-cı ilin iyul ayında Azərbaycan növbəti dəfə beynəlxalq idman ictimaiyyətinin diqqət mərkəzində olacaq. Bakı şəhəri “Sərbəst Piramida” növü üzrə Avropa Kuboku və Avropa Çempionatına ev sahibliyi edəcək. Qitənin ən güclü bilyard ustalarının iştirakı ilə keçiriləcək yarış ölkəmizin beynəlxalq idman tədbirlərinin təşkili sahəsində qazandığı uğurların növbəti nümunəsi olacaq.**

Turnir Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi, Azərbaycan Bilyard Federasiyası (ABF) və Avropa Piramida Federasiyasının (EPF) dəstəyi ilə keçiriləcək. Yarış qitənin müxtəlif ölkələrindən ən güclü idmançıları bir araya gətirəcək və beynəlxalq bilyard təqvimində ilin ən əlamətdar hadisələrindən biri olacaq.

Proqrama əsasən 5–8 iyul tarixlərində 40 yaşdan yuxarı idmançılar arasında Avropa Kuboku keçiriləcək, 8–12 iyul tarixlərində isə “Sərbəst Piramida” üzrə Avropa Çempionatı baş tutacaq.

### Kamandan oxatma ölkə birinciliyi yekunlaşıb



**Gənclər və İdman Nazirliyi və Azərbaycan Kamandan Oxatma Federasiyasının birgə təşkilatçılığı ilə kamandan oxatma üzrə ölkə birinciliyi uğurla başa çatıb. Hövsan Olimpiya İdman Kompleksində təşkil olunan yarışlar çərçivəsində gənc idmançılar gərgin və maraqlı mübarizə şəraitində öz məharətlərini nümayiş etdiriblər.**

Yarışların U18 və U21 kateqoriyaları üzrə qaliblər kvalifikasiya mərhələsinin nəticələrinə uyğun olaraq müəyyən edilib. U18 kateqoriyası üzrə Zəhra Carçılı və Nurlan Rəhimli 1-ci yeri, Sümeyyə Bədəlli və Sərdar Vəliyev 2-ci yeri, Yağmur Qurbanlı və Hüseyn Məhərrəmov isə 3-cü yeri tutublar.

Yarışların U21 kateqoriyasında Fatimə Hüseynli və Əli Qənbərli 1-ci yerə, Aliyə Əliyeva və Anar Cavadzadə 2-ci yerə, Kseniya Butrik və İslam İsmayılov isə 3-cü yerə layiq görülüblər. Ölkə birinciliyinin U15 kateqoriyası üzrə keçirilən mübarizəsində isə Sona Rüstəmli və Məhəmməd İsmayılov 1-ci yeri, Məryəm İbrahimli və Əhməd İsmayılov 2-ci yeri, Banu Məmmədova və Saleh Məmmədli isə 3-cü yeri qazanıblar. Gərgin mübarizənin sonunda fəxri kürsüdə yer alan qalib idmançılara mükafatlar Suraxanı Gənclər Evinin əməkdaşı Aysel Hacıyeva, Hövsan Olimpiya İdman Kompleksinin direktoru Əli Məlikzadə və Federasiyanın şöbə müdiri Kamran Həsənzadə tərəfindən təqdim edilib.

***Qabil YUSİFOĞLU***
***XQ***

## *Təbiət və biz*

# İlanlar insanları niyə sancır?

**Son günlər sosial şəbəkələrdə istər regionlarda, istərsə də şəhər ərazisində ilanların müşahidə olunması ilə bağlı vətəndaşların paylaşımlarına tez-tez rast gəlirik. Bu da, təbii ki, insanlarda narahatlıq yaradır. Xatırladaq ki, bir neçə gün öncə Göyçay rayonunun Şəkər kəndi sakini 54 yaşlı Eldar Əliyev örüş sahəsində heyvan otararkən ilan onun baş nahiyəsindən sancıb. Digər hadisə isə Ağdamın Mirəşeli kəndində baş verib. Kənd sakini Tamaşa Məmmədova həyətdə iş görərkən ilan onu sancıb. Maraqlıdır ki, ilanların aqresivləşməsinə səbəb nədir?**



**Elm və Təhsil Nazirliyinin Canlı Sistemlərin Tədqiqi İnstitutu PHŞ-nin onurğalıların biomüxtəlifliyi və ekologiyası laboratoriyasının müdiri, biologiya üzrə fəlsəfə doktoru, dosent Təvəkkül İsgəndərov** XQ-yə mövzu ilə bağlı açıqlamasında bildirdi ki, son vaxtlar havaların istiləşməsi ilə ilanların aktivləşməsi müşahidə olunur. Apreldə havalar hələ tam istiləşmədiyindən belə hallar az olurdusa, may ayının ilk günlərindən etibarən günəşli havaların ardıcıl olması, yer səthinin də istiləşməsi ilanların aktivliyini daha da artırır. Bu aylardan etibarən ilanların qışlamadan çıxması və uzun müddət qışlamada olduqları üçün ac qalmaları səbəbindən aktiv şəkildə yemlənməyə ehtiyacı var. Nəticədə ətraf ərazilərdə yaşayış məskənləri, iş, istirahət obyektləri varsa, bu yerlərə kimi gəlirlər.

Bu rastlaşmanın bir səbəbi də tək ilanların fəallığı deyil, eyni zamanda, insanların da təsərrüfatla, gəzinti ilə bağlı ərazilərə çıxmalarıdır. Çox vaxt belə təəssürat yaranır ki, ilanlarla tez-tez rastlaşmanın səbəbi onların sayca artımıdır. Bu, qətiyyən doğru deyil. İlanlar hansı güvənlə artsın? İlan yaşayan yerlər getdikcə azalır, sıradan çıxır və sıxışdırılır.

İndiki şəraitdə vətəndaşlar daha çox ehtiyatlı olmalı və rastlaşan zaman aqressivlik göstərib ilanın üstünə getməməlidirlər. Əgər ilanla rastlaşmısınızsa, bu halda ilanın üstünə gedib onu öldürməyə cəhd edəcəksinizsə, o da, necə deyərlər, instinktiv olaraq özünümüdafiə davranışı edəcək, sancmağa çalışacaq. Yaxud ilan olan ərazidə gəzərkən ehtiyatlı olmasaq, kolun dibində, hansısa sığınacağın yaxınlığından keçsək, ilan bunu özünə təhlükə bilib sanca da bilər. Ona görə də belə vaxtlarda ərazidə gəzərkən, işləyərkən ilanları cəlb edən amil varsa, yaxud olması mümkündürsə, ehtiyatlı olmağınız məsləhətdir.

Alimin sözlərinə görə, həyət-bacada ilanların gizlənməsi üçün sığınacaqlar olmamalıdır. Yəni ağac budamalarından yığılan, tikinti materialından, zibil tullantılarından, kolkos, siçan dəlmə-deşikləri olan yeraltı yuvalar–belə yerlər ilanların sığınması üçün ən əlverişli yerlərdir. Yay günlərində havalar istiləşir, yerin üstünə əl qoymaq olmur, yandırır, belə hallarda ilanlar görünmür. Onlar yalnız sərinlik axtarıb gizlənirlər. İlanlar çox vaxt həyətdə meyvə ağaclarına qidalanmaq üçün gələn və burada qurulan quşların yuvalarına da hücum edir. İlanlar belə yerlərdə quşu tutmaq və yaxud da quş yuvasında çıxmış balaları yemək üçün ağaca da çıxırlar.

Bir məlumatı da qeyd edək ki, 2026-cı ilin aprel ayında Klinik Tibbi Mərkəzin Toksikologiya şöbəsinə ümumilikdə 79 nəfər müxtəlif mənşəli zəhərlənmə səbəbilə hospitalizasiya olunub. Pasiyentlərdən 3 nəfər ilan sancmasında müalicəyə cəlb olunub.

T.İsgəndərov daha sonra bildirdi ki, şəhər mühitində, məsələn, şəhər mərkəzində ilanların yaşaması üçün heç bir şərait yoxdur. İlanların sevmədiyi bir şey də insan iştirakıdır,



səs-küy, narahatedici faktorların olmasıdır. Şəhər mühitində bu faktorlar çoxdur, ilanların gizlənməsi üçün, yemlənməsi üçün şərait yoxdur. Hər yer abadlaşmış qazonlardır, asfaltdır və belə yerdə ilanların qalması uzun müddət mümkün deyil.

Hətta şəhərin mərkəzində, bu xüsusən də dənizkənarı bulvar ərazisində də ilanlarla rastlaşmaq mümkündür. Xırda balıqlarla qidalanmaq üçün daşlı-qayalı dəniz sahilində su ilanları kütləvi halda yaşayırlar. Orda olan su ilanları da bulvar ərazisinə yem axtarmaq, yumurta qoymaq üçün sığınacaq axtarmaqla əraziyə çıxa bilər.

Azərbaycanda indiki təsnifata görə, 26 növ ilan yayılıbdır. Onlardan dördü zəhərlidir. Bu dörd zəhərli ilanın insanlara daha çox rastlaşanı Levant gürzəsidir və Azərbaycanın bütün arid ərazilərində geniş yayılıb. Bu gürzəyə enliyarpaq dağ meşələrindən, yüksək dağlıq ərazilərdən, Talış zonasından başqa Azərbaycanın bütün isti və quraq düzənliklərində, dağətəyi çöllüklərində rast gəlinir.

Təvəkkül müəllimin fikrincə, ilanlardan qorunmağın iki yolu var. Birincisi, təbii yoldur. Unutmamalıyıq ki, qışlamadan yenicə çıxmış ilanlar olduqca fəaldırlar. Çox vaxt biz, ilanlar üçün öz ərazimizdə əlverişli şərait yaradıb, sanki, ilanları “dəvət” edirik. Bu nə deməkdir? Çünki ilanlar gizlin həyat tərzi keçirirlər. Onlar yedikləri heyvan növləri olan əraziləri tapır, sonra orada şikarını tutmaq üçün gizlənmə yeri seçib pusqu qurur və şikarı keçərkən ani sıçrayışla tutur. Əgər biz təsadüfən bu yerə çox yaxın keçsək, ilan təhlükə hiss etdiyi üçün bizi də sanca bilər. Belə halda günahkar ilan deyil, biz özümüz oluruq ki, ilanın həmin yerdə gizlənə biləcəyini unudub ehtiyatsızlıq etdik!

Qorunmağın ikinci yolu ilan keçməsi ehtimal olunan yerləri, hasardakı məsamələri, ərazidə gizlənməsi mümkün ola biləcək yerləri xüsusi kəskin qoxulu maye, toz və ya briket (dənəvər) formada olan ilanqovucu preparatlarla işləməkdir. Bu preparatlar zəhərli olmayan, ərazini ekoloji cəhətdən çirkləndirməyən kəskin qoxulu kimyəvi qarışıqlar və maddələrdən ibarət olmalıdır. İlanların kəskin iy və qoxulara qarşı həssas olduğunu nəzərə alsaq, ancaq onların köməyi ilə ilanları ərazidən uzaqlaşdırmaq mümkündür.

Mütəxəssis ilan sancması zamanı görülməli olan ilkin tədbirlərə də toxunur: “Əgər ilan sancması baş veribsə, birinci növbədə, sancılmış nahiyəni hərəkətsizləşdirmək lazımdır. Çünki hərəkət zamanı qan dövranı sürətlənir və zəhər orqanizmə daha tez yayılır. Şini qoymaq, yəni sınıqlarda olduğu kimi qolu və ya ayağı bərkitmək lazımdır ki, hərəkət etməsin.

Yaranı kəsmək, yandırmaq və ya rezinlə sıxmaq (turna qoymaq) qətiyyən olmaz. Bu, toxumaların ölməsinə və daha ağır fəsadlara yol aça bilər. Ən düzgünü xəstəyə bol maye vermək və təcili olaraq yaxın tibb məntəqəsinə, xəstəxanaya çatdırmaqdır. Azərbaycanda bütün dövlət xəstəxanalarında zəhər əleyhinə zərdablar (antigürzə) mövcuddur və vaxtında tibbi yardım göstərildikdə xəstənin həyatını xilas etmək tamamilə mümkündür”.

***Müşfiq MİRZƏ***
***XQ***

## HAVA

# Gecə və səhər qısamüddətli yağış...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gecə bəzi şəhərətrafı ərazilərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Şimal-qərb küləyi səhər mülayim cənub-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturunun gecə 14-17, gündüz 21-26 dərəcə isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi 767 millimetr civə sütunundan 763 millimetr civə sütununa enəcək. Nisbi rütubət 50-60 faiz təşkil edəcək.**



Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gecə və səhər bəzi yerlərdə yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli intensivləşəcəyi, şimşək çaxacağı, dolu düşəcəyi proqnozlaşdırılır. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 15-18, gündüz 23-28, dağlarda gecə 5-10, gündüz 13-18, bəzi yerlərdə 20-25 dərəcə isti olacağı bildirilir.

***Q.ƏLİYEV***
***XQ***

# Azərbaycanlı alim Bişkekdə Beynəlxalq Simpoziumda

**Azərbaycan Urologiya, Nefrologiya və Böyrək Transplantasiyası Mütəxəssisləri Assosiasiyası İdarə Heyətinin sədri, tibb elmləri doktoru Rəşad Şolan Bişkekdə keçirilən Orqan Donasiyası və Transplantasiyasına həsr olunmuş Beynəlxalq Simpoziumda 2 məruzə ilə çıxış edib.**

Türk Dünyası Transplantologiya Cəmiyyətinin təşkil etdiyi məclisdə 16 ölkədən aparıcı mütəxəssisləri iştirak ediblər. Rəşad Şolan simpoziumda Azərbaycanda böyrək transplantasiyası sahəsindəki elmi tədqiqatlarının nəticələrini beynəlxalq auditoriyaya təqdim edib.

***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Dillər Universitetinin rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi magistratura şöbəsinin müdiri, dosent Namiq Əsədova anası

**AİDƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

“Xalq” qəzeti redaksiyası” MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3183
SİFARİŞ 696
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Nurlan ABDALOV

Çapa imzalanmışdır 00:00